# VALİDEYN DUASININ GÜCÜ



STORMİ OMARTİAN

Stormi Omartian

# VALİDEYN DUASININ GÜCÜ

# ÖN SÖZ

Mənim anam — dünyada ən gözəl anadır. O, hər zaman məni ruhlandırır və hər işdə mənə kömək etməyə çalışır. Mənə olan məhəbbətinə və dualarına görə ona çox minnətdaram. Anam mənim üçün dua edir və düşünürəm ki, bu da mənə dərslərimdə və həyatımda böyük dəstək verir. Anamın duaları mənə çox şeylərdə dəyişilməyə kömək edir və yəqin ki, onların sayəsində bu dünyada yaşayıram. Anamın duaları bir dəfə möcüzə yaratdı. Həyatımda heç ağlıma belə gətirə bilmədiyim gözəl bir hadisə baş verdi. Bizim sinifdə çox qorxduğum və bacardıqca uzaq gəzməyə çalışdığım, çox pis xasiyyətli və qəzəbli bir qız var idi. Anama onun barəsində danışanda, mənə o qız üçün birlikdə dua etməyi təklif etdi. Bu fikir mənim çox xoşuma gəldi və biz dərs ilinin sonuna kimi, hətta bütün yay boyu, hər gün onun üçün birlikdə dua etdik. Yeni dərs ilində möcüzə baş verdi: həmin qız tamamilə dəyişərək, mənim ən yaxın rəfiqələrimdən biri oldu. Əvvəllər başıma belə bir iş gəlmədiyi üçün, bu hadisə mənim bütün həyatıma çox güclü təsirini göstərdi.

Anamın duaları öz işini görür. Nadir hallarda biz dualarımıza tez cavab almayanda da, onlar yenə də məni çox ruhlandırır. Mən Rəbbə və öz anama çox minnətdaram. Anacan, çox sağ ol.

*Amanda Omartian (13 yaş)*

Etiraf etməliyəm ki, sevən və qayğıkeş valideynlərimin duası məni həqiqətən də qoruyur. Mənim atam və anam hər şeyi başa düşəndirlər, lakin, hərdən çox gülməli olurlar. Valideynlərimin malik olduqları gözəl xüsusiyyətlərdən ən çox qiymətləndirdiyim, mənim və bacım üçün etdikləri dualarıdır. Əgər onların duasının mənim həyatımda oynadığı rolu izah etməyə başlasam, yəqin ki, anamın bu kitabda yazdıqlarından çox yazardım. Ona görə də, valideyn duasının gücünü tamamilə hiss etdiyim bir hadisəni xatırlamaq istəyirəm.

Həyatımın on səkkiz illik dövrü ərzində valideynlərim mənim təhlükəsizliyim üçün dua ediblər. Mən «sülh» şəhəri adlanan Los-Ancelesdə böyüdüyüm üçün onların duaları mənim üçün dayaq kimi xidmət edib. Məktəb illərində baş vermiş bir hadisəni çox yaxşı xatırlayıram. Onda Allah məni çox ciddi avtomobil qəzasından qorudu. Bir səhər, mən və iki sinif yoldaşım təhlükəsizlik kəmərini bağlamadan maşınla dərsə gedirdik. Bu zaman dörd yol ayrıcında başqa bir avtomobillə üz-üzə dəydik. Maşın dostlarımdan birini külək şüşəsindən atdığı üçün, çox ciddi yaralanmışdı. O biri oğlanın isə üzü sükana dəyərək, bərk əzilmişdi. Mən arxada oturduğum üçün, kürəyimin aşağısından aldığım yüngül zədə ilə ötüşdüm. Biz hamımız ölə bilərdik, lakin Rəbb, Öz qanadlarının kölgəsi altında bizi qorudu və saxladı. Yalnız o zaman valideyn duasının vacibliyini hiss etdim və bizi təhlükə gözləyən zaman, Allahın həyatımıza necə müdaxilə etdiyini gördüm.

Mənim həyatım üçün etdikləri təkidli dualarına görə valideynlərimə çox minnətdaram. Bu dualar məni təkcə təhlükədən deyil, həm də salehlik və həqiqət yollarında qoruyur.

Mənim indi on səkkiz yaşım var və düşünürəm ki, valideynlərimin duaları sayəsində həyatımda çox gözəl şeylər baş verəcək. Mənə elə gəlir ki, onlar mənim tezliklə ailə qurub, köçməyim üçün dua edirlər. Yəqin ki, bundan sonra onlar rahat nəfəs alacaqlar.

*Kristofer Omartian (18 yaş)*

*Qalx, gecə fəryad etməyə, gecə növbələri başlay-arkən Xudavəndin hüzurunda qəlbini sular kimi aç tök. Əllərini Ona aç, övladlarının sağ qalmasını dilə...*

*Mər. 2:19*

# MİNNƏTDARLIQ


- Qızım Amanda və oğlum Kristoferə, ona görə ki, onlar mənim həyatımı sevinclə doldurublar və dua etmək üçün mənə bu qədər çox səbəb veriblər.
- Həyat yoldaşım Maykla, son iyirmi il ərzində mənimlə birlikdə övladlarımız üçün duada keçirdiyi saysız-hesabsız saatlara görə.
- Katibəm Syuzan Martinesə, bacarığına, işində göstərdiyi hədsiz köməyinə və bir bacı və rəfiqə kimi mənə verdiyi təsəlliyə, ruhlandırmasına və dəstəyinə görə.
- Eylin Meysona — mənim redaktorum və Rəbdə əziz bacıma, bu kitabın həqiqi mənasını dərindən başa düşdüyünə, köməyə ehtiyacı olan bütün valideynlərə göstərdiyi hədsiz qayğı və məhəbbətinə görə, özünün bütün xəzinələrini bölüşməyə hazır olan böyük ürəyinə görə.
- Betti Fletçer və Cudit Markxemə, mənim istedadlı redaktorlarıma, ümumi işimizdə onların qiymətsiz xəzinələrinə görə.
- «Xarvest Xaus» nəşriyyatının əməkdaşları böyük — Bob Xokinsə, kiçik-Bob Xokinsə, Bill Censenə, Culi Makkiniyə və Lare Veykertə, ona görə ki, onlar bacarıqlarını Rəbbin izzəti üçün istifadə etməklə, mənim kimi müəlliflərə ümid verib, kömək edərək özlərini yaxşı bir işə həsr ediblər.

- Mənim duaçı dostlarım Syuzan Martinesə, Roza Tompsona və Yan Villiamsona mənə, övladlarıma və bu kitaba vəsadətçi duaları ilə verdikləri xeyir-duaya görə.
- Məndən uzaqda yaşayan duaçı bacılarım Debre Qoldstouna, Pamela Xarta və Liza Velçel Kobla, onlardan ayrılıb Tennes ştatına köçdükdən sonra da məni yaddan çıxarmadıqlarına, bu kitabın ərsəyə gəlməsində göstərdikləri köməyə və mənəvi yardımlarına görə.
- Ruhani atam Pastor Cek Xeyforda, mənə dua etməyi öyrətdiyinə görə.
- Pastor Deyl Evristə və onun həyat yoldaşı Coannaya, həqiqi xəzinəni yalnız Allahda tapmağın mümkün olduğunu daim mənə xatırlatdıqlarına görə.
- Övladlığa götürdüyüm Con Deyvid Kendrikə, doğma anası bu dünyanı tərk etdikdən sonra məni öz anası hesab etdiyinə görə.
- Təsərrüfat müdirim Telma Pena Lopesə, on yeddi illik sədaqətli xidmətinə və ana qəlbi üçün dil məhdudiyyətinin olmadığını bütün həyatı ilə sübut etdiyinə görə.

# 1 FƏSİL

# ÖVLADLARIMIZ ÜÇÜN DUA ETMƏYİ NECƏ ÖYRƏNMƏLİ

Bu, yer üzündə ən əhəmiyyətli, ən çətin və ən məsuliyyətli işlərdən biridir. O, ən böyük sevinc gətirər və çox güclü ağrı verə bilər. Bunun qədər qəlbi fərəhləndirən və bunun qədər acı məyusluq mənbəyi olan heç nə yoxdur. İnsan həyatının heç bir sahəsi, hər şey yaxşı olan zaman bu qədər sevinc və coşqunluq, uğursuzluq zamanı isə bu qədər kədər verə bilməz. Övlad tərbiyəsi!

«Tərbiyə» sözünün özü böyüklərdə çox müxtəlif emosiyalar yaradır. Biz bütün gücümüzü uşaqlarımızın tərbiyəsinə sərf edirik. Uğur əldə etdiyimizə əmin olmağa başlayan zaman, övladlarımızın həyatlarının yeni mərhələsi yeni problemlər yaradır. Hərdən bu coşqun dənizdə asan üzə bilirik, hərdən isə fırtına bizi haqlayır və dalğalar başımızın üstünü örtür. Hərdən kədər bizi bürüyür və biz: «nə olursa qoy olsun, dalğalar məni udsun» — deyə, təslim olmağa hazırıq.

Lakin mən sizi ruhlandırmaq istəyirəm. Biz heç də şəraitə təslim olmalı deyilik. Bizim övladlarımızın həyatı təsadüflərdən asılı olmamalıdır. Övladlarımızın bizə gətirə biləcəyi «sürprizlərin» qarşısında qorxudan əsərək, dırnaqlarımızı dişləyib və barmaqlarımızı sındırıb, otaqda əsəbi halda ora-bura vurnuxmaq lazım deyil. Övladlarımızın

həyatının bu və ya digər mərhələsinin yaxınlaşdığından qorxub, onları hər tin başı hansısa təhlükənin gözlədiyini fikirləşməli deyilk. Biz kamil valideynlər olmaya bilərik, ancaq övladlarımızın həyatlarını müsbət tərəfə dəyişmək bizim gücümüz daxilindədir. Övladımızın neçə yaşı olmasının fərqi yoxdur: üç dəfə boşanmış otuz yaşlı oğulun (bu boşanmanın üçü də onun spirtli içkiyə olan güclü istəyi üzündən baş vermişdi) duaya olan ehtiyacı, kamillik nümunəsi olan təzə doğulmuş üç günlük körpənin duaya olan ehtiyacından heç də az deyil. Övladlarımızın neçə yaşı olmasından asılı olmayaraq, bizim dualarımız ancaq onların xeyrinə xidmət edir. Duanın mənası övladlarımızın həyatını öz gücümüzlə dəyişməyə çalışmaq deyil, bütün zamanların ən kamil valideyni olan Səmavi Atamıza müraciət etməkdir. Beləliklə, addım-addım irəliləyərək, övladlarımız üçün vəsadətçilik etməyi öyrənib, duada onların həyatlarının bütün sahələri haqqında Rəbbə bildirməyi bacarmalıyıq. Burada insanın təsəvvür edə bilməyəcəyi dərəcədə çox böyük qüdrət gizlənmişdir. Ona görə də valideyn duasının gücünü qiymətləndirməmək mümkün deyil.

Çox təəssüf ki, mənim valideynlərim bənzəmək üçün nümunə olmayıblar. Mənim anam xasiyyətcə qərarsız və iradəsiz bir insan olub. Belə təcavüzkar tərbiyənin nəticələrindən möcüzəli surətdə azad olmağım haqqında Stormi kitabında («Xarvest Xaus» nəşriyyatı) danışmışam. Mən həm də orada Kristofer doğulduqdan sonra onunla, anamın mənimlə rəftar etdiyi kimi davrandığım haqqında da danışmışam. Mən başa düşdüm ki, biz Allahsız olduqda, bir zamanlar valideynlərimizin şahidi olduğumuz səhvlərini bilmədən təkrar edirik. Biz nə baş verdiyini və bununla bacara biləcəyimizi dərk etməzdən əvvəl, zəif anlarımızda uşaqlıq dövrünün mənzərələri yaddaşımızda parlaq işıq kimi canlanır. Belə anlarda övladlarımızı ağır yaralaya biləcək sözləri dilimizə gətiririk. Bu, övladlarımız qarşısındakı günah hissindən daha da dərinləşərək, bizdə kök salır, sonra da dəhşətli ölçüdə boy atır. Nə yaxşı ki, mənim yanımda bu çətinlikləri keçməyə kömək edən insan var idi. Onun köməyi sayəsində

övladlarıma heç bir ziyan vurmayaraq, bu çətinliklərə qalib gəldim. Çünki, hər valideyn belə vəziyyətlərdən qalib çıxa bilmir.

Lap əvvəldən özümü pis ana hesab edərək, ilk övladımın doğulmasından sonra çox əsəbiləşir və həyəcan keçirirdim. Anamla olan münasibətim məni yaraladığı kimi, mən də onu belə yaralayacağımdan qorxurdum. Evimizdə tərbiyə mövzusunda olan bütün kitabları oxumuşdum və uşaqların məsihçi tərbiyəsinə aid heç bir mühazirəni buraxmamağa çalışırdım. Bütün bu xeyirli məlumatları mənimsəməyə can atırdım, lakin, bu da kifayət deyildi. Oğlumun ruhani, əqli və emosional inkişafına görə saysız-hesabsız qorxular mənə əzab verirdi. Lakin ən çox onun başına nə isə gələ biləcəyi qorxusu məni dəhşətə gətirirdi. Onu oğurlaya bilərdilər, o, boğula bilər, qəzaya uğraya bilər, dəhşətli şikəst ola bilər, xəstələnə bilər, yoldan çıxarıla və ya ölə bilərdi. Oğlumun gələcəyi üçün keçirdiyim qorxu hissi məni iflic etmişdi. Analıq təşvişini nə qədər öldürməyə çalışsam da, hər bir jurnal mövzusu, törədilmiş cinayət haqqında televiziya xəbərləri övladımın həyatı üçün məni daha da qorxuya salırdı. Bundan əlavə cinayət azğınlığı ilə «məşhur» olan Los-Anceles şəhərində yaşayırdıq. Bu, mənim gücüm xaricində idi.

Bir dəfə kədər içində yalvardım: «Ya Rəbb, artıq dözə bilmirəm. Mən gecə-gündüz oğlumu qoruya bilmərəm. Mən qəlb rahatlığı tapmaq istəyirəm. Nə edim?». Növbəti həftə ərzində Rəbb mənimlə danışaraq, məni Kristoferi Ona etibar etməyə inandırdı. Oğlumuz doğulandan sonra biz, həyat yoldaşımla birlikdə, onu Rəbbə həsr etmişdik, lakin O, bizdən daha böyük şey istəyirdi. Rəbb istəyirdi ki, biz övladımızı Onun əllərinə etibar edək. Lakin bu, o demək deyil ki, körpəni Allahın əllərinə verdikdən sonra bizim üzərimizdən uşağın taleyi üçün olan məsuliyyət götürülür. Biz özümüzü Allahla sıx ünsiyyətdə görmək istəyirdik. Bilirdik ki, O Özü bizə dayaq olaraq, bizi öyrədəcək və hər şeyi bizdən daha yaxşı edəcək. Biz də öz növbəmizdə övladımıza nizam-intizamı öyrədib, nəsihət verəcəyik, «uşağa tərbiyə ver ki, layiqli yol tutsun» və o «qocalanda da bu

yoldan dönməz» (Sül. 22:6-ya bax). Biz tamami ilə Allaha etibar etməli idik, çünki ancaq O, bizim oğlumuzun tərbiyəsinin qayğısına qala və onun həyatını qaydasına qoya bilərdi.

Kristoferin həyatının hər bir sahəsi üçün dua etmək çox vacib idi. Bunu dərk edərkən gördüm ki, oğlum üçün qorxu mənə əzab verməyə başlayanda, Müqəddəs Ruh mənim diqqətimi Kristoferin duaya ehtiyacı olan müəyyən çətinliyinə doğru cəlb edir. Mən dua edib, oğlumu Rəbbin əllərinə etibar edəndə O, məni bu qayğılardan azad edirdi. Ancaq bu, o demək deyil ki, mən daha bu ehtiyaclar üçün dua etmirdim. Sadəcə olaraq, müəyyən müddət bu yük mənim çiyinlərimdən götürülürdü və həmin çətinlik yenidən meydana çıxan kimi, mən dua etməyə başlayırdım. Allah mənə söz verməyib ki, mənim oğlumla heç vaxt heç bir pislik baş verməyəcək, lakin mənim dualarım Allahın qüdrətini azad edib, Kristoferin həyatında hərəkət edərək, onu qoruyur. Bununla da mən rahatlıq tapırdım.

Onu da dərk etdim ki, övladım üçün Rəbbə dua edərkən, öz xudbin arzularımı güdməməliyəm. Beləliklə, dilədiyim həyata keçəndə, biz hamımız yalnız məyusluq hiss edirdik. Yəqin ki, çoxlarına bu cür dua tanışdır: «Ya Rəbb, dua edirəm ki, Kristofer böyüdükdə bizim ən yaxşı dostlarımızdan birinin qızı ilə evlənsin» (çünki onun valideyni ilə qohum olmaq heç də pis olmazdı). Ya da: «Ya Rəbb, elə et ki, bu məktəbdə Amandaya qarşı yaxşı münasibət olsun» (Çünki bu zaman mən rahat olardım). Yəqin ki, biz, belə gizli düşüncələrimizi dilə gətirmirik, lakin, onlar bizim şüurumuzda qalaraq bizə təsir etməyə çalışır və öz arzularımızı Allaha diqtə etməyə məcbur edir. Buna görə də mən dua üçün başqa üsul seçdim: «Ya Rəbb, mənə övladım üçün dua etməyi öyrət. Onu Sənin əmrlərinə əsasən tərbiyə etməyi mənə öyrət. Qoy Sənin iradən onun həyatında icra olunsun».

Dörd il yarımdan sonra qızım Amanda doğulduqda, Rəbb artıq mənə övladımın ehtiyaclarını öz arzularımla əvəz etməyərək, onun üçün dua etməyi öyrətmişdi. Ona görə də qızım üçün çox fəal vəsa-

dətçilik edirdim. Allah növbəti on iki il ərzində mənim dualarıma ən möcüzəli şəkildə cavab verirdi və mən bu gün onların nəticələrini görürəm.

Biz həyat yoldaşımla hiss edirik ki, Allah övladlarımızın qayğısına qalır, onlar isə Onu, sevinclə qəbul edir və hörmət edirlər, çünki valideynlər övladları üçün dua edəndə, Allahın qüdrəti onların həyatına daxil olur.

## Dua nədir və o necə hərəkət edir?

Dua, Allaha təqdim olunmuş qeyri-adi arzular siyahısıdır. O, sanki göylərdəki ən yaxşı Baba və yaxud Santa Klausdur. Dua, həyatımızda Allahın hüzurunu dərk etmək və Onun rəhbərliyini axtarmaq deməkdir. Duanın mənası, Allahın hüzurunu axtarmaq və Onun qüdrətini azad etməkdən ibarətdir ki, bu da öz növbəsində bizə bütün çətinliklərə qalib gəlməyə kömək edir. Müqəddəs Kitab deyir: «…Yer üzündə bağlayacağınız hər şey göydə bağlanmış olur və yer üzündə açacağınız hər şey göydə açılmış olur (Mat. 18:18). Allah bizə yer üzündə hakimiyyət verib. Biz bu hakimiyyəti qəbul edən zaman O, Öz qüdrətini də bizə ötürür. Bu, bizim deyil, Allahın qüdrəti olduğu üçün biz bu qüdrətin dolduğu qablara çevrilirik. Biz dua edən zaman, duamız bu qüdrətin dua etdiyimiz hər bir şeyə çatması üçün yol açır. Biz isə ancaq öz zəifliyimizi etiraf edəndə, bu qüdrətin hərəkət etməsinə şərait yaradırıq. Biz dua vasitəsilə Allahın qarşısında həlimləşərək deyirik: «Ya Rəbb, mənim, Sənin gücünə və hüzuruna ehtiyacım var. Mən Sənsiz çox zəifəm. Biz dua etmədikdə, sanki heç bir çətinliyimizin olmadığını elan edirik.

İsanın ismi ilə dua — Allahın qüdrət xəzinələrini açan möcüzəli açardır: «Sizə doğrusunu, doğrusunu deyirəm: Atadan Mənim adımla hər nə istəsəniz sizə verəcəkdir» (Yəh. 16:23). İsanın adı ilə dua, bizə düşmən üzərində səlahiyyət verir və Allahın Öz Sözündə vəd etdiklərini yerinə yetirdiyinə olan imanımız haqqında şəhadət edir.

Allah,bizim bütün düşüncə və ehtiyaclarımızı bilir. Lakin O, dualarımıza ona görə cavab verir ki, hər şeydə və həmişə bizə seçim hüququ versin. Buraya həm də, İsanın adı ilə Ona etibar və itaət imkanı da daxildir.

Dua nəinki bizə, həm də dua etdiyimiz insanlara öz təsirini göstərir. Övladlarımız üçün dua etdiyimiz zaman, biz Allahdan onların həyatına daxil olaraq, onun bir hissəsinə çevrilməsini və onların xoşbəxtliyi üçün hərəkət etməsini diləyirik. Lakin bu, o demək deyil ki, cavab gecikmədən gələcək. Hərdən günlərlə, həftələrlə, aylarla, hətta illərlə gözləmək lazım gəlir. Lakin bizim dualarımız heç vaxt səmərəsiz olmur. Əgər biz dua ediriksə, görüb, görmədiyimizdən asılı olmayaraq, mütləq nə isə dəyişiləcəkdir. Müqəddəs Kəlam deyir: «…saleh adamın duası çox güclü və təsirlidir» (Yaq. 5:16). Bizim və övladlarımızın həyatında nə baş verəcəksə, bu, yalnız Allahın iradəsi və Onun qüdrətinin hərəkəti nəticəsində baş verir. Biz dua edərkən, Allaha və Onun qüdrətinə qapı açır və Onu həyatımıza daxil olmağa dəvət edirik.

## Şəxsi ehtiyacların siyahısından başlayın

Qeyd etmək istəyirəm ki, övladlarım bətnə düşən andan onlar üçün dua etməyə başlamışam. Müqəddəs Kitab deyir: «Sənin əhalinə bərəkət verər» (Məz. 147:13). Mən duanın gücünə inansam da, həyatımızın hər bir hissəsinin Allah üçün nə qədər vacib olduğunu başa düşmürdüm. Təkcə bu gün üçün dua etmək kifayət deyil, gələcək üçün və keçmişin yararsız nəticələrindən azad olmaq üçün də dua etmək vacibdir. Davud padşah kədərə qərq olanda və gələcəyin qorxusu onu bürüyəndə (Zəb. 143-ə bax), o, «nə olursa, olsun» demədi. O, Allaha bu günü, keçmişi və gələcəyi üçün fəryad etdi. Biz də Davud kimi hər şey üçün dua etməliyik.

Mən başa düşdüm ki, bunun üçün hər bir uşağın ətraflı ehtiyac siyahısı lazımdır. Bu, zəhlətökən bir fikir deyil. Çünki bilirdim ki,

əgər mən hər bir ehtiyac üçün dua etməsəm, Allah mənə cavab verməyəcək. Allahın mənim saysız-hesabsız arzularımdan xəbərdar olduğuna əmin olduğuma görə çox rahat idim. Hər il ailəmlə birlikdə sahil kənarında keçirdiyim məzuniyyət dövründə, hər səhər hamı yatan zaman mən dua ehtiyaclarımın əsas siyahısını tərtib edərək, bir neçə qiymətli saatımı Rəbblə keçirirdim. Mən oturaraq, əlimdə qələm və kağız gözlərimi okeana dikib, Allahdan növbəti ildə mənə hər bir övladım üçün vəsadət duasında müdriklik verməsini diləyirdim. Çünki yalnız O, mənim övladlarımın indiki və gələcək yollarındakı çətinlikləri və onların həqiqətən nəyə ehtiyacları olduğunu bilir. Müqəddəs Kəlam deyir: «Rəbb, Ondan qorxanlara sirrini açar, onlara Öz əhdini öyrədər» (Zəb. 24:14). Əgər biz, ondan diləsək, Allah gizli sirlərini bizə açacaq. Həmin səhər saatlarında Allahla qurduğum ünsiyyət zamanı O, mənə yaxşı məsləhətlər verirdi. Mən də övladlarımın ehtiyaclarından ibarət siyahı tərtib edərək, evə qayıdırdım. Hər dəfə isə bu siyahıya əlavələr edirdim.

Mən hələ də onları saxlayıram. Hər dəfə onlara baxan zaman dualarıma aldığım cavabları və uşaqlarımın həyatındakı dəyişiklikləri görərək, bir daha Allahın Öz Sözündə necə sadiq olduğuna əmin oluram.

## Allah Kəlamı — sizin silahınızdır

Övladlarımız üçün mübarizə diz üstə baş verir. Biz dua etməyəndə, sanki kənardan övladlarımızın mübarizə meydanında, düşmənin dörd tərəfli atəşi altında necə döyüşdüyünü müşahidə edirik. Biz dua edəndə isə, onların yanında dayanıb, Allahı köməyə çağırırıq. Duada Onun Sözündən istifadə edərkən, hər bir düşmənə qalib gələn silahı əlimizə götürürük.

Allah Kəlamı: «Canlı və təsirli, hər cür ikiağızlı qılıncdan itidir» (İbr. 4:12). O, toxunduğu hər bir şeyi dəlib, keçir. Allah deyir: «Ağzımdan çıxan kəlmə də belədir: boş yerə yanıma qayıtmaz, ancaq

istədiyimi yerinə yetirər, onu göndərdiyim iş icra olunsun deyə həyata keçirər» (Yeş. 55:11). Bu o deməkdir ki, Allahın Sözü heç zaman səmərəsiz olmur. Elə buna görə də, bu kitabdakı hər duanın sonunda bir neçə Müqəddəs Kitab ayələri yerləşdirmişəm. Duaya, ona uyğun Müqəddəs Kitab ayələri əlavə etməyin nə qədər vacib olduğunu bilirəm. Əgər dua zamanı, sizə lazım olan ayəni yadınıza sala bilmirsinizsə, duanı saxlamayaraq, yadınızda qalan bir neçə ayədən sitat gətirə bilərsiniz. Bu zaman, necə möcüzələr baş verdiyini görəcəksiniz. Əgər siz, Allahla ünsiyyətə girib, Kəlam oxuyursunuzsa və övladlarınız üçün Müqəddəs Ruhun idarəsi ilə dua edirsinizsə, onda sizə, duaya əlavə etmək üçün yeni-yeni yerlər açılacaq. Hər dəfə duada, Müqəddəs Kəlamdan yeni yerlər istifadə etmək vacib deyil. Övladınızın hansısa çətinliyi üçün dua edən zaman, bir neçə ayəni əzbərləyib, ondan istifadə edə bilərsiniz. Misal üçün, qızım Amandanın məktəbdə çətinliyi olan zaman, biz birlikdə bunun həlli üçün dua edirdik və Amanda hər dəfə mənim məsləhətimlə bu ayəni təkrarlayırdı «Məni möhkəmləndirən Məsih vasitəsi ilə hər şeyi etməyə qadirəm» (Filip. 4:13). Mən tək dua edəndə isə, bu ayəni oxuyurdum: «Salehlər fəryad çəkəndə Rəbb eşidir, onları bütün əzablarından azad edir» (Zəb. 34:17).

Biz Allah Kəlamından istifadə edərkən, övladlarımızın həyatında Allahın vədlərinin icra olunmasına zəmanət veririk. Allah Kəlamı bizi istiqamətləndirir və Onun sədaqətini yadımıza salır. Beləliklə, O, bizim qəlbimizdə iman yaradır və Öz qəlbinin sirrlərini bizə açır. Bu da bizə Onun Sözünə, Onun iradəsinə və öz hakimiyyətimizə şübhə etmədən dua etməyə güc və cəsarət verir.

İsa — şeytanı Yazılarla ifşa edərək cavab vermişdi. Məsələn, şeytan İsaya deyəndə ki, mənə səcdə etsən, hər şeyi sənə verərəm, İsa cavabında dedi: «Allahın olan Rəbbə səcdə qıl və yalnız Ona qulluq et» (Luka 4:8).

İsa — bizə hər şeydə nümunədir. Biz Ona baxmaq və Ona bənzəmək üçün çağırılmışıq. O, deyib: «Sizə doğrusunu, doğrusunu de-

yirəm: Mənə iman edən, gördüyüm işləri özü də görəcək. Bunlardan daha böyük şeylər də edəcəkdir: ona görə ki, Mən Atanın yanına gedirəm» (Yəh. 14:12). O, həm də demişdi: «Əgər Məndə qalsanız və Sözlərim sizdə qalarsa, nə istəyirsiniz diləyin, sizə veriləcəkdir» (Yəh. 15:7). Əgər biz Rəbbin Öz Kəlamında bizə verdiyi nəsihətlərin razılığı ilə dua etsək və İsa Məsihdə malik olduğumuz qüdrət və hakimiyyətin həqiqi mənasını dərk etsək, o zaman şeytana qarşı daha qətiyyətlə dura bilərik. Əgər biz,

Ona baxırıqsa,
Onun yolları ilə gediriksə,
Ona ümid bağlayırıqsa,
Ona səcdə edib, Onun Sözünə əsasən yaşayırıqsa,
Övladlarımız üçün mübarizədə qalib çıxacağıq.

Yadınızda saxlayın, övladlarınız üçün dua edən zaman elə dua edin ki, elə bil onların bütün həyatı bundan asılıdır və bu, həqiqətən də belədir. Yadda saxlayın ki, Allahın mükəmməl fikirləri olduğu kimi, şeytanın da öz planları var. Şeytan bizim övladlarımızın həyatını məhv etmək istəyir. Ona görə də o, bütün mümkün üsullardan: narkotik, seks, spirtli içki, tərs xasiyyət, xəstəliklərdən və başqa şeylərdən istifadə edəcək. Lakin, bizim dualarımızın təsiri altında onun gücü zəifləyir və o, bu üsullardan heç birini istifadə edə bilmir. Müqəddəs Kitab öyrədir: «Bir adam qüvvətlinin evinə girib onun əşyasını necə oğurlaya bilər? Ancaq qabaqca qüvvətlinin qollarını bağlarsa, o zaman evini oğurlaya bilər» (Yəh. 12:29). Bu, o deməkdir ki, döyüş meydanında düşmənin özünü bağlayıb, onu hakimiyyətdən məhrum etmədən, heç bir şey etmək mümkün deyil. Ancaq bu şəkildə şeytanın övladlarımızın həyatına daxil olmasına əngəl törədə bilərik.

Onu da nəzərə almalıyıq ki, əgər biz, övladlarımıza həqiqət yollarında nəsihət verməsək, Allahın əmrlərinə hörmət etməyi, Allaha məqbul seçimlər etməyi, nizam-intizamlı olmağı öyrətməsək, onlara rəhbərlik etməsək və istiqamətləndirməsək, iblis bizə çox böyük zərər vura bilər. Müqəddəs Kitab deyir: «Uşağa tərbiyə ver ki, layiqli

yol tutsun, o, qocalanda da bu yoldan dönməz» (Sül. 22:6). Əgər biz, valideynlik borcumuzu yerinə yetirməsək, onlar qiyam qaldırar və düzgün seçim etməyə bilərlər. Şübhəsiz ki, bu da onları Allahın müdafiəsindən məhrum edəcək. Düzgün tərbiyə, Allahın yollarının və Sözünün uşaqlara öyrədilməsi — iblisin deyil, Allahın düşüncələrinin həyata keçəcəyinə təminat verir. Müqəddəs Kəlam öyrədir: «…iblisə isə qarşı durun və o, sizdən qaçacaqdır» (Yaq. 4:7). Duada iblisi bağlamaq və onun planlarını dağıtmaq ruhani döyüşün ayrılmaz hissəsidir. Bizim iblisə qarşı durmağımız övladlarımıza azad olmağa və Rəbbin yolunu seçməyə imkan verir.

İblis övladlarımızın həyatına girməyə çalışaraq, onları günahlandırmağa və mühakimə etməyə imkan axtarır. Ancaq o, Allah Kəlamı adlanan silah qarşısında itaətsizlik edə bilməz. Müqəddəs Kəlam deyir: «Sonra mən göydən bu sözləri deyən yüksək səs eşitdim: „İndi Allahımızın xilası, qüdrəti, səltənəti və Onun Məsihinin hakimiyyəti gəldi. Çünki qardaşlarımızın ittihamçısı, onları Allahımızın önündə gecə və gündüz ittiham edən devrildi“» (Vəhy 12:10). İsa çarmıxdakı ölümü ilə ittihamçının belini qırıb. Buna baxmayaraq, iblisin istehkamlarını dağıtmaq üçün, Allahın verdiyi səlahiyyətdən xəbəri olmayanların qəlbini ələ almaq üçün, iblis kifayət qədər güclüdür. Elə bu yerdə bizim duamız mübarizəyə girir. Biz öz dualarımızla böhtançının yüksəltdiyi qalaları dağıtmağa başlamasaq və güclü silah olan Allah Kəlamını ona qarşı istifadə etməsək, övladlarımız təhlükədə olacaqlar.

## Eşidilən duanın parlaq nümunəsi

Bizim məbəd kiçik dua qrupları təşkil etmişdi. Oğlumuzun iki yaşı olanda biz də, bu kiçik qrupların birini müntəzəm olaraq öz evimizdə keçirməyə başladıq. Tədricən başa düşdüm ki, bizim qrup üzvlərinin ehtiyacları həddindən artıq çoxdur və ayda bir dəfə toplaşmaqla, ətraflı dua etmək mümkün deyil. Ona görə də biz ayda

bir dəfə də dua üçün toplaşmağı qərara aldıq. Bu görüşlərdə biz hər ehtiyac üçün dua edirdik. Ancaq valideynlərin ehtiyaclarının sayı və əhatəsi o qədər böyüdü ki, hər uşağa ayrılıqda dua etmək üçün, xüsusi bir gün ayırmalı olduq. Biz bu xidməti «övladlarımızın həyatı üçün vəsadətçilik» adlandırdıq. Bu xidmət o qədər məşhurlaşdı ki, bizə hər gün yeni insanlar qoşulmağa başladı. Bu kitabın yazılması fikri də iyirmi il əvvəl həmin dua torlantısında yaranmışdı. Birlikdə etdiyimiz duaların bu qədər böyük səmərə verəcəyini heç kim ağlına belə gətirə bilməzdi. Ancaq onu bilirdik ki, övladlarımız üçün vəsadətçilik edərkən biz, Rəbbi izləyirik. Dualarımıza çoxsaylı cavabları görərkən, sevinirdik. («Övladlarınız üçün başqa valideynlərlə birlikdə dua edin» əlavəsinə bax. Burada övladlarımıza görə kollektiv vəsadət üçün dua toplantısı təşkil etmək haqqında yazılıb).

Müqəddəs Kitab deyir: «…əgər sizdən iki nəfər yer üzündə istəyəcəkləri hər hansı bir şey haqqında razılığa gəlsə göylərdə olan Atam onlar üçün edəcəkdir» (Mat. 18:19). Və yenə də: «…bir nəfər min nəfəri necə qova bilərdi? İki kişi on min nəfəri necə qaçıra bilərdi?» (Qanun. 32:30). Rəbbə övladları üçün birlikdə dua etməyə toplaşan on-on iki nəfər valideynin duasının gücünün böyüklüyünü hesablamaq üçün heç də dahi riyaziyyatçı olmaq lazım deyil.

Bu kitaba başlıq kimi götürdüyüm Müqəddəs Kitab ayəsində Rəbb deyir: «…Xudavəndin hüzurunda qəlbini sular kimi açıb tök. Əllərini Ona aç, övladlarının sağ qalmasını dilə» (Mərs. 2:19). Məhz bu cür səyli və hərarətli valideyn duasının və duaya cavabı da belə gözləməyin nə qədər vacib olduğunu başqa cür ifadə etmək mümkün deyil.

Son iyirmi ildə qrupumuzda dualara o qədər çox cavab almışdıq ki, valideynlərin və övladların şəhadətindən böyük bir kitab yazmaq olar. Onlardan birini daha yaxşı xatırlayıram. Çünki bu bizim səylə etdiyimiz ümumi vəsadətçiliyin nəticəsi idi.

Tənha ana olan Nensi bizdən qızı üçün dua etməyi xahiş etmişdi. Onun qızı Canet imanlı olmasına baxmayaraq, valideynlərinin

boşanmasının ona göstərdiyi ağrı və ümidsizlik nəticəsində Rəbdən üz döndərmişdi. Övladlarımız Allahın mərhəməti altından çıxdıqdan sonra, onları böyük təhlükənin gözlədiyini bildiyimiz üçün Canet üçün dua etməyə başladıq. Bir dəfə Canet gecə vaxtı tək maşınla yol ilə gedərkən qəzaya uğrayır. Qarşı yoldan böyuk sürətlə maşın sürən sərxoş sürücü maşını onun maşınına çırpmışdı. Həkimlər baş vermiş hadisəni möcüzə adlandırırdılar. Çünki Canet çox güclü zədələr almasına baxmayaraq, sağ qalmışdı.

Müəyyən müddət müalicə kursu keçdikdən sonra Canet həm fiziki, həm də ruhani tərəfdən tamamilə sağaldı. Biz onun anası ilə birlikdə əmin idik ki, əgər bizim vəsadətçilik dualarımız olmasaydı, o, bu cür bədbəxt hadisədən sonra sağ qala bilməzdi. O, çox uğurlu ailə həyatı qurdu. Onun çox yaxşı həyat yoldaşı və çox gözəl qızı var. Canet özü isə xeyirxah məsihçidir. O, səkkiz il bizim missiyanın katibəsi olub. Onun həyatı isə bizə həmişə valideyn duasının qüdrətini xatırladacaq.

## Dualarımız nə vaxt cavabsız qalır

Dua edən valideyn üçün ən çətin imtahan dualara cavab gözləməkdir. Hərdən cavab tez gəlir, hərdən isə əksinə olur. Belə vəziyyətlərdə tez-tez kədərlənir, hətta Allaha da hirslənirik. Hər şey ümidsiz görünür və təslim olmağa hazır oluruq. Dua etməyimizə baxmayaraq, hərdən övladlarımız düzgün hərəkət etmir və sonra da məyusluğun acı bəhrələrini biçirlər.

Əgər övladınız düzgün seçim etməyibsə, özünüzü danlayaraq, duanı dayandırmayın. Övladınızla ünsiyyətdə olmağı və onlar üçün vəsadətçilik etməyi davam edərək, onlara Allah Kəlamını öyrədin. Təslim olmayın, əksinə şəxsi və ümumi duada daha çox səy göstərməyə başlayın. Qüdrətlə dolaraq deyin: «Mən mübarizəni indi başlamışam». Və yadda saxlayın ki, bu mübarizədə sizin silahınız duanızdır. Sözün əsl mənasında bu mübarizəni Allah aparır. Və onu

da yadda saxlayın ki, bu mübarizə övladınızla deyil, iblislədir. Əsas düşmənimiz odur. Övladınızın həyatında dəyişiklikləri görənə qədər dua edin.

Davudun bu duası sədaqətli duanın ən təsirli nümunəsidir: «Düşmənlərimi qovub onlara çatdım, onlar məhv olana kimi geri qayıtmadım. Onları əzdim, qalxa bilmədilər, ayaqlarımın altına sərildilər» (Zəb. 18:37–38). Davud məqsədinə çatmamış duasını dayandırmırdı. Bu, bizim üçün ən gözəl nümunə olmalıdır. Çünki biz cavab alana qədər dua etmək üçün çağırılmışıq.

Əgər övladınıza görə özünüzdə Allaha qarşı qəzəb və inciklik hiss edirsinizsə, bunu Ona səmimi söyləyin. Öz ümidsizliyinizi və kədərinizi Ondan gizlətməyin. Mənfi emosiyaları özünüzdə saxlamayın. Öz gizli hissləriniz haqqında Onunla bölüşün. Sizi bağışlamasını və bundan sonra necə hərəkət etməli olduğunuzu göstərməsini xahiş edin. Və ən əsas diqqət edin ki, qəlbinizdə məskən salan məyusluğa görə qollarınız yanınıza düşməsin və dualarınız dayandırılmasın.

## «Kamil» yox, «dua edən» valideyn

Övladlarımızın həyatında nə isə düzgün getməyəndə, biz özümüzü günahkar hiss edirik və kamil vadideynlər olmadığımız üçün özümüzü danlayırıq. Lakin valideynin kamilliyi uşaqların həyatını formalaşdırmır. Çünki kamil insan olmadığı kimi, kamil valideyn də yoxdur. Valideyn duası uşaqların həyatında çox böyük rol oynayır. Bunu da yəqin ki, hər kəs bacarar. Həmin uşağın valideyni olmaq vacib deyil: siz onun dostu, müəllimi, nənəsi və ya babası, bibisi, xalası qızı və ya oğlu, qonşusu və hətta kənar bir şəxs ola bilərsiniz. Əsas məsələ bu uşağa qarşı qəlbinizdə məhəbbət və qayğının olmasıdır. Duaya ehtiyacı olan uşaq haqqında, siz kimdənsə eşidə və ya qəzetdən oxuya bilərsiniz. Valideynlik hissi duyduğunuz yetkin insanlar üçün də dua edə bilərsiniz. Valideynlərinin onun üçün dua

etmədiyi bir uşaq tanıyırsınızsa, elə bu dəqiqə onun həyatındakı çətinliyin həllinə başlayıb, bu ehtiyacı təmin edə bilərsiniz. Siz ürəyiniz istəyən hər bir uşağın həyatı üçün müdafiədə dayana bilərsiniz. Bunun üçün qəlbinizin lap dərinliyindən fəryad etmək lazımdır: «Ya Rəbb, bu uşağın həyatını müsbət tərəfə dəyişmək üçün necə dua etmək lazım olduğunu mənə göstər». Bundan sonra bu kitabda göstərilmiş dualardan istifadə edə bilər və Müqqədəs Ruhun sizi hara istiqamətləndirdiyini izləyə bilərsiniz.

Mən hər fəsilin sonunda sizin üçün dua nümunəsi yerləşdirmişəm. Siz eyni duanı həftə və ya ay ərzində hər gün edə bilər və ya diqqətinizi övladınızın ən dərin çətinliyinə cəlb edib, onun həlli üçün rahatlıq tapana qədər dua edə bilərsiniz. Bu da növbəti ehtiyaca keçmənizə işarə olacaq.

Bu duaları mümkün qədər tez-tez təkrar edin. Allah demir ki, «Mənim yanıma hər dəfə eyni xahişlə gəlməyin». Əksinə O, həmişə bizə dua etməyi tapşırır, lakin dua zamanı mənasız təkrarlar yol verilməzdir.

Siz bu kitabda göstərilən dualarla dua edərək, ciddi cədvəl tərtib etməli deyilsiniz. Onlar sizə irəli getmək üçün bir nümunə formasında təklif olunur. Əvvəlcədən özünüzü mütləq Allah qarşısında həlimləşdirin və Onun sizi görmək istədiyi kimi layiqli valideyn və vəsadətçi olmağınıza kömək etməsini xahiş edin. Müqəddəs Ruh sizi istiqamətləndirdiyi kimi dua edin. Müqəddəs Ruh övladınızın hansı ehtiyacı üçün sizi həvəsləndirsə, bunun üçün dua edin. Mən səbirsizliklə sizin dualarınıza aldığınız cavabın şəhadətini gözləyirəm.

## *Dua*

***Ya Rəbb***, Sənin qarşında baş əyirəm. Mən başa düşürəm ki, övladımı öz gücümlə Sənin istədiyin kimi, tərbiyə edə bilmərəm. Sənin köməyinə çox ehtiyacım var. övladımı Səninlə

birlikdə tərbiyə etmək istəyirəm. Mənə müdriklik ver və gözüaçıq olmağıma kömək et. Sənin rəhbərliyini axtarıram və Sənin gücünə, səbrinə, mənim və oğlumun (qızımın) üzərinə tökülən bol məhəbbətinə çox ehtiyacımız var. Mənə Sənin sevdiyin kimi sevməyi öyrət. Xahiş edirəm, mənə şəfa ver, azad et və məni dəyişdir. Yetkin, bütöv insan olmağa və Sənin qarşında salehlik yolları ilə getməyə kömək et. Əmrlərini mənə öyrət ki, Səni həmişə razı salım. Qoy, Sənin Müqəddəs Ruhunun gözəlliyi məni elə aydınlatsın ki, Sənin gözündə lütf tapım. Övladımla düzgün ünsiyyət qurmağı, intizamlı olmağı və ona təhsil verməyi mənə öyrət. Məni görmək istədiyin kimi ana et: dua etməyi və övladım üçün düzgün vəsadətçilik etməyi öyrət.

Ya Rəbb, sən öz sözündə demisən: «Və dua ilə iman edərək hər nə dilərsinizsə, Alacaqsınız» (Mat. 21:22). İsa ismi ilə Səndən diləyirəm: mənim imanımı möhkəmlət ki, övladım haqqında dua etmək üçün mənə dediyin hər şeyə inanım.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
### sizin dualarınızı daha təsirli edə bilər

Siz Məni seçmədiniz, Mən isə sizi seçdim və gedib məhsul verəsiniz və məhsulunuz baqi olsun deyə sizi təyin etdim ki, Mənim adımla Atadan hər nə istəsəniz sizə versin.

*Yəh. 15:16*

Saleh kamalı ilə yaşar, özündən sonra gələn nəsli bəxtiyar olar.

*Sül. 20:7*

Mənim adımla hər nə diləyirsinizsə, onu edəcəyəm; ta ki, Ata Oğulda izzətlənsin. Əgər Mənim adımla Məndən bir şey istəyərsinizsə, onu edəcəyəm.

*Yəh. 14:13–14*

Ey atalar, siz də uşaqlarınızı qəzəbləndirməyin, ancaq onları Rəbbin tərbiyə və nəsihəti ilə böyüdün.

*Efes. 6:4*

Xilas dəbilqəsini və Ruhun qılıncını, yəni Allahın sözünü götürün. Hər cür dua və niyazla, hər vaxt Ruhun idarəsi ilə dua edin. Bunun üçün tam mətanət göstərərək və bütün müqəddəslər üçün dua edərək ayıq olun.

*Efes. 6:17–18*

## 2 FƏSİL

# UŞAĞI ALLAHIN ƏLLƏRİNƏ NECƏ VERMƏK OLAR

İlk övladım dünyaya gəldikdən sonra, onun üçün keçirdiyim daimi təlaş üzündən rahatlığımı tamamilə itirmişdim. Onu kiminsə itələyəcəyindən, vannada boğulacağından və ya öldürücü xəstəliyə tutulacağından, onu yedizdirməyi unudacağımdan, itin dişləməsindən, avtomobil qəzasına uğramasından, kiminsə onu oğurlayacağından, ya da onu itirəcəyimdən çox qorxurdum. Rəbbə tabe olmaq ümidi ilə yox, çaşqınlıq içində olduğum üçün Onu çağırdım. Rəbb həmin an mənə xatırlatdı ki, Kristofer Onun bizə hədiyyəsidir və O Özü onun qayğısına bizdən də çox qalır. Kəlamdan bir nəsihət yadıma düşdü: «Bütün qayğınızı Onun üzərinə qoyun» (1 Pet. 5:7).

«Ya Rəbb, bu dünyada ən çox oğlum üçün narahat oluram. Ona görə də, onu Sənin əllərinə verirəm. Çünki, ancaq Sən onu düzgün tərbiyə edə və onun təhlükəsizliyini təmin edə bilərsən. Mən valideyn yükünü təkbaşına çəkmək istəmirəm. Bunu Səninlə birlikdə etmək istəyirəm». O gündən qorxu mənə üstün gəlmək istəyəndə, mən bunu duaya başlamaq üçün siqnal kimi qəbul etməyə və qəlbim rahatlıq tapana kimi dua etməyə başlayırdım. Əgər qəlbimdəki təlaş məni tərk etmirdisə, mən Rəbdə olan bacılarımla birlikdə, qəlbimdə

Allahın sülhü bərqərar olana qədər dua edirdik. Hər gün oğlumu Rəbbin əllərinə etibar etdiyimi bəyan edir və göylərdə olan Atamdan onun qayğısına qalmasını xahiş edirdim. Bu, mənim çiyinlərimdəki yükü götürür və özümü xoşbəxt ana kimi hiss etməyimə kömək edirdi.

Övladlarım üçün bir neçə il bu cür dua etdim. Bu cür duanı mən ilk dəfə onları bazar günü məbəd qrupuna qoyanda, bütün günü dayənin himayəsi altında saxlayanda, onları ilk dəfə uşaq bağçasına ötürəndə, həkim otağında yaralarını tikdirəndə, onlar ilk dəfə dostlarının yanına görüşə gedəndə, istirahət etmək üçün Vaşinqtona uçanda, onları kempinq yarışına yola salanda, oğlum ilk dəfə ailə avtomobilimizə minəndə, hər dəfə futbol oynayanda etmişdim.

Bu yaxınlarda Kristofer ilk dəfə kollecə gedəndə mən yenə də onu Allahın əllərinə verdim. Onun bu səfərindən əvvəl ayrılıq anını təsəvvür edərək bir neçə ay ağlamışdım. Mən qabaqcadan hiss etmişdim ki, onun bu səfərindən sonra bizim bütün həyatımız dəyişəcək. Ancaq bu hadisənin baş verməsinə az qalmış, Allah mənə bu sözləri açdı: «Sevinclə çıxacaqsınız, sülhlə müşayiət olunacaqsınız, dağlar, təpələr önünüzdə sevinclə nəğmə deyəcək» (Yeş. 55:12). Bununla bərabər O, mənə bunu da açdı ki, bu ayrılıq ağrısından sonra onlar kimi bizim də qəlbimizə sevinc və sülh gələcək. Bilməliyik ki, övladımız həyatının hansı mərhələsində olursa olsun, onları Allahın əllərinə verməklə, biz onları ən etibarlı əllərə təslim edirik. Biz bilirik ki, onlar qəlblərində sevinc və sülhlə qabağa gedəcək və Allah onlara düzgün yol göstərəcək. Eyni şeyi O, bizim üçün də edəcək. Ana üçün bundan yaxşı təsəlli ola bilərmi? Elə buna görə də Kristoferi birinci kurslar üçün ayrılmış yataqxanaya aparan gün, Allah, qəlbimi verə biləcəyi ən gözəl sülhlə doldurdu. Mənə elə gəldi ki, həqiqətən də dağların və təpələrin nəğməsini eşidirəm (Yeş. 55:12-yə bax). Bilirəm ki, övladlarımı Allahın əllərinə hələ çox verəcəyəm. Övladlarımın həyatında mənim üçün ən ciddi hadisə

onların nigah bağlamaları olacaq. Bu haqda fikirləşərkən Allahdan, ona oğul verməsini diləyən Xanna yadıma düşür. Allah onun dualarına cavab verdi və o, Şamueli dünyaya gətirdi. Sonra Xanna dedi: «Yalvarışım bu uşaq üçün idi. Rəbb muradımı yerinə yetirdi. Mən onu Rəbbə əhd etmişdim və ömrü boyu Rəbbə həsr olunmalıdır» (1 Şam. 27:28).

Xanna oğlunu Allaha həsr etməyə and içmişdi. Körpəni süddən ayıran kimi onu Allahın evinə gətirib, kahin Elinin himayəsinə verdi. Beləliklə, o, öz andını yerinə yetirdi. Ancaq narahat olmağa (və ya əksinə, ümid etməyə) dəyməz: Allah bizdən uşağımızı məbədə qoyub pastora və ya onun həyat yoldaşına tapşırmağı tələb etmir. İş burasındadır ki, Xanna övladını Allaha həsr etdi, sonra isə Onun tapşırığına əməl etdi. Nəticədə Şamuel yer üzündə yaşamış ən böyük peyğəmbərlərdən biri oldu.

Biz, Allahın övladlarımızın həyatına müdaxiləsini məhdudlaşdıraraq onları özümüzə bağlayıb, öz gücümüzlə tərbiyələndirməli deyilik. Əgər övladımızın həyatını Allahın idarə etdiyinə əmin olmasaq, onlar üçün daim qorxu hissi keçirəcəyik. Uşaqlardan əl çəkib Allaha onlarla sərbəst ünsiyyət imkanı verdiyimiz zaman Allahın rəhbərliyinə əmin olacağıq. Buna isə ancaq Allah Kəlamına əsasən yaşayıb, Onun yolları ilə yeriyərək və bütün qayğılarınızı duada Ona bildirərək, nail ola bilərsiniz. Biz Allaha arxalanmalıyıq, çünki övladlarımızın qayğısına O, bizdən də yaxşı qala bilər. Biz hər yerdə olmağı bacarmarıq, Allah isə bacarar. Biz hər şeyi görə bilmərik, Allah isə görə bilər. Biz hər şeyi bilə bilmərik, Allah isə bilər. Övladlarımızın yaşlarına baxmayaraq, onları Allahın əllərinə versək, bununla Ona olan imanımız və etibarımız haqqında şəhadət etmiş olarıq. Beləliklə də, onların həyatlarının dəyişməsinə doğru ilk addımı atmış oluruq. Övladlarımız üçün dua elə bundan başlayır.

## *Dua*

***Ya Rəbb***, İsa ismi ilə Sənə dua edirəm və övladımı (övladınızın adı) Sənin əllərinə Verirəm. Mən əminəm ki, ən yaxşı şeyləri mənim oğluma (qızıma) verməyə ancaq Sən qadirsən. Onun əsl ehtiyaclarını Sən bilirsən. Onun bütün qayğılarını Sənə tapşırır və Sənin müdafiən altına verirəm. Dua etməyə səbəb kimi qəlbimə qoyduğun onların bütün ehtiyacları üçün dua etməyi Sənə söz verirəm. Övladlarım üçün dua etməyi mənə öyrət və duada məni istiqamətləndir. Övladım üçün dua edərkən, öz şəxsi istəklərimi dilə gətirməyə icazə vermə. Elə et ki, onun həyatında Sənin iradən hərəkət etsin.

Sənə minnətdaram ki, Sən məni tərk etmədin və oğlumun (qızımın) tərbiyəsində Sənə əməkdaş olmağa icazə verdin. Sənə ona görə minnətdaram ki, mən insanların uşaqların tərbiyəsinə dair etibarsız və daim dəyişən üsullarına güvənmirəm. Ancaq Sənin nəsihətlərini izləyib, Sənin cavablarını gözləyən zaman bilik və müdriklik əldə edə bilirəm. Ya Rəbb, Sənin mənə verdiyin ən qiymətli hədiyyəyə — övladıma görə Sənə minnətdaram. Sənin Kəlamında deyilir ki, həyatımızda aldığımız ən gözəl hədiyyələr Səndəndir. Bilirəm ki, Sən bu körpəni mənə onun qayğısına qalmaq və tərbiyə etmək üçün vermisən. Bunun üçün ona harada öz iradəmi yeritməyimi davam etdirdiyimi mənə göstər ki, övladımı Sənin himayənə verim. Bu həyat yollarında onu Sən apar. Məni hər cür təhlükə qorxusundan azad et ki, hər şeyin Sənin əllərində olduğunu düşünərək, qəlbimə sülh və rahatlıq gəlsin. Hər şeydə Sənə etibar edirəm və bu gün oğlumu (qızımı) Sənə tapşırıb, onu Sənin əllərinə verirəm.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Beləliklə, əgər siz pis olduğunuz halda öz övladınıza yaxşı hədiyyələr verə bilərsinizsə, göylərdə olan Atanızın Ondan diləyənlərə yaxşı şeylər verəcəyi nə qədər yəqindir.

*Mat. 7:11*

Rəbbin isə Ondan qorxanlara olan məhəbbəti, onların övladlarına olan salehliyi əzəldən var,bu əbədi qalacaq.

*Zəb. 102:17-18*

Onlar boş yerə əlləşməyəcək, övladları bəlalarla üzləşməyəcək. Çünki özləri də, övladları da,Rəbbin xeyir-dualı nəsli olacaq.

*Yeş. 65:23*

Övladlar Rəbbin verdiyi paydır, bətnin bəhrəsi Onun mükafatıdır.

*Zəb. 126:3*

Və nə rica etsək Ondan alırıq, cünki Onun əmrlərinə riayət edirik və Onun qarşısında məqbul olan işləri görürük.

*1 Yəh. 3:22*

## 3 FƏSİL

# UŞAQLARI PİSLİKDƏN NECƏ QORUMALI

Övladlarımız üçün alovlu dualarımızda Allahdan ən çox onları qorumasını diləyirik. Qəlbimiz övladımızın şəxsi təhlükəsizliyi üçün təlaşla dolduğu zaman, onların başqa bir çətinliyini həll etmək çətindir. Əgər, onların gələcəyinin baş tutacağına əmin deyiliksə, gələcək üçün necə dua edə bilərik?

Kristoferin on yeddi, Amandanın on iki yaşı olana qədər biz Los-Anceles şəhərində yaşamışıq. Və bütün bu illəri onlar üçün qorxu içində keçirmişəm. Həmin vaxtlar cinayətkarlığın səviyyəsi günü-gündən artırdı. Lazımi qədər sakit sayılan bizim ərazi də məndə heç bir etibar oyatmırdı. Buna görə də bu çətinlik üçün hər gün dua edirdim. Əslində mən, övladlarımın təhlükəsizliyi üçün hamilə olduğum gündən dua etməyə başlamışdım ki, körpə yaşlarından onların başına heç bir pis hadisə gəlməsin. Dua edirdim ki, onlar böyüdükcə, Rəbb onları zorakılıqdan və bədbəxt hadisələrdən qorusun. Mən tək, həm də imanlı dostlarımla dua edirdim: «Qanadlarının kölgəsində saxla, məni dara salan şər insanlardan, ətrafımı bürüyən, canıma düşmən olanlardan» (Zəb. 17:8–9).

Amanda və Kristofer də başqa uşaqlar kimi yıxılıblar, zədə alıblar, dizlərini əziblər və hətta bəzi ciddi hallar da olub və biz həkimə

müraciət edib, onların yaralarını tikdirmişik. Ancaq ağır zədələr onlardan yan keçib. Oğlum avtomobil qəzasına düşənə qədər belə davam edib. O özü bu haqda kitabın ön sözündə danışıb. Bir gün səhər oğlumu və qızımı həmişə birlikdə gedib-gəldikləri sinif yoldaşları ilə məktəbə yola salandan sonra, bəzi valideyinlərin çox qorxduğu telefon zəngi çalındı.

«Xanım Omartian, sizin oğlunuzda hər şey qaydasındadır, ancaq ağır yol hadisəsi baş verdiyi üçün o, xəstəxanadadır. Maşınlar üz-üzə toqquşub və uşaqlardan heç biri maşında olan təhlükəsizlik kəmərlərini bağlamayıb».

Həyat yoldaşımla xəstəxanaya gedərkən, yol boyu uşaqların hər üçü üçün dua etdik. Əvvəllər əlimizi neçə dəfə Kristoferin üzərinə qoyub, Allahın onu avtomobil qəzasından qoruması üçün dua etdiyimizi xatırladım. Bu zaman Müqəddəs Kəlamdan sitat gətirdiyim ayəni də xatırlayıram: «Allah sənə görə mələklərinə əmr edər ki, gedəcəyin hər yerdə səni qorusun. Səni əlləri üstündə aparar, ayağına bir daş belə dəyməyə qoymaz. Allah dualara cavab verir, Öz vədlərini yerinə yetirir. Bilirdim ki, əgər kristofer qəzaya düşsə də, Allah Öz mələkləri ilə birlikdə onun yanında olmalı və onu qorumalıdır. Müqəddəs Kəlamın Allahdan qorxan saleh insanlar üçün dedikləri yadıma düşür: «Onu pis xəbərlər qorxutmaz, Rəbbə güvəndiyi üçün ürəyi möhkəmdir» (Zəb. 112:7). Nə üçünsə özüm də bilmədən rahatlaşdım. Qəlbimdə Allahın sülhü bərpa olundu.

Xəstaxanaya çatandan sonra bildim ki, qəza vaxtı Kristofer arxa oturacaqda əyləşərək, içərisində idman forması olan böyük çantasını dizləri üstünə qoyubmuş. Elə bu da onun üçün yastıq rolunu oynayaraq, qabaqdakı oturacağın zərbəsini yüngülləşdirib. Ona görə də oğlumuz yüngül diz əziyi və kürək zədəsi ilə ötüşmüşdü. Ön oturacaqda oturan uşağı isə maşın pəncərədən kənara tulladığı üçün ağır zədə almışdı. Sükan arxasında oturan uşağın üzü sükana dəyərək, bərk zədələnmişdi. Avtomobil isə tamamilə əzilmişdi.

Biz və zərərçəkən uşaqların valideynləri heyrətə gəlirdik ki, təhlükəsizlik kəmərlərini bağlamağın nə qədər vacib olduğunu ciddi tapşırsaq da, maşında olan uşaqların heç biri buna əməl etməmişdi. Əgər onlar bizə qulaq assaydılar, bəlkə də heç əziyyət çəkməzdilər. Ancaq bizi bir şey sevindirirdi ki, dualarımız sayəsində onlar sağ qalmışdılar. Hər birimiz bilirdik ki, oğlanlarımız ona görə xilas olmuşdular ki, biz, İsa Məsihin adı ilə onların həyatı üçün dəfələrlə dua etmişdik. Buna görə də biz, Allaha minnətdar idik.

Sizin dualarınız övladlarınızın xoşagəlməz hadisələrdən yan keçəcəyinə təminat vermir. Əlbəttə, bizim övladlarımız ağrı hissi keçirəcəklər — çünki bu, günahlı dünyanın ayrılmaz hissəsidir. Ona görə də, valideyn duasının uşaqların qorunmasında oynadığı çox böyük rol sayəsində, bədbəxtlik zamanı uşaqlarımız sağlam qalır və bütün baş verənlər onun zərərinə deyil, əksinə xeyrinədir.

Sizin dualarınızı daha təsirli edən — Allah Kəlamıdır ki, bu da sizə rahatlıq verəcək. Los-Ancelesdə yaşadığımız müddətdə özümün və ailəmin pislikdən qorunması üçün, dualarımın sayı-hesabı yox idi. Hər dəfə Rəbbdən, bizi hədsiz zorakılıqdan qorumasını diləyirdim və Müqəddəs Kəlamdan bu ayələri sitat gətirirdim: «O, məni düşmənlərimin arasından xilas edir, məni yağılar üstündə ucaldır, məni zalımların əlindən qurtarır» (Zəb. 18:48). Və: «Qoy Rəbbə alqış olsun! Çünki mühasirəyə düşən şəhərdə, məhəbbətini xariqələrlə mənə göstərdi» (Zəb. 31:21).

Koliforniyanın bir bədbəxtçiliyi də zəlzələlərdir. Hər dəfə yatmazdan qabaq ailəmin bundan qorunması üçün Rəbbə dua edirdim. Bir dəfə gecənin yarısı güclü zərbə məni yuxudan oyatdı və ətrafda hər şeyin yelləndiyini və laxladığını görüb dəhşətə gəldim. Ətrafı göy gurultusundan da dəhşətli səs bürümüşdü. Bunu unutmaq çətindir, çünki bu, yaddaşıma həkk olunub. Bütün ailəm üçün Müqəddəs Kəlamın bu yerləri ilə dua etməmiş heç vaxt yatmıram: «Buna görə biz qorxmuruq: yer üzü alt-üst olsa belə, dağlar uçub dənizin köksünə aşsa belə…» (Zəb. 46:2). Müqəddəs Kəlam bədbəxt hadisə

zamanı müdafiəmizə söz versə də mən, Allahdan daha çox şey diləyirdim: «Ya Rəbb, Səndən diləyirəm ki, zəlzələ olmasın. Əgər olsa da, elə et ki, biz orada olmayaq. Lakin zəlzələ olan yerdə bizim olmağımız Sənə məqbuldursa, xahiş edirəm ki, bizi qoruyasan».

Mən inanıram ki, Allah mənim bu duama cavab verdi. Çünki 1994-cü il, 17 yanvarda Nortricdə baş vermiş zəlzələdən bir az qabaq biz oradan köçmüşdük. Bir neçə aydan sonra uşaqlarımla, xarabalığa çevrilmiş həmin yerdə olduq və baş verənlərdən dəhşətə gəldik. Bizim yaşadığımız bina tamamilə dağılmışdı. Biz, Allahın qüdrətinin hərəkətindən və mənim dualarıma cavab olaraq xeyirxah əli ilə bizi oradan çıxarıb xilas etdiyinə görə, Onun mərhəmətindən dəhşətə gəlmişdik. Mən əminəm ki, əgər biz zəlzələ olan ərazidə olsaydıq belə, O, bir çoxlarına mərhəmət göstərdiyi kimi, bizi də qoruyacaqdı. Bədbəxt hadisələr hər yerdə baş verə bilər. Əsas Allaha arxalanaraq dua etmək və Onun cavabını gözləməkdir.

Ancaq biz dua edən zaman həyatımızda hansısa dəyişikliklər baş verir. Dua etməyəndə isə heç bir dəiyişiklik baş vermir. Əgər biz dua etməsək, övladlarımızın həyatında hansı dəyişikliklər baş verə bilər və ya verməyə bilər? Gəlin bunun baş verməsini gözləməyərək, elə bu dəqiqə Onun qarşısında diz çökək.

## *Dua*

***Ya Rəbb***, övladım üçün (uşağın adı) dua edib, Səndən xahiş edirəm ki, onun ətrafına qoruyucu sədlər çəkəsən. Onun ruhunu, bədənini, əqlini və hisslərini bütün pisliklərdən qoruyasan. Xüsusən də Səndən xahiş edirəm ki, onu bədbəxt hadisələrdən, xəstəliklərdən, zədələrdən və bütün başqa fiziki, əqli və emosional zorakılıqlardan qoruyasan. Yalvarıram ki, övladımı «bəlalar keçib gedənəcən qanadlarının

kölgəsində» qoru. Onu hər cür düşmənçilik təsirlərindən, gizli təhlükələrdən qoru. Ona qarşı qalxan hər cür silahı gücsüz et. Övladlarımızı hər cür təhlükədən qorumaq üçün verdiyin bütün vədlərinə görə Sənə minnətdaram. Mənim oğluma (qızıma) Sənin iradənə itaət edərək, Sənin yollarınla yeriməyə kömək et ki, Sənin mərhəmətinin qanadları altından çıxmasınlar. Harada olursa olsun, nə edirsə etsin, övladımı Sən qoru. İsa Məsih ismi ilə Sənə dua edirəm.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Haqq-Taalanın pənahında yaşayan, Külli-İxtiyarın kölgəsində oturan insan Rəbb haqqında belə söyləyir: «O, mənim sığınacağımdır, qalamdır, Allahımdır, Ona güvənirəm».

*Zəb. 91:1-2*

Dərin sulardan keçsən belə, Mən səninlə olacağam, çaylardan keçəndə batmayacaqsan, odun içindən qaçsan belə yanmayacaqsan, alov səni məhv etməyəcək.

*Yeş. 43:2*

Sənə qarşı işlənən heç bir silah işə yaramayacaq. Məhkəmədə səni təqsirləndirən hər bir kəsi təqsirkar çıxaracaqsan. Rəbbə qulluq edənlərin irsi belədir. Onların salehliyi Məndən gəlir.

*Yeş. 54:17*

«Ya Rəbb, sığınacağımsan» dediyin üçün, Haqq-Taalaya sığındığın üçün şərə düçar olmazsan, bəla çadırından uzaq qaçar.

*Zəb. 91:9-10*

Arxayın yatıb yuxuya gedirəm, çünki yalnız Sən, Ya Rəbb, məni əmin-amanlıqda yaşadırsan!

*Zəb. 4:8*

# 4 FƏSİL

# UŞAĞA ONUN SEVİMLİ OLDUĞUNU NECƏ GÖSTƏRMƏLİ

Övladlarımızın düşüncəsinə, həqiqət altında maskalanmış yalan soxulan zaman, onlar ən ağır imtahana məruz qalırlar. Bu yalan təxminən belə ifadə oluna bilər: «məni heç kəs sevmir», «Məni heç kəs qiymətləndirmir», «Heç nəyə yaramıram», «Mən çox kökəm» (çox arığam, sox uzunam, çox balacayam), «Mən fərsizəm», «Mən həddindən artıq ağıllıyam» və sair. Bu cür yalanlar uşaqların yaddaşında 12–13 yaşlarından kök salmağa başlayır və çox vaxt yetkinlik yaşlarında da bu fikirlərin hakimiyyətindən çıxa bilmirlər. Buna görə də, əminəm ki, övladımızın özünü sevimli və lazımlı hiss etməsi üçün dua etmək heç vaxt gec deyil. O, ilk növbədə özünün Allah tərəfindən, sonra isə ailə, yaşıdları və başqa insanlar tərəfindən sevildiyini hiss etməlidir. Buna görə də, onun üçün lap körpəlikdən və ya həyatının hansısa dövründən başlayaraq, bütün həyatınız boyu konkret ehtiyac üçün dua etmək lazımdır.

Hər kəs rədd olunma hissi keçirib. Bizlərdən kim alçaldılmaq və utancaqlıq hissi keçirməyib, günah hissindən əzab çəkməyib, özünü yararsız və heç kimə lazımsız, talesiz kimi hiss etməyib. Ətrafımızdakı insanların bizi mühakimə edib və ya hərəkətlərimizi bəyənmə-

dikləri üçün hansımız əzab çəkməmişik? Hər kəs rədd edilmənin nə demək olduğunu bilir. Bu, ailə üzvlərimiz, dostumuz və ya tamamilə yad bir insan tərəfindən baş verə bilər. Bəziləri qəlbinin dərinliyində özünü sevimli və lazımlı insan hiss etdiyi üçün bunu asan keçirir Bəzilərinin isə qəlbində rədd olunduqları çoxsaylı hadisələrdən sonra dərin yaralar qaldığı üçün o, ətrafdakıların ona qarşı hər bir xoşagəlməz rəftarından tez təsirlənir. Ona görə də, bu dünyada baş verən bütün pisliklərin əsas səbəbi, birinin digərini rədd etməsidir. Belə ki, qovulmuş işçi köhnə iş yerinə gedərək, köhnə əməkdaşlarını güllələyir və ya rədd edilmiş ər, arvadını döyür və öldürür. Kiminsə tərəfindən təhqir edilmiş ana, öz qəzəbini övladının üstünə tökür. Əgər insan özünü heç kimə lazım olmayan kimi hiss edirsə, onun qəlbindəki pisliklər aşkar olacaq. Ancaq ətrafdakıların qayğısı və məhəbbəti isə əksinə, ondakı ən yaxşı hissləri oyadacaq. Özünü gərəksiz hiss edən insan elə hesab edir ki, ətrafdakıların hamısı ona qarşıdır: hər baxışda, sakit danışıqda, əhəmiyyətsiz davranışda özünə qarşı hədə görür. Özünü sevimli hiss edən insan isə, bu vəziyyətdə belə deyil. Ola bilər ki, heç kəsin ona qarşı heç bir şeyi yoxdur, sadəcə olaraq o, öz-özünü heç kimə lazım olmadığına inandıraraq, bununla da özünə çox böyük ziyan vurur.

Lakin, Allahın məhəbbəti hər şeyi dəyişməyə qadirdir. Allahın bizi sevdiyinə və qəbul etdiyinə əminlik həyatımızı tamamilə dəyişir. Rəbb deyib: «…Mən səni seçdim, rədd etmədim…» (Yeş. 41:9). Və yenə: «Səni əbədi bir məhəbbətlə sevdim…» (Yer. 31:3). O Öz məhəbbətini Müqəddəs Kəlamda deyildiyi kimi sübut etdi: «Lakin Allah bizə olan Öz məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ikən Məsih bizim uğrumuzda öldü» (Rom. 5:8). Ancaq ən gözəli odur ki, «…nə ölüm, nə həyat, nə mələklər, nə rəyasətlər, nə qüdrətlər, nə indiki, nə gələcək şeylər, nə hündürlük, nə dərinlik, nə də başqa məxluq bizi Rəbbimiz Məsih İsada olan Allahın məhəbbətindən məhrum etməyə qadir olmayacaqdır» (Rom. 8:38-39).

Biz dua etməliyik ki, övladlarımız da bu həqiqəti mənimsəsinlər. Onlar Allahın məhəbbətini qəbul edən zaman, başqalarını da sevməyi və başa düşməyi öyrənəcəklər.

Hər bir insanın, ilk növbədə Allahın məhəbbətinə ehtiyacı olmasına baxmayaraq, körpə ilk növbədə valideyn məhəbbətinin varlığını (və ya yoxluğunu) öz həyatında hiss edir. Körpə bunu həyatının ilk anlarından hiss edir. Valideyn məhəbbəti uşaqlara Allahın məhəbbətini lap kiçik yaşlarından dərk etməyə imkan verir. Ona görə uşaqlarımızın ilk günlərindən dua etməliyik: «Ya Rəbb, mənə kömək et ki, övladımı həqiqətən Sən istədiyin kimi sevim. Mənə elə məhəbbət göstərməyi öyrət ki, o, bunu başa düşsün». Əgər sizin övladınız artıq böyükdürsə və hansısa səbəbdən özünü lazımsız hiss edirsə, təxirə salmadan dua etməyə başlayın. Rəbdən onun qəlbini Allahın məhəbbəti ilə doldurmasını, qəlbini sizin və başqa insanların məhəbbəti üçün açmasını diləyin.

Allahdan övladınıza məhəbbət göstərməyi öyrətməsini diləyin və iblisə keçmiş uğursuzluqlara görə qəlbinizi günah hissi ilə əzməsinə imkan verməyin. Yəqin ki, bu üsul sizə tanışdır: «Sən pis ana (ata) olduğun üçün övladın özünü lazımsız hiss edir», «Əgər sən bu qədər aciz olmasaydın, bəlkə də övladına öz məhəbbətini göstərə bilərdin», «Səni heç vaxt heç kim sevməyibsə, sən necə başqalarını sevə bilərsən?». Bütün bu yalanlar cəhənnəmdən gəlir və şeytanın planının bir hissəsidir.

Əgər sizə hansısa günah hissi və ya həyatınızın hansısa sahəsindəki uğursuzluq fikirləri əzab verirsə, düşüncələrinizi Allah qarşısında açaraq, bu çətinlik üçün dua edin və onu Allahın əllərinə verin. Sonra da qətiyyətlə deyin: «Rəbb mənim övladımı sevir və mən də onu sevirəm. Başqa insanlar da onu sevir. Əgər mənim övladım özünü sevimli hiss etmirsə, deməli o, düşmən tərəfindən təlqin edilmiş yalana inanıb. Biz iblisin yalanları ilə yaşamağı rədd edirik». Sizdən çox böyük inadkarlıq və dözüm tələb etməsinə baxmayaraq, təslim olmayın və iblisin yalanlarına güzəştə getməyin.

Onun yalanlarını Allahın həqiqəti ilə aşkara çıxararaq, dua edin ki, Allah Öz məhəbbətini övladınızın qəlbinə doldursun və övladınız sizin məhəbbətinizi qəbul edə bilsin.

Duadan əlavə, övladınıza məhəbbətinizi baxışlarınızla, toxunmanızla (bu, əl sıxmaq, qucaqlamaq, öpmək ola bilər), hərəkətlərinizlə, rəftarınızla və sözünüzlə ifadə etməyə çalışın. Mən müşahidə etmişəm: övladlarıma nəvazişlə toxunaraq, onun gözlərinin içinə baxıb: «Mən səni çox sevirəm. Məncə sən çox yaxşısan» — deyərkən, həmişə oğlumun və qızımın siması, davranış qaydası dəyişir. Siz də belə etsəniz, buna əmin olacaqsınız. Ola bilər ki, başlanğıcda narahatçılıq keçirəcəksiniz, çünki bu, sizin üçün tamamilə yeni bir şeydir. Ya da ola bilər ki, sizin övladınız artıq yeniyetmədir və ya yaşlı insandır — yenə də utancaqlığa qalib gələrək, bunu etməlisiniz. Əgər sizə bu addımı atmaq çətindirsə, bunu etmək üçün Allahdan güc diləyin. Dua edin ki, sizin bu hərəkətiniz oğlunuzun və ya qızınızın qəlbində cavab tapsın.

Əgər övladınıza qarşı qəlbinizdə məhəbbət hiss etmirsinizsə, bunu Müqəddəs Ruhdan diləyin. Müqəddəs Kəlam deyir ki, «Müqəddəs Ruh vasitəsilə Allahın məhəbbəti ürəklərimizdə dolub daşır» (Rom. 5:5). Hər şeydən əvvəl Allah sizin qəlbinizi Öz məhəbbətilə doldurmaq istəyir ki, bu məhəbbət sizin vasitənizlə başqalarının qəlbinə axıb tökülsün. Övladınız üçün dua edərkən, siz, nəinki Allahın məhəbbətini qəbul edirsiniz, həm də onu bir neçə dəfə çoxaldırsınız ki, bu da qəlbinizin kənarlarından daşıb tökülməyə başlayır.

## *Dua*

***Ya Rəbb***, dua edirəm ki, övladım (uşağın adı) özünü sevimli və lazımlı hiss etsin. Elə indi onun qəlbini məhəbbətinlə doldur və ona kömək et ki, Sənin məhəbbətinin nə

qədər böyük və hüdudsuz olduğunu dərk etsin. Sənin Sözündə deyilir ki, Sən dünyanı elə sevdin ki, Öz vahid Oğlunu bizə qurban verdin (Yəh. 3:16-ya bax). Şübhə toxumu səpmək məqsədilə övladımın boynuna dolaşmaq istəyən hər cür iblisani yalandan onu qoru. İsa deyib: «Atam Məni sevdiyi kimi, Mən də sizi sevdim» (Yəh. 15:9). Ya Rəbb, övladıma Sənin məhəbbətində qalmağa kömək et ki, o da, Davudla birlikdə: «Hər səhər məhəbbətini mənə hiss etdir, çünki Sənə güvənirəm» (Zəb. 143:8) — deyə bilsin. Ona qarşı məhəbbətinin sonsuz olduğunu göstər və bunu qəbul etməyə ona kömək et.

Səndən xahiş edirəm, övladımı Sənin onu sevdiyin kimi şərtsiz sevməyi və bu Məhəbbəti ona hiss etdirməyi mənə öyrət. Sənin onu necə güclü sevdiyini, ona necə çatdırmalı olduğumu mənə göstər ki, o, bunu dərk etsin. Xahiş edirəm, qoy mənim bütün ailə üzvlərim onları sevsin və onları olduqları kimi qəbul etsinlər. Qoy mənim oğlum (qızım) başqaları tərəfindən bəyənilsin və dəstəklənsin. Övladımın sevimli olduğuna əminlik hissi böyüdükcə, onda bu məhəbbəti başqaları ilə bölüşmək bacarığı yarat. Qoy onun qəlbi bu məhəbbətlə açılsın. Sənin məhəbbətinin dərinliyini dərk edib, bunu bütün qəlbi ilə qəbul edənə qədər, onu bir qabın kimi istifadə et ki, bunun vasitəsi ilə Sənin məhəbbətin ətrafdakı insanlara axıb tökülsün. İsa Məsih ismi ilə Sənə dua edirəm.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Allahın məhəbbəti bizdə belə zühur etmişdir: Allah Öz yeganə Oğlunu dünyaya göndərdi ki,biz Onun vasitəsi ilə həyat alaq. Məhəbbət bundan ibarətdir ki, biz Allahı sevmədik, O, bizi sevdi və Öz Oğlunu bizim günahlarımızın əfvini təmin edən qurban kimi göndərdi. Sevimlilərim, əgər Allah bizi belə sevdisə, biz də bir-birimizi sevməliyik.

*1 Yəh. 4:9-11*

Çünki siz Allahınız Rəbbin müqəddəs xalqısınız. O, sizi yer üzündəki bütün xalqlar içərisindən Özünə məxsus xalq olaraq seçdi.

*Qanun. 7:6*

Və biz Allahın bizə olan məhəbbətini dərk etdik və ona iman etdik. Allah məhəbbətdir və məhəbbətdə yaşayan Allahda yaşayır, Allah da onda yaşayır.

*1 Yəh. 4:16*

Biz isə, ey Rəbbin məhəbbətinə nail olmuş qardaşlar, sizə görə Allaha həmişə şükür etməliyik ki, Allah ta başlanğıcdan, Ruhun təqdisi və həqiqətə iman vasitəsilə sizi xilas üçün seçmişdir.

*2 Sal. 2:13*

Bizi Məsihdə hər cür ruhani nemətlə səmavi aləmdə mübarək etmiş Rəbbimiz İsa Məsihin Allahı vəAtasına həmd olsun! Çünki O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki,biz Onun qarşısında məhəbbətdə müqəddəs və ləkəsiz olaq. Öz iradəsinin iltifatına görə, sevimli Oğlunda bizə ehsan etdiyi Öz izzətli lütfünün mədhi üçün, bizi qabaqcadan Özü üçün İsa Məsih vasitəsilə oğulluğa təyin etdi.

*Efes. 1:3-6*

# 5 FƏSİL

# ƏBƏDİYYƏTƏ ƏMİNLİYİ NECƏ ƏLDƏ ETMƏLİ

Hər şeydən əvvəl istəyirik ki, övladlarımız İsanı öz Xilaskarları kimi qəbul etsinlər. Çünki bu zaman biz, əmin ola bilərik ki, onlar əbədi həyata nail olublar və ölümdən sonra göylərdə görüşəcəyik. Necə də möcüzəli ümiddir.

Debbi Bun və onun həyat yoldaşı Qabri, «Uşaqların həyatı üçün vəsadətçilik» adlanan dua toplantısında iştirak edən zaman, məndən, Debbinin albomu üçün elə bir mahnı yazmağımı xahiş etdilər ki, bu mahnı ilə uşaqlara, valideyinlərin ən gizli sirrlərini aça bilsinlər. Mən belə mövzuda mahnı yazdım və onu «Hər şeydən uca» adlandırdım. Həyat yoldaşım bu mahnıya musiqi bəstələdi, Debbi isə onu öz albomuna yazaraq, konsertlərində ifa edir. Mən bilirəm ki, bu sözlər hər bir imanlı valideyinin fikirlərini dəqiq ifa də edir. O mahnı budur:

*O qədər deyiləsi sözlər var,*
*Lakin qabaqda yol çox qısadır.*
*Zaman nə tez ötüb, keçir!*
*Əgər bu şeylərə səlahiyyətim çatsaydı,*
*Səni ağuşuma alıb, həyatın fırtınasından qoruyardım.*

*Övladım, səninlə həmişə ola bilmərəm,*
*Lakin sənə bir neçə söz söyləyə bilərəm.*
*Ümid çırağın sönəndə, bu sözlər yaşayacaqdır.*

*Öncə yadında saxla: səni heç zaman,*
*Tərk etməyən Allah Odur.*
*Ona güvən, çünki O, hər şeydən üstündür.*
*O, səni qoruyan məhəbbətdir.*
*Sənin qayğına qalan ürəkdir.*
*Əgər sən zülmət içində itsən, belə*
*O, səninlə olacaqdır.*

*O, sənin əbədi Atandır,*
*Onun əllərindən sən heç vaxt düşməyəcəksən,*
*Yer üzündə hökm sürən — Odur,*
*Çünki O, hər şeydən üstündür.*
*O, sevincinin mənbəyi və kədərinin təsəllivericisidir.*
*O, hər şeydən üstündür.*

*Sən doğulan gündən sənin üçün,*
*Hazırlanan Səltənətin Hakimi Odur.*
*O, səndən sınmış ürəyi gözləyir*
*Çünki Onun üçün bu cür ürək,*
*Hər şeydən üstündür.*
*Çox deyiləsi sözlər var,*
*Hər şeyi ifadə etməyə vaxt yoxdur.*
*Sadəcə Rəbbini sev — çünki O, hər şeydən üstündür.*

Övladlarımın hər biri, beş yaşları olanda İsanı ürəklərinə qəbul ediblər. Biz onlara Allah haqqında danışır, Müqəddəs Kitabdakı hadisələri bərkdən oxuyur, hər gün onlarla dua edirdik. Müntəzəm olaraq onları məbədə aparırdıq. Burada onlara Rəbbin ardınca getməyi öyrədirdilər. Kristoferin və Amandanın qəlbi İsanı qəbul etmək üçün artıq hazır idi və biz heç vaxt bu fikri onlara yeridib, məcbur

etmirdik. Bunun əvəzinə biz dua edirdik ki, öyrəndikləri Allah Kəlamı onların qəlbinə işləsin və Allahla ünsiyyət üçün istək oyatsın. Biz istəyirdik ki, onlar bizim tərəfimizdən heç bir təzyiq görmədən sərbəst qərar qəbul etsinlər. Nəhayət, həmin vaxt gəlib çatanda İsa haqqında suallar verməyə başladılar və nəticədə İsanı Xilaskar kimi qəlblərinə qəbul etmələri üçün, dua etməyimizi istədilər. Valideyn qəlbimiz oğlumuzun və qızımızın xilas olduğuna görə sevinclə doldu. Övladınızın neçə yaşında olmasından asılı olmayaraq, onların xilası üçün dua etmək nə gec, nə də tez deyil. İsa demişdi: «Doğrusunu, doğrusunu sənə deyirəm: Bir kimsə yenidən doğulmasa, Allahın Səltənətini görə bilməz» (Yəh. 3:3). O, həm də demişdi: «Budur, Mən qapı qarşısında durub, onu döyürəm: kim səsimi eşidib, qapını açarsa, Mən onun yanına girəcəyəm və Mən onunla, o da Mənimlə axşam yeməyini yeyəcəyik» (Vəhy 3:20). Biz istəyirik ki, övladlarımız qəlblərinin qapısını İsa üçün açaraq, həm bu həyatda, həm də əbədi həyatda Allahın padşahlığına daxil olsunlar. Bilin ki, əgər siz övladlarınızın gələcəyi üçün dua etməsəniz, bu gələcək olmaya bilər. Övladlarımız Rəbbə iman etdikdən sonra, valideynlər onlarla Allah arasında düzgün münasibətlərin bərpa olunması üçün dua etməlidirlər. Lap kiçik yaşlarından Allahla olan, ancaq yeniyetmə dövründə, hətta yaşa dolmuş bir vaxtda Allahdan dönən bir çox uşaq haqqında eşitmişik. Biz istəyirik ki, övladlarımız «tam hikmət və ruhani idrakla Allahın iradəsini bütünlükdə qavrayıb, Rəbbə layiq şəkildə hərəkət edib, Onu hər cəhətdən razı salsınlar. Hər cür xeyirli işdə səmərə verib, Allahı tanımaqda tərəqqi etsinlər» (Kol. 1:9–10). Pavel və Timotey Allahın Kolosdakı övladları üçün dua etdikləri kimi, biz də övladlarımız üçün belə dua etməliyik. Rəbbin həyatı bizim üçün elə bir mənbədir ki, biz həmişə oradan bizim bir hissəmizə çevrilən nə isə əldə edə bilərik. Daim Rəbbdən övladlarımızın üzərinə Müqəddəs Ruhu tökməsini diləməliyik.

## Dua

***Ya Rəbb***, Sənə dua edirəm ki, oğluma (qızıma) Səni dərk etməyə kömək edəsən. Onun qəlbini aç ki, Sənin həqiqətlərini tam dərk etsin. Sən Öz Sözündə demisən: «Əgər sən ağzınla «İsa Rəbbdir», — deyə iqrar etsən və Allahın Onu ölülərdən diriltdiyinə ürəyinlə inansan, xilas olacaqsan» (Rom. 10:9). Dua edirəm ki, ona, Səni öz Xilaskarı adlandırmağa imkan yaradan iman verəsən. Qoy o, Müqəddəs Ruhla dolsun və həyatının hər bir sahəsində Sənin hakimiyyətini qəbul etsin ki,hər zaman Sənin yolunu seçmək və onun ardınca getmək istəyi onda yaşasın. Mənim oğlumun (qızımın) həqiqətən dərk etməsinə kömək et ki, İsa Öz həyatını ona görə qurban verdi ki, onlar əbədi həyata nail olsunlar və bu dövrdə bol həyatla yaşasınlar. Mühakimə hissinin onu həmişəlik tərk etməsi üçün, onun bütün günahlarını bağışladığına inanması üçün ona kömək et.

Yaxşı bəhrə gətirməsinə və Səni tanımaqda daim böyüməsinə kömək et ki, hər şeydə Səni razı salaraq, önündə pak gəzsin və Sənin iradəni yerinə yetirsin. Öz Sözündə demisən ki, Müqəddəs Ruhunu mənim nəslim üzərinə tökəcəksən (Yeş. 44:3-ə bax). Dua edirəm ki, elə bu gün Öz Müqəddəs Ruhunu mənim övladımın (uşağın adı) üzərinə tökəsən.

Övladımın əbədi gələcəyinin qayğısına bizdən çox qaldığın üçün, Sənə Minnətdaram. İsa ismi ilə dua edirəm ki, mənim övladım (uşağın adı) heç zaman Sənə şübhə etməsin və Sənin onun üçün təyin etdiyin yollardan çıxmasın.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Çünki Atanın iradəsi budur ki, Oğulu görüb Ona iman edən hər kəsin
əbədi həyatı olsun; və mən beləlvalərini son gündə diriltdəcəyəm.

*Yəh. 6:40*

Bu, Xilaskarımız Allahın qarşısında yaxşı və məqbul hərəkətdir.
O istəyir ki, bütün insanlar xilas olub, həqiqəti dərk etsinlər.

*1 Tim. 2:3–4*

Bunu da bilirik ki, Allahın Oğlu gəlib, bizə həqiqi Olanı,
Allahı tanımaq üçün ağıl vermişdir. Biz də həqiqi Olanda,
Onun Oğlu İsa Məsihdəyik. O, həqiqi Allah və və əbədi həyatdır.

*1 Yəh. 5:20*

Şahidlik isə budur ki, Allah bizə əbədi həyat vermişdir və bu həyat
Onun Oğlundadır.

*1 Yəh. 5:11*

Mən də Atadan xahiş edəcəyəm ki, O, daim sizinlə bərabər olmaq
üzrə sizə başqa bir təsəlliverici versin. Bu, həqiqət Ruhudur;
Onu dünya qəbul edə bilməz, çünki Onu görmür və Onu tanımır;
siz isə Onu tanıyırsınız, çünki O sizin yanınızda durur və sizin
daxilinizdə olacaqdır.

*Yəh. 14:16–17*

## 6 FƏSİL

# VALİDEYNƏ HÖRMƏT ETMƏYİ UŞAĞA NECƏ ÖYRƏTMƏLİ VƏ İTAƏTSİZLİYƏ QARŞI NECƏ DURMALI

Sizcə özünə qarşı hörmət tələb etmək qəribə səslənmirmi? Məgər başqalarına hörmət etməyi insanların yadına salmaq lazımdır? Bəli, əgər söhbət övladlarımızdan deyil, başqa insanlardan gedirsə, bu belədir. Lakin övladlarımıza isə bunu öyrətməliyik.

Müqəddəs Kəlam deyir: «Ey uşaqlar, Rəbb yolunda valideynlərinizə itaət edin, çünki bu ədalətlidir. «Atana və anana hörmət et ki, sənə səadət yar olsun və yer üzündə uzunömürlü olasan» (Efes. 6:1-3). Bu, daxilində vəd olan ilk əmrdir. Əgər övladlarımız Allahın bu əmrinə əməl etmirlərsə, onlar nəinki Allahın xeyir-dualarından məhrum olar, həm də qısa ömür sürə bilərlər. Müqəddəs Kəlam xəbərdarlıq edir: «Kim ki, atasına, anasına qarğış edər, zülmətə düşərkən çırağı sönər» (Sül. 20:20). Övladlarımızın həyatına təsir etməyə səlahiyyətimiz olduğunu bilərək, onlar üçün dua etməli, onları düzgün tərbiyə etməli və ciddi nizam-intizama öyrətməliyik. Biz həm də övladımızın qəlbinə gizlincə girib, onları həqiqət yolundan çıxarmağa çalışan qiyam ruhunu ayırd etməli və ona qarşı durmalıyıq.

İtaətsizlik — hərəkətə gətirilmiş qürurdur. İtaətsizlik ruhu deyir: «Allah və başqa insanlar nə düşünürsə — düşünsün, mən öz istədiyimi

etmək istəyirəm». Müqəddəs Kəlam deyir: «Çünki asilik falçılığa bərabər günahdır…» (1 Şam. 15:23). Çünki hər ikisi Allaha qarşı saymamazlıqdır. Elə həmin ayədə yenə də yazılıb: «özbaşınalıq da bütpərəstliyə bərabərdir». Qürur qiyama gətirib çıxarır, inadkarlıq isə insana Allah qarşısında həlimləşib tövbə etməyə mane olur. İtaətsiz insan hansısa bütə də səcdə edə bilər. Əgər uşaqlar ataya və anaya hörmət etmirlərsə,bu hər şeydən əvvəl onların qəlbində bütlərin varlığını göstərir (bura da uşağın yaşının heç bir fərqi yoxdur). Bu bütlərin adı sizə məlumdur: bu qürur və xudbinlikdir. Ona görə də, uşaqlara valideyinlərinə hörmət etmək öyrədilməyibsə, onlar Allah qarşısında da itaətsiz olurlar. Onlar elan edirlər: «Mən nəyi, nə vaxt istədiyimi özüm bilərəm».

«Rəbb bəyan edir: «Bu dikbaş övladların vay halına, Mənim niyyətlərimi yox, öz niyyətlərini qururlar, Ruhuma uyğun olmayan razılaşma edirlər…» (Yeş. 30:1). Bizim dualarımız övladlarımızın qəlbindəki qürur və eqoizm bütlərini devirməyə və itaətsizlik ruhunu ram etməyə qadirdir.

İtaətsizliyin tam əksi — itaət və Allahın yolları ilə yeriməkdir. İtaətli olmaq insana tam təhlükəsizlik hissi və düzgün yerdə, düzgün hərəkət etməyə əminlik verir. Müqəddəs Kəlam itaətə görə xeyir-dua, əks halda isə — qaranlıq və ölüm vəd edir. Biz istəyirik ki, övladlarımız özlərini Allah qarşısında itaətli, özlərinə əmin və təhlükəsiz hiss etsinlər ki, onların həyatı uzun, qəlblərində isə daim sülh və rahatlıq olsun.

Həqiqi itaətə ilk addımlardan biri-valideyinlərə itaətli olmaq və hörmət etməyə hazır olmaqdır. Lakin bunu uşağa öyrətmək lazımdır. Bunun asan olması üçün dua etmək çox vacibdir. Oğlumuz on dörd yaşında olan zaman o, divarlara sevdiyi musiqiçilərin şəkillərini yapışdırmışdı. Onların paltarları, bəzilərinin duruş vəziyyəti, yaradıcılıqlarının musiqi məzmunu bir valideyn kimi bizim üçün açıq-aşkar təhqir idi və Allahı heç izzətləndirmirdi. Biz Kristoferdən bu afişaları divardan götürməsini başa salıb, xahiş edəndə, əvvəlcə

bizimlə razılaşmadı. Sonra üzündə acıqlı ifadə ilə tabe oldu. Bir qədər sonra o, divara digərlərindən fərqlənməyən başqa şəkillər yapışdırdı. Ancaq biz bu dəfə daha ciddi rəftar edərək şəkilləri divardan özümüz qopardıq.

Bu illər Kristofer üçün yüngül keçmədi. Biz bilirdik ki, itaətsizlik ruhunun ilk təzahürləri ilə mübarizə aparırıq, ona görə də Müqəddəs Kəlamda deyildiyi kimi hərəkət etməyi qərara aldıq: «İblisin hiylələrinə qarşı dura bilmək üçün Allahın bütün zirehlərini geyinin» (Efes. 6:11). Allahın qüdrətini imanla elan edib, bu çətinliyi keçməyə bizə güc verməsi üçün dua edib, Müqəddəs Kəlama müraciət etdik. Biz ruhən mübarizə apararaq, Allahın bu vəziyyət üzərində nəzarəti necə ələ alacağını izləyirdik. Artıq oğlumuzun əhval-ruhiyyəsi dəyişilmişdi. Bu dəfə o, divardan, bizim valideyinlik tələblərinə cavab verən şəkillər asmışdı. Bu, bizim dualarımıza Allahın qüdrətli cavabı idi.

Afişa hadisəsi indi mənasız görünə bilər, ancaq o zaman biz, Allah və valideyn iradəsindən daha yüksəyə qalxmaq istəyən çox güclü qiyam ruhu ilə üz-üzə dayanmışdıq. O öz hüquqlarını möhkəmləndirməzdən əvvəl, biz ona layiqli müqavimət göstərdik. Biz bu mübarizədə qalib gəlməli idik, çünki Allah və Onun Sözü bizim tərəfimizədir. Bundan da əlavə ortaya çox vacib bir şey; oğlumun əbədi həyatı qoyulmuşdu.

Əgər sizin övladınız yeniyetmə və ya yetkin insandırsa və onun günü-gündən inadkar və tərs olduğunu görürsünüzsə, bir valideyn kimi daha tələbkar olmalı və ixtiyarınızda çox güclü silahın olduğunu unutmamalısınız. Bu, duadır. Bilin ki, siz oğlunuz və ya qızınızla mübarizə aparmırsınız: «Çünki mübarizəmiz qan və ətə qarşı deyildir, ancaq rəyasətlərə, hakimiyyətlərə, bu qaranlıq dünyanın hökmranlarına, yəni səmavi aləmdə olan pis ruhi qüvvələrə qarşıdır» (Efes. 6:12). Siz, düşmənlə döyüşürsünüz. Xoşbəxtlikdən İsa bizə «düşmənin bütün qüvvətini ayaq altında əzmək üçün» (Luk. 10:19) hakimiyyət verib. Ona görə də qorxmayaraq və şübhələnməyərək bu hakimiyyətdən istifadə edin.

İtaətsizlik ruhu hər zaman övladınızın xasiyyətində özünü göstərə bilər. Lakin biz onu dua və Allahın Kəlamı ilə ram etməyə hazır olmalıyıq. Bununla bərabər nizam-intizam və nəsihət üsullarını da yaddan çıxarmayın. Bilin ki, İsa Məsih — hər şeyin hakimidir.

## *Dua*

***Ya Rəbb***, övladıma Sənə tabe olmaq arzusunda olan ürək ver. Onun qəlbinə Səninlə ünsiyyətdə olmaq, Sözünü oxumaq, duada olmaq, Səsinə qulaq asmaq üçün böyük istək qoy. Onun qəlbindəki hər cür itaətsizlik toxumunu Öz nurunla işıqlandır ki, o üzə çıxsın və məhv edilsin. Ya Rəbb, dua edirəm ki, övladımın qəlbində heç bir qürur, eqoizm və itaətsizlik kök salmasın. İsanın mənə verdiyi səlahiyyətlə «düşmənin bütün qüvvətini ayağım altında əzirəm» və bütpərəstlik, itaətsizlik, inadkarlıq, hörmətsizlik ruhuna qarşı dururam ki, övladım heç zaman bunları tanımasın və bu ölüm yollarında dayanmasın.

Sənin Kəlamında deyilir: «Ey uşaqlar, hər vəchlə valideyinlərinizə itaət edin; çünki bu, Rəbbə məqbuldur» (Kol. 3:20). Səndən xahiş edirəm: oğlumun (qızımın) qəlbini valideynlərinə tərəf döndər. Atasına və anasına itaətli olmağı, onlara hörmət etməyi öyrət ki, həyatları uzun ömürlü və uğurlu olsun. Onun qəlbini özünə tərəf çevir ki, bütün hərəkətləri Sənə məqbul olsun. Qürur və itaətsizlik ruhunu ayırd etməyi, ondan xilas olub peşmançılıq çəkərək, qarşı durmağı ona öyrət. Onu hər bir günaha qarşı barışmaz et. Həlimlik ruhu ilə Sənin önündə yeriməyin nə qədər gözəl olduğunu dərk etməyə ona kömək et.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

İtaətkar olub sözə baxsanız, torpağın ən gözəl bəhrələrindən yeyərsiniz. Əgər üsyankar olub Məni rədd etsəniz, qılıncdan məhv olacaqsınız.

*Yeş. 1:19-20*

Bəziləri əsir düşüb zülmətdə yaşayırdı, zəncirlənib qaranlıqda əziyyətdə qalırdı. Çünki Allahın sözlərinə qarşı çıxmışdılar, Haqq-Talanın məsləhətinə xor baxmışdılar. Ona görə ağır işlə onların ürəklərinə əzab verdi, yıxılanda heç kim onlara kömək etmədi.

*Zəb. 107:10-12*

Kim ki, atasına rişxənd edir, anasının sözünü xor görür, dərələrdəki qarğalar onun gözlərini deşəcək, qartal balaları onun bəbəklərini yeyəcək.

*Sül. 30:17*

Oğlum, ata tərbiyəsinə qulaq as,ananın öyrətdiklərini kənara atma. Onlar başını gözəl çələng kimi, boynunu boyunbağı kimi bəzər.

*Sül. 1:8-9*

Lakin onlar itaətsizlik edərək, Sənə qarşı üsyankar oldular… Onda Sən onları düşmənə təslim etdin.

*Neh. 9:26-27*

## 7 FƏSİL

# QOHUMLARLA YAXŞI MÜNASİBƏTLƏRİ NECƏ QORUYUB SAXLAMALI

Bir neçə il bundan əvvəl, mənimlə bacım arasında çox ciddi mübahisə olmuşdu. Bu, onunla mənim aramda iki il davam edən ünsiyyətlərin kəsilməsi ilə nəticələndi. Mübahisə, hər ikimizin qarşılıqlı başa düşməməzliyimiz üzündən baş vermişdi. Küsülülük bizi, əziz insanın qəlbini başa düşmək və onun qəlbində nələr baş verdiyindən duymaq bacarığından məhrum etmişdi. Biz eyni ailədə tərbiyə alsaq da, ayrı-ayrı dünyanın insanlarıyıq. Bu şeylər məni çox kədərləndirirdi. Mən, yaxın ünsiyyət bərpa olunub, tam barışana qədər bunun üçün dua edirdim. Əgər bizim imanlı və dua edən valideyinlərimiz olsaydı, əminəm ki, aramızda belə bir mübahisə baş verməzdi.

Qəlbimizin düşməni, hər şeydən çox Allah tərəfindən qurulmuş ünsiyyətlərin özəyinə soxulub, düşmənçiliyi alovlandırmaq və ayrılıq toxumlarını səpmək istəyir. O, nə qədər tez öz məqsədinə çatsa, yəni ailəni parçalasa, ailə üzvləri bir o qədər tez zəifləyib, əziləcək, o da, bir o qədər tez onların həyatı üzərində nəzarəti ələ keçirəcək. Buna qarşı yeganə vasitə, bizim dualarımızdır. Biz ailəmiz və bütün qohumlarımız — ərlər, arvadlar, uşaqlar üçün dua edən zaman, şeytanın ünsiyyətlərimizi dağıtmaq şansını minimuma endirmiş oluruq.

Qızım doğulanda oğlumun dörd yaşı var idi. Lap başlanğıcdan dua edirdim ki, Amanda və Kristofer ən yaxşı dostlar olsunlar və bunun üçün əlimdən gələni edirdim. Və həqiqətən də, ilk illər onların dostluğu o qədər möhkəm idi ki, ətrafdakılar da bunu müşahidə etmişdilər. Lakin Kristofer yeniyetmə yaşına çatan kimi hər şey dəyişdi. Onun yeni dostları və yeni maraqları ortaya çıxdığı üçün, balaca bacısına heç vaxtı qalmırdı. Qardaşının dostlarının yeniyetmə zarafatları Amandaya qəribə gəlirdi. Özünü lazımsız hiss edərək, Kristoferdən ayrılmağa başladı. Bu, məni çox kədərləndirdi və hakim rolunu oynamaq qərarına gəldim.

Lakin bir gözəl gün öz səhvimin nədə olduğunu dərk etdim: bu hadisələr baş verməzdən əvvəl, Amanda ilə Kristoferin arasında hər şeyin yaxşı olduğunu görüb, sakitləşərək bu problem üçün dua etmirdim. İndi isə öz səhvimi başa düşüb, yenidən dua etməyə başladım. Tədricən vəziyyət dəyişməyə başladı, qarşıdurma sakitləşdi və onların bir-birinə ünsiyyətində səmimilik yarandı. Əminəm ki, əgər mən heç bir şey etməsəydim, bu iş mənimlə bacım arasındakı münaqişə kimi bitəcəkdi. İndi mənim övladlarımın arasındakı münasibətlər idealdan uzaq olsa da, onlar daim yeniləşir və möhkəmlənirlər. Mən isə ömrümün son günlərinə kimi onlar üçün dua edəcəyəm.

Onlara görə heç kəs dua etmədiyi üçün, nə qədər ailələr taleyin öhdəsinə buraxılıblar? Bilirəm ki, lap çoxları. Ailənin parçalandığını və eyni dam altında böyüyən doğma insanlar arasında heç bir ümumi şeyin olmadığını dərk etmək çox kədərlidir. Bu şeyin övladlarımızın başına gəldiyini görmək nə qədər acıdır. Axı belə olmamalıdır.

Allah Yeşaya Peyğəmbərin Kitabında deyir ki, dua edib, oruc tutan insanların həyatında möcüzələr baş verəcək: «…nəsillərdən qalma təməllərin üstünü siz bərpa edəcəksiniz…» (Yeş. 58:12). Allah istəyir ki, biz Onun tərəfindən qurulmuş ailə və qohum əlaqələrinin «bərpaçısı» olaq ki, gələcək nəsildə ruhani birlik qorunub saxlansın.

Müqəddəs Kəlam deyir: «Öz aranızda həmfikir olun; təkəbbürlü olmayın, amma mütilərlə dostluq edin, alimlik iddiasında olmayın» (Rom. 12:16). Barışıq və sülh üçün dua etmək çox vacibdir.

İsa dedi: «Sülhpərvərlər nə bəxtiyardırlar! Çünki onlara Allahın oğulları deyiləcək» (Mat. 5:9). Beləliklə, gəlin sülh yaradanlar olaq; çünki bu dünyada çox deyilik; «…sülh gətirən və bir-birimizi ruhən inkişaf etdirən şeylərə can ataq» (Rom. 14:19). Bizə hər şeydən əziz olan övladlarımız üçün dua etməyə başlayaq ki, başqa qohumlarımız üçün də dua etməyi öyrənək.

## *Dua*

***Ya Rəbb***, Sənə dua edirəm ki, bütün ailə üzvlərimin arasında yaxın ünsiyyəti qoruyub saxlayasan. Bizi hər cür pislikdən qoru, aramızdakı çoxdankı ədavətləri, həll olunmamış münaqişələri bərpa et. Övladlarımın qəlbini ailəmin hər bir üzvünə qarşı məhəbbətinlə və qayğıkeşliyinlə doldur. Onlara bağışlamağı öyrət. Xüsusilə Səndən xahiş edirəm ki, (övladınızın adı) və (ailə üzvünün adı) arasında daimi, möhkəm, yaxın və isti məhəbbət əlaqələri bərpa olunsun. Qoy onlar ümumi dil tapsınlar və qəlblərində hirs, qəzəb kök salmasın. Bir-birini sevməyi, hörmət etməyi və qiymətləndirməyi onlara öyrət ki, bu münasibətlər Sənin yaratdığın kimi olsun və bir daha pozulmasın. Dua edirəm ki, qoy onlar Sənin Sözündə deyildiyi kimi: «Qardaşlıq sevgisi ilə bir-birini şəfqətlə sevib, hörmətdə bir-birini qabaqlasınlar» (Rom. 121:10).

Övladıma kömək et ki, qohumlarla olan münaqişələri Sənin Kəlamında yazıldığı kimi həll etsinlər. Əgər onlar bir-birindən uzaqlaşsalar, xahiş edirəm ki, ünsiyyətlərindəki bu

yırtığı tik və şəfa ver. Xahiş edirəm, elə et ki, onların dostluğunda heç bir gərginliyə, başa düşməməzliyə, qarşıdurmaya yer olmasın və bu bağlar möhkəm olsun. Övladıma bağışlamağı və güzəştə getməyi öyrət.

Sənin Sözün bizə nəsihət verir: «…hamınız həmfikir, başqalarının dərdlərinə şərik, qardaş sevən, şəfqətli, mehriban, təvazökar olun» (1 Pet. 3:9). Ona insanlarla ünsiyyət qurmağı öyrət ki: «Ruhun vəhdətini sülh bağı ilə saxlamağa səy» (Efes. 4:3) göstərsin. İsa Məsih ismi ilə dua edirəm: qoy mənim oğlum (qızım) bütün qohumlara məhəbbət və qayğı göstərsin, qoy mərhəmət və bir-birini başa düşmək ailənin bütün üzvlərini möhkəm bağ kimi bir yerdə saxlasın.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Sülhpərvərlər nə bəxtiyardırlar!
Çünki onlara Allahın oğulları deyiləcək.

*Mat. 5:9*

Nə yaxşıdır, nə xoşdur qardaş olub, bir yaşamaq.

*Zəb. 133:1*

Qoy təhəmmül və təsəlli verən Allah, Məsih İsaya əsasən sizə, öz aranızda həmfikir olmağı ehsan etsin ki, siz yekdilliklə, bir ağızdan Rəbbimiz İsa MəsihinAtası olan Allaha izzət verəsiniz.

*Rom. 15:5-6*

Mümkünsə, əlinizdən gəldiyi qədər bütün adamlarla sülhdə olun.

*Rom. 12:18*

Rəbbimiz İsa Məsihin adı ilə, ey qardaşlarım, sizə yalvarıram ki, hamınız eyni düşüncədə olun və aranızda ayrılıq olmasın və siz bir fikirdə və eyni rəydə birləşəsiniz.

*1 Kor. 1:10*

# 8 FƏSİL

# ÖVLADIMIZA İMANLI DOSTLAR TAPMAĞA NECƏ KÖMƏK ETMƏLİ

Mən həmişə övladlarımın dostları üçün dua etmişəm və çox vaxt onların dostları ən yaxşı uşaqlar olublar. Ancaq hərdən Kristoferin və Amandanın elə dostları meydana çıxırdı ki, bir ana kimi mən bunu bəyənmirdim. Ona görə yox ki, həmin uşaqlar mənim xoşuma gəlmir, sadəcə onların mənim uşaqlarıma göstərdiyi təsir xoşuma gəlmirdi. Mənim həmişəki kimi yeganə vasitəm dua olurdu. Dua edirdim ki, övladımın belə dostu ya dəyişilsin, ya da onun həyatından həmişəlik getsin. Hər iki halda mən həmişə duama cavab alırdım. Bir neçə dəfə, zaman mənim təşvişlərimin əsaslı olduğunu və bu uşaqların həyatında böyük problemlər olduğunu təsdiq etdi.

Adətən valideynlər, övladlarının kiminlə dostluq etməsinə qısqanclıqla yanaşırlar, necə deyərlər «daxilən» təhlükə hiss edirlər. Belə vəziyyətlərdə Müqəddəs Ruhdan sizə, vəziyyəti düzgün başa düşməyi və buna uyğun olaraq dua etməyə kömək etməsini xahiş edin.

Həyatımızın ən həyəcanlı mərhələlərindən biri, ailəmizin Kaliforniyadan Tennesi ştatına köçməsi olub. Bu ciddi addımı oğlumuz məktəbi qurtaran, qızımız isə yeddinci sinfə, yəni, məktəb ilinin ən xoşagəlməz dövründə oxuyan zaman atdıq. Əlbəttə ki, həmin dövrdə

məktəbin dəyişilməsini heç istəməzdim. Lakin biz, həyat yoldaşımla dəqiq bilirdik ki, buradan köçməyimiz Allahın iradəsidir. Bu addımın övladlarımız üçün nə qədər ağrılı olduğunu hiss edərək, köçməmişdən bir neçə ay əvvəl və sonra onlar üçün dua etməyə başladım: «Ya Rəbb, övladlarıma kömək et ki, yeni məktəbdə özlərinə, Sənə məqbul dostlar tapsınlar. Bilirəm ki, bizi bura Sən gətirmisən və Sən onları tərk etməyəcəksən. Mən istəmirəm ki, onlar ünsiyyətə can ataraq, öz yaşıdları arasında, mənəvi siması Sənin tələblərinə uyğun gəlməyən dostlar tapsınlar. Övladlarımın qarşısına, onlara nümunə ola biləcək dostlar çıxar».

İlk altı ay ərzində Kristofer və Amanda məktəbdə özlərini çox tənha hiss edirdilər. Mən isə bu ehtiyac üçün dua edərək yuxusuz gecələr keçirirdim. Özümü tamamilə köməksiz hiss edirdim. Axı uşaqlıqda olduğu kimi, indi də mən onlar üçün dostlar seçə bilməzdim! Əgər mən bunu etməyə başlasaydım da, Allahın mənim dualarıma verdiyi cavab kimi edə bilməzdim. Nəhayət ki, Kristoferin və Amandanın həyatında ən gözəl dostlar meydana çıxdı. Bu bir təsadüf və ya «xeppi-end» deyildi — bu mənim vəsadətçi dualarımın, göz yaşlarımın, Allaha: «Ya Rəbb övladlarıma, Amandaya və Kristoferə əsl nümunə ola biləcək, Sənə məqbul dostlar tapmağa kömək et» — deyən yalvarışlarımın bəhrəsi idi.

Bu barədə Müqəddəs Kəlam öyrədir: «İmansızlarla eyni boyunduruğa girməyin. Axı salehlik ilə qanunsuzluq arasında nə ortaqlıq ola bilər? İşıqla qaranlıq arasında nə şəriklik ola bilər? Məsih ilə belial arasında nə uyğunluq ola bilər? Yaxud imanlı ilə imansız arasında nə müştərək şey ola bilər?» (2 Kor. 6:14-15). Bu ayələrdə imansız insanlarla ünsiyyətdə olmağa heç bir qadağalar yoxdur. Lakin ən yaxşı dostlarımızın ancaq imanlılar olması haqqında qəti tapşırıqlar var. Müqəddəs Kəlam soruşur: «İki nəfər razılaşıb görüşməsə, birgə yol gedərmi?» (Amos 3:3). Və cavab verir: «Saleh insan qonşusuna da yol göstərər, lakin şər insanın yolu dolaşıqdır» (Sül. 12:26).

Əgər övladlarınızın imanlı dostları yoxdursa, onlar üçün bu andan dua etməyə başlayın. Rəbdən xahiş edin ki, onların imansız dostları iman etsin və həyatlarına yeni imanlı dostlar daxil olsun. Bəzən valideynlər nəyisə dəyişə bilmədikləri və övladlarının həyatını bəzi insanların göstərdiyi mənfi təsirlərdən qoruya bilmədikləri üçün özlərini çox köməksiz hiss edirlər. Lakin biz köməksiz deyilik. Bizim tərəfimizdə Allahın gücü və Onun Sözünün həqiqəti var. Övladınızı kimsə həqiqət yolundan döndərirsə, əllərinizi yanlarınıza salmayın. Müqəddəs Kəlam çox tez-tez bizi pis yoldaşlıq əlaqələrinin təhlükəli olduğundan xəbərdar edir və bu xəbərdarlığa əhəmiyyətsiz yanaşmağa isə heç bir haqqımız yoxdur. Özündə bənzəmək üçün bu və ya digər surəti nümayiş etdirən dostların, övladlarımızın həyatına təsiri çox böyükdür.

## Dua

***Ya Rəbb***, Sənə dua edirəm ki, övladlarımın həyatına onlara əsl nümunə ola biləcək dostlar göndərəsən. Ona müdriklik ver ki, özünə yaxşı dostlar seçsin. Heç vaxt yaşıdlarının gözündə yaxşı görünmək üçün vicdanı ilə güzəştə getməsin. Müqəddəs Ruhunla mənə müdriklik ver ki, onun dost seçiminə düzgün təsir edə bilim. Səndən xahiş edirəm: övladıma mənfi təsir göstərən hər kəsi ondan uzaqlaşdır, ya da o uşaqları öz surətində dəyişdir.

Sənin Sözün deyir: «Hikmətli ilə oturub-duran hikmət qazanar, axmaqlarla ayaqlaşan bədbəxt olar» (Sül. 13:20). İcazə vermə ki, mənim övladım axmaqlarla ünsiyyətdə olsun və onu ağılsız dostların öldürücü təsirindən qoru. Onu Səninlə əlaqəsi olmayan insanlardan uzaqlaşdır ki, o, bu «dost»un yolları ilə gedib, qəlbi bu tora düşməsin.

Dostları onu tərk edərsə, ona təsəlli ver və yeni dostlar göndər ki, bu dostlarla qəlbinin ən gizli sirlərini bölüşərək, özü kimi, yəni, Sənin onu yaratdığın kimi olsun. Onu tənhalıqdan və həyatlarında Səni izzətləndirməyən insanlarla ünsiyyətə itələyən özünü aşağı qiymətləndirmə hissindən qoru.

İsa Məsih ismi ilə dua edirəm ki, həqiqi dostluğun nə olduğunu ona aç və bütün həyatı boyu başqası üçün əsl dost olmağı ona öyrət. Elə et ki, mənim övladım həmişə Sənin ismini izzətləndirən dostluq əlaqələri qursun.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Pislərin yoluna ayaq basma, şər insanın yolları ilə getmə.

*Sül. 4:14*

Əslində mən sizə yazmışdım ki, siz özünü qardaş adlandırıb, əxlaqsızlıq,tamahkarlıq, bütpərəstlik, acıdillik, sərxoşluq və yaxud qəsbkarlıq edənlə oturub-durmayasınız; hətta beləlöri ilə bir yerdə çörək belə yeməyəsiniz.

*1 Kor. 5:11*

Oğlum, Rəbbdən və padşahdan qorx, xəyanətkarlarla yoldaş olmaqdan çəkin. Onların bəlası qəfildən gəlir. Hər ikisinin verəcəyi cəzanı kim bilir?

*Sül. 24:21-22*

Tez qəzəblənənə yoldaş olma, kəmhövsələ ilə yola çıxma. Yoxsa onun yollarında alışarsan, qanını tələyə salarsan.

*Sül. 22:24-25*

Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan, rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır!

*Zəb. 1:1*

## 9 FƏSİL

# UŞAĞA ALLAHI BÜTÜN ÜRƏYİ İLƏ AXTARMAĞI NECƏ ÖYRƏTMƏLİ

Qəzetlərdə gənc insanların necə oğurladıqlarını, soyğunçuluq etdiklərini, öldürdüklərini, cinsi əlaqələrdə dolaşıqlıqlarını oxuduğumuz zaman, onlarda Allah qorxusu, Onun yollarını düzgün dərk etmək, Onu bütün qəlbi ilə axtarmaq istəyinin olmadığını görməmək mümkün deyil. Onlardan bəzilərinin məsihçi ailəsindən çıxaraq, İsanı öz xilaskarı kimi qəbul etməsinə baxmayaraq, Allah qorxusunda tərbiyə almadıqları və onun hüzurunu axtarmağa öyrədilmədikləri üçün tamamilə öz ehtiraslarına güzəştə gediblər.

Allah qorxusu o deməkdir ki, biz Rəbbi bütün qəlbimizlə sevməli və hörmət etməli, Onun hakimiyyəti və qüdrəti önündə ehtiram hiss edək. Allah qorxusunun təməlində, Onsuz insan həyatının nə qədər gərəksiz olduğunu dərk etmək və heç zaman ümidsizliyə düşməyəcəyimizi söz verən, Allah məhəbbətinə minnətdarlıq dayanır. Allah qorxusu özündə qəlb aclığı, yəni Rəbbə toxunaraq, Ona yaxın olmaq məqsədi daşıyır.

Ətrafımızda övladlarımızı Allahdan ayıran o qədər şey var ki, şeytan övladlarımızın hər birinə yaxınlaşaraq onları imtahan edir və cavabı izləyir: görəsən, bu uşaq onun «tilovuna» düşəcəkmi. Lakin

biz övladlarımızı tərbiyələndirib, nizam-intizamlı olmağı və Allahın yolları ilə getməyi öyrədəndə…

…müqəddəs yazıları onlar üçün oxuyanda,

…onlara dua etməyi, bütün həqiqətlərin Rəbdə olduğunu və Onun, söz verdiyi hər şeyi yerinə yetirdiyinə inanmağı öyrədəndə,

…onlara imanlı dostlar seçməyə kömək edəndə,

…Allahda yeriməyin azadlığı boğub, məhdudlaşdırmaq deyil — sevinc və dolğunluq hissi bəxş etdiyini göstərəndə,

…onlarla birlikdə, onların bütün ehtiyacları üçün dua edəndə, onların qəlbində ruhani aclıq oyanır və Allahı dərk etmək istəyi baş qaldırır.

Uşaqlar dərk etsələr ki, Allah və ona aid hər şey həyatda ən önəmlidir, o zaman onlar bədənin yox, Allahın rəhbərliyi altında yaşamağa, Onun yollarını, Sözünü və hüzurunu axtarmağa, Onun adı qarşısında qorxu əldə etməyə başlayacaqlar və bu zaman onların həyatı uzun və uğurlu olacaq. Çünki yazılmışdır: «Rəbb qorxusu ömür uzadar, şər insanların illəri azalar» (Məs. 10:27).

Kaliforniyadan Tennesi ştatına köçdüyümüz zaman ilk işimiz, bizə yaxşı gənclər toplantısı olan məbəd göstərməsi üçün Rəbbə dua etmək oldu və biz duamıza cavab aldıq. Bunun nəticəsində bizim övladlarımız yeni məbədin gənclər toplantısına asanlıqla qatıldılar. Orada sadiq dostlar tapdılar və Allaha imanda böyüməyə davam edirdilər. Onun hüzurunu hiss etdiyin, Onun sevincini Allahın başqa övladları ilə bölüşməyə imkanı olan, Allahın Kəlamını fəallıqla öyrənən məbəd tapmaq çox vacibdir! Bu çox vacib olduğu üçün, belə ünsiyyətlər uşaqda Allahı və Ona aid olan hər şeyi axtarmağa yanğı hissini gücləndirir.

Bunu sonraya saxlamayaraq, indidən dua etməyə başlayın ki, sizin övladınız Allah qorxusunda, Ona və Onun Sözünə inamla yaşasın və bütün qəlbi ilə Onun üzünü axtarmağı öyrənsin. Övladınızın bütün həyatı bundan asılıdır — oğlunuz (qızınız) daim öz bədəni

ilə mübarizədə yaşayacaq, yoxsa Müqəddəs Ruhla dolaraq Allahın xeyir-dualarını əldə edəcək. Bilin ki: «Ondan qorxan heç nəyə möhtac qalmaz» (Zəb. 34:9). Bunun üçün dua etmək heç vaxt gec deyil, ona görə də duanı sonraya saxlayıb, başqa vaxtı gözləməyin.

## Dua

***Ya Rəbb***, dua edirəm ki, övladımın qəlbində həmişə sənə can atmaq istəyi olsun. Qoy oğlum, (qızım) həmişə Sənin hüzurunu axtararaq, duada, səcdədə və sitayişdə Səninlə birlikdə vaxt keçirsin. Onun qəlbinə Sənin yollarını dərk etmək, Sənin əmrlərinə və yollarına məhəbbət göstərmək istəyi qoy. Qoy oğlum, (qızım) Müqəddəs Ruhun idarəsi altında imanla yaşasın və Sənin əmrlərinə əməl etməyə həmişə hazır olsun. Qoy mənim övladım Müqəddəs Ruhla elə dolsun ki, hər cür çətinlikdə dəstək və ruhən yeniləşməsi üçün Sənə müraciət etsin.

Dua edirəm ki, mənim övladım Sənin əmrlərinə əməl etməkdən uzaqlaşmasın və Sənə məqbul olmayan hər yolu inkar etsin. Sənə, Sənin yollarına göstərdiyi ehtiram və məhəbbət onun həyatını, atdığı hər addımı və hər işini işıqlandırsıın. Etdiyi hərəkətlərin nəticəsinə görə məsuliyyət daşıdığını ona öyrət və bilsin ki, cismani həyatın bəhrəsi ölümdür. Qoy o, öz gözlərində müdrik görünməyərək, Sənin əmrini xatırlasın: «Öz gözündə özünü hikmətli sanma, Rəbbdən qorx, şərdən çəkin» (Sül. 3:7).

Mən istəyirəm ki, o, həmişə sadiq, məsuliyyətli, başqalarının dərdinə şərik, açıq ürəkli, sevən və əli açıq bir insan olsun. Onu hər cür qürur, eqoizm, laqeyidlik və cismani ehtiraslardan xilas et; ona, Səndən olan hər şeyə «hə», cismani

olan hər şeyə isə «yox» deyən həlim ruh bəxş et. Ona, öz əminliyindən möhkəm yapışmağa kömək et.

Dua edirəm ki, övladım həmişə Sənin Müqəddəs Ruhunla ilhamlanaraq, təlimdə, duada, səcdədə Sənin həqiqət Sözünlə yaşayan Məsihçi məbədinin fəal üzvü olmaq istəsin. Sənin Sözlərini öyrənən zaman, əmrlərini onun düşüncəsinə yaz və bu həyatda yaşayarkən dərk etsin ki, Sənin əmrlərin həqiqətdir. Oğlum (qızım) dua etməyi öyrənən zaman, qoy həm də Sənin iradənin nə olduğunu dərk etsin. Onun Səninlə ünsiyyəti səmimi, alovlu və dərin olsun. Onun qəlbində həmişə Müqəddəs Ruhun alovu yansın. Sənə və Səndən olan hər şeyə doğru can atmaq istəyi bitib-tükənməsin.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Salehliyə can atıb susayanlar nə bəxtiyardırlar!
Çünki Səmavi Səltənət onlarındır.

*Mat. 5:6*

Rəbb qorxusu həyat qaynağıdır,
insanı ölüm tələsinə düşməkdən geri qaytarır.

*Sül. 14:27*

Zira mən Qanun vasitəsi ilə Qanun etibarı ilə öldüm ki,
Allah üçün yaşayım. Mən Məsihlə bərabər çarmıxa çəkilmişəm;
və artıq mən yaşamıram, Məsih məndə yaşayır. İndi bədənlə
yaşamağıma gəlincə, məni sevib,uğrumda özünü fəda edən Allahın
Oğluna imanla yaşayıram.

*Qal. 2:19–2*

Nə bəxtiyardır Onun öyüdlərinə əməl edənlər,
bütün qəlbi ilə onu axtaranlar.

*Zəb. 119:2*

Ya Rəbb, mənə yolunu göstər, Sənin həqiqətinlə addımlayım.
Qəlbimi səmimi et, qoy sənin ismindən qorxum.

*Zəb. 86:11–12*

## 10 FƏSİL

# UŞAĞA ÖZ ÇAĞIRIŞINI DƏRK ETMƏYƏ NECƏ KÖMƏK ETMƏLİ

Çox böyük kompaniyada, yüksək maaşlı işini ataraq, sadə avtomexanik işləyən bir insan tanıyıram. Dünyada ən çox sevdiyi peşə — avtomobil təmir etmək olduğu üçün o, bu addımı atmışdı. Sonralar o, şəhərdə nəinki ən yaxşı mexanik oldu, həm də öz qabiliyyətini başqalarına da yaydı. Başqa birisini də tanıyıram ki, bu insan, Allahın onu pastor çağırışına cavab verməyərək, uğurlu biznesmen olmağı planlaşdırırdı. Nəticədə o, boşanaraq həm ailəsini itirdi, həm də kiçik oğlunun ölümünü yaşadı. Onun bütün həyatı sonsuz itkilər və dəhşət axınına çevrildi.

Əgər onun üçün dua edən atası və anası, yaxud Allahın onun üçün nələr hazırladığını dərk etməyə kömək edən başqa bir insan olsaydı, hər şey başqa cür ola bilərdi.

Allahın bizi nə cür yaratdığını dərk etməyərək, biz olmadığımız kimi olmaq istəyirik, başqa cür olmağa can atırıq. Ancaq bütün bunlar çox vaxt məyusluq, alçalmaq və öz dəyərsizliyini hiss etməklə qurtarır. Buna misal olaraq, ümidlərini doğrultmayan işlərinə, ailələrinə nifrət edən insanların həyatını göstərmək olar. Şübhəsiz ki, belə insan nə vaxtsa bu yalana inanacaq: «Mən heç nəyə yaramıram. Bu mənim üçün deyil. Nə isə başqa bir işlə məşğul olmalıyam».

Yəqin belə insanlara heç kim, heç vaxt başa salmayıb ki, onlar Allah tərəfindən verilmiş gücə və bacarığa malikdirlər. Görünür onlar hələ də öz çağırışlarını bilmirlər. Biz, Allahın rəhbərliyini diləyib, onun tapşırığına əməl edən zaman həyatın mənasını başa düşürük. Yeremiya peyğəmbər İsrail xalqını pislikdən üz döndərməyə çağıranda, onlar qulaq asmadılar. Nəhayət Rəbb dedi: «Mən söylədiyim bütün fəlakətləri Yəhuda vəYerusəlimdə yaşayan hər kəsin başına gətirəcəyəm. Çünki onlara xəbərdarlıq etdim, qulaq asmadılar, onları çağırdım, cavab vermədilər» (Yer. 35:17). Biz Allahın səsinə qulaq asmayanda, bədbəxtlik üstümüzə gəlir. Lakin biz övladlarımızın Rəbbə qulaq asması üçün dua edəndə, kədər onlardan yan keçəcək.

İblisin gənc insanlara qarşı işlətdiyi çox sevdiyi bir üsulu var: onları özlərini başqaları ilə müqayisə etməyə məcbur edir ki, öz dəyərsizliklərini görsünlər və Allahın onları yaratmadığı kimi olmağa çalışsınlar. Gənc qızlar özlərini rəfiqələri ilə müqayisə edərək görürlər ki, onların saçları da qəşəngdir, ən son dəblə geyinirlər, daha böyük və bahalı evlərdə yaşayırlar, məktəbdə gənc oğlanların uğurlarından istifadə edirlər, əla qiymətlərlə oxuyurlar. Gənc oğlanlar öz yaşıdlarına baxıb görürlər ki, başqaları ondan hündürdür, güclüdür, xarici görünüşü daha cəlbedicidir, onların daha çox dostları var, onların daha bahalı və gözəl əşyaları var və ümumiyyətlə, onlar daha bacarıqlı və savadlıdırlar. Özünü daim başqaları ilə müqayisə edib, inkişaf etdirmək, nəticədə özünü aşağı qiymətləndirməyə gətirib çıxararaq, övladlarımızın özünü dərk etməsinə böyük ziyan vurur. Yeniyetmə vaxtlarına çatmamış çox uşaq tanıyıram ki, artıq indidən özlərinə nifrət edir və başqa birisi kimi olmağı arzulayırlar. Özünü Allah tərəfindən yaradılmış məxluq kimi qiymətləndirmək və Allah tərəfindən verilmiş bacarıqları ən yüksək səviyyədə inkişaf etdirmək əvəzinə, var gücləri ilə başqa cür olmağa çalışırlar. Yəni, onları heç zaman razı salmayan şeyləri axtarırlar. Ancaq bizim dualarımız düşmənin bütün planlarını dağıtmağa, övladlarımıza isə özlərini və öz gələcəklərini həqiqət işığında görməyə kömək etməyə qadirdir.

Həyat yoldaşımla birlikdə, övladlarımız hələ körpə olan vaxtdan, onların ənam və bacarıqlarını bizə açması üçün Rəbbə dua edirdik. Övladlarımı öyrədib, tərbiyə etmək, onların bacarıqlarını inkişaf etdirmək və Allah tərəfindən onlar üçün qabaqcadan müəyyən edilmiş tapşırığı yerinə yetirməkdə, onlara kömək edə bilmək üçün Rəbbdən müdriklik diləyirdim. Mən öz çağırışımı, Kristoferə və Amandaya öz yaxşı cəhətlərini qiymətləndirib, fikirlərini çatışmayan cəhətləri üzərində cəm etməməyə kömək etməkdə görürdüm. Lakin övladlarım yeniyetmə dövrünə qədəm qoyduğundan bu tapşırıq daha da çətinləşdi və mənim dualarımın əsas mövzusuna çevrildi.

Ancaq mənim üçün ən vacib şey, oğluma və qızıma Allahla ən yaxın ünsiyyət qurmaqda kömək etmək idi. Çünki yalnız bu zaman onlar Allahın düşüncələrini dərk edə bilərdilər. Bilirdim ki, əgər onlar ilk növbədə Allahın kim olduğunu dərk etməsələr, heç vaxt öz-özlərini düzgün başa düşməyəcəklər.

Müqəddəs Kəlam, övladlarımızın üzərinə Müqəddəs Ruhu tökəcəyini vəd edir: « Onlar otlar arasında, axar sular kənarında, söyüd ağacları kimi boy atacaq. Biri «Mən Rəbbinəm» deyəcək, digəri də əlinə «Rəbbin quluyam» deyə yazacaq» (Yeş. 44:4-5). Allaha iman edən övladlar kim olduqlarını dərk edəcəklər. Onlar Müqəddəs Ruhla dolaraq Allaha nəyin məxsus olduğunu dərk edəcəklər. Siz bu sözləri əminliklə deyən hər bir uşağın üzündə sevinc görəcəksiniz: «Mən Allaha məxsusam». Siz də övladlarınızı xoşbəxt görmək istəyirsinizmi? O zaman dua edin.

## *Dua*

***Ya Rəbb***, dua edirəm ki, övladım (övladınızın adı) üzərinə elə bu gün Müqəddəs Ruhunu tök və Sənin onu yaratdığın kimi olmağa və ona tapşırdığın işləri yerinə yetirmək

üçün ona xeyir-dua ver. Ya Rəbb, Sənin Sözün deyir: «Qardaşlar, hər kəs çağırıldığı zaman olduğu vəziyyətdə Allah ilə birlikdə qalmaqda davam etsin» (1 Kor. 7:24). Qoy mənim övladım, Sənin Sözündə deyildiyi kimi heç vaxt, təyin etdiyin tapşırıqdan kənara çıxmasın. Ya Rəbb, iblisin — övladımın həyatını məhv etmək, Sənin ənamlarını ondan oğurlamaq, Sənin qoyduğun yoldan azdırmaq, Sənin verdiyin bacarığı məhv etmək üçün olan bütün planlarını dağıt. Qoy mənim övladım, Səndən başqa heç vaxt, heç kimin ardınca getməyərək, özü insanları Sənin Padşahlığına gətirsin. İsa Məsihdə malik olduğu hakimiyyəti dərk etməyə ona kömək et ki, bununla qəlbində Sənə itaət və həlimliyi qoruyub saxlasın. Müqəddəs Ruhun bəhrələri günbəgün onda artıb çoxalsın. Bunlar: məhəbbət, sevinc, sülh, səbr, mərhəmət, xeyirxahlıq, inam, təvazökarlıq və özünü idarə etmədir (Qal. 5:22-yə bax). Qoy mənim oğlum (qızım) hər zaman özündə Sənin surətinin əksini görsün, özünü Sənin əllərində bir alət kimi hiss edərək, həyatın əsl mənasının Səndə olduğunu dərk etsin. Öz qarşısına, Sənin təyin etdiyin tapşırıqlara uyğun gələn məqsədlər qoymağa ona kömək et. Ona kömək et ki, özünə keçmişdən yox, Sənin kimi gələcəkdən baxsın. Qoy mənim övladım möhkəm bilsin ki, Sənin onun həyatı üçün fikirlərin xeyirxahlıq, gözəl gələcək və ümiddən ibarətdir. (Yer. 29:11-ə bax). Ona kömək et ki, Səndə gələcəyə ümid görsün və Səni dərk etsin: «Allah, əməllərimizə görə deyil, Öz məqsədinə və lütfünə görə bizi xilas edib, müqəddəs dəvətlə çağırdı. O lütf ta əzəldən bəri bizə Məsih İsada bəxş edildi» (2 Tim. 1:9) ki, günügündən ruhən möhkəmlənərək, Sənin onu yaratdığın kimi qalsın.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Siz isə, seçilmiş nəsil, Hökmdarın kahin tayfası, müqəddəs millət, Allaha məxsus xalqsınız ki, sizi qaranlıqdan Öz valehedici nuruna Çağıranın fəzilətlərini elan edəsiniz.

*1 Pet. 2:9*

Amma necə ki, yazılmışdır: «Allahın Onu sevənlər üçün hazırladığı şeyləri nə göz görmüş, nə qulaq eşitmiş və nə də insanın ürəyi düşünmüşdür».

*1 Kor. 2:9*

Buna görə, qardaşlar, sizə verilən dəvəti və intixab olunmanızı möhkəmlətməyə daha çox çalışsın. Çünki əgər bunu etsəniz, heç vaxt büdrəməzsiniz.

*2 Pet. 1:10*

Bilirik ki, Allah, Onu sevənlərlə, Onun muradına görə dəvət olunanlarla bərabər hər vəziyyətdə yaxşılıq üçün fəaldır. Çünki O, kimləri əvvəlcədən tanımışdısa. Onlara da Öz Oğlunun surətinə uymalarını qabaqcadan müəyyən etmişdir ki, O, çoxlu qardaş arasında ilk doğulan olsun. Və Allah kimləri qabaqcadan müəyyən etmişdisə, onları da dəvət etdi; dəvət etdiyi kimsələri saleh saydı; saleh saydığı kimsələri də izzətləndirdi.

*Rom. 8:28–30*

Qalx, işıqlan, çünki nurun gəldi, Rəbbin izzəti üzərinə gəldi.

*Yeş. 60:1*

# 11 FƏSİL

# UŞAĞA YALANI İNKAR EDƏRƏK, HƏQİQƏTİN ARDINCA GETMƏYİ NECƏ ÖYRƏTMƏLİ

Bizim ailədə olan bu qaydanı uşaqlar yaxşı bilir: onların bəzi günahlarına görə cəza yüngül ola bilər, lakin yalana görə cəza çox ciddi və qaçılmazdır. Biz yalanı başqa günahlardan daha pis hesab edirik, çünki bütün günahların kökü ondadır. Hər bir cinayət kiminsə yalana uyması və özünün yalan danışması üzündən baş verir. Hətta yalanın ən hiyləgərcəsinə bəraəti (Məsələn: «əgər yalan danışmasam, istədiyimi əldə edə bilməyəcəyəm») də başqa bir pisliyə yol açır.

Qızımız hələ çox balaca olanda, öz məqsədinə çatmaq üçün «balaca bir hiyləgərlik» etmək istədi. Lakin o, tezliklə başa düşdü ki, bunu etməyə dəyməz, çünki hiyləgərliyə görə cəza, onlara çox baha başa gəlirdi. Ancaq oğlumuz bu barədə «xırdaçılıq» etmirdi, o, aldadanda — yaman aldadırdı.

Kristoferin yeddi yaşı olanda o, dostu Stivenlə onların evinin önündə beyzbol oynayırdılar. Top böyük naxışlı pəncərəyə dəyərək, bərk gurultu qopardı. Bu səsə Stivenin anası qaçaraq evdən çıxdı. O, bunu kimin etdiyini soruşdu. «Mən etməmişəm» — Stiven cavab verdi. Kristofer də «Mən etməmişəm» — deyə cavab verdi. Qadın davam etdi: «Stiven təsdiqləyirsən ki, pəncərəni topla sən sındırma-

mısan?». «Bəli, təsdiqləyirəm ki, bunu mən etməmişəm» — deyə Stiven cavab verdi. O, mənim oğluma tərəf dönərək «Kristofer, pəncərəni topla sən sındırmısan?» — deyə soruşdu. Kristofer cavab verdi: «Əgər siz bunu mənim etdiyimi görmüsünüzsə, demək belədir. Əgər görməmisinizsə demək bunu mən etməmişəm» — deyə Kristofer sakitcə cavab verdi. Stivenin anası «bunu görmədiyini» söylədi. Kristofer isə «onda mən günahkar deyiləm» — dedi.

Qadın bizə zəng vurub, baş verən hadisə haqqında danışanda biz başa düşdük ki, oğlumuz yalanın asan bir şey olduğuna qərar verməmiş bu işə qarışmalıyıq.

«Kristofer, bu hadisənin baş verdiyini görən birisi var. Bəlkə sən özün bu haqda bizə danışasan? — deyə, mən özünün bunu boynuna alıb, tövbə etməsini istəyərək soruşdum. O, başını aşağı əyərək dedi: «Bəli, bunu mən sındırmışam». Bundan sonra biz onunla çox söhbət edərək, Müqəddəs Kəlamın yalan barədə nə dediyini başa saldıq. «İblis — yalanın atasıdır — dedm, — və hər pislik yalandan başlayır. İnsanlar fikirləşirlər ki, yalan onların həyatını asanlaşdırır, lakin əslində isə əksinə olur. Bu, ona görə baş verir ki, sən yalan danışaraq iblislə əlaqəyə girirsən. Hər dəfə sən yalan danışan zaman qəlbində ona daha çox yer verirsən. Sən, nə qədər çox yalan danışsan iblisin yalan ruhu qəlbini bir o qədər tez ələ alır və bir də görürsən ki, bu yalan selinin qarşısını ala bilmirsən. Müqəddəs Kəlam deyir: „Yalançılıqla qazanılan xəzinə havaya yayılan his-dumandır, bir ölüm tələsidir“. (Sül. 21:6). Başqa sözlə desək, sən elə bilirsən ki, yalanın köməyi ilə çox şey əldə edə bilərsən, əslində isə sən ancaq öz həyatını məhv edirsən. Ən yaxşısı doğru danışmaqdır. Hətta yalana görə çəkdiyin cəzanın da nəticəsi də, yalanın nəticəsindən fərqli olaraq sənin xeyrinədir. Çünki, Müqəddəs Kəlam bizə söz verir: „Yalançı şahid cəzasız qalmaz, yalandan üzə duran qurtuluş tapmaz“ (Sül. 19:5)».

Bir neçə vaxtdan sonra Kristofer məndən onu həmin gün kimin gördüyünü soruşdu. «Allah — deyə cavab verdim. O, səni görüb.

Mən həmişə Ondan, sənin və bacın haqqında bütün həqiqətləri mənə açmasını diləyirəm. O, Həqiqət Ruhudur, başa düşürsən?». «Anacan, axı bu ədalətsizlikdir» — deyə Kristofer cavab verdi. O vaxtdan o, həmişə yalanlarını boynuna alır və hər dəfə də deyir: «mən fikirləşirdim ki, Allahdan qabaq özüm bunu sənə deyərəm.

Uşaqlar yalan danışmaya bilməzlər. Məsələ onların yalan danışıb-danışmadıqlarında deyil, yalanın onların həyatının normasına və adətinə çevrilməsindədir. Bundan çıxış yolu isə bizim buna münasibətimizdir. Əgər biz, övladımıza Allahın yalan barədə nə dediyini başa salmasaq, onlar bunun nə qədər pis şey olduğunu dərk etməyəcəklər. Əgər biz gözlərimizi onların yalanlarına yumsaq, düşünəcəklər ki, yalan danışmaq olar. Əgər biz indidən bu problem üçün dua etməsək, tədricən çox acı bəhrə yığacağıq.

Müqəddəs Kəlam şeytan haqqında belə deyir: «Sizin atanız iblisdir; və öz atanızın ehtiraslarını icra etmək istəyirsiniz. O, başlanğıcdan insan qatili idi və həqiqətə bağlı qalmadı; çünki onda həqiqət yoxdur. Yalan söylədiyi zaman özündən söyləyər; çünki o, yalançıdır və yalanın atasıdır» (Yəh. 8:44). Yalanın atasının kim olduğunu bilərək, bu toxumun övladımızın qəlbində necə böyüdüyünə sakitcə baxa bilmərik.

Dua edin ki, hər cür yalan ruhu uşağınızın və özünüzün qəlbindən çıxsın. Bəzi valideyinlər özləri də yalan danışdıqları üçün, yalana görə cəzanı yüngülləşdirirlər. Biz yalanı inkar edərək, həqiqət yolunu izləməliyik ki, övladlarımız üçün nümunə ola bilək. Biz həvari Yəhya kimi demək istəyirik: «Çox sevindim ki, sənin uşaqların arasında Atadan aldığımız əmrə uyğun olaraq, həqiqətə görə hərəkət edənlərə rast gəldim» (2 Yəh. 1:4). Biz istəyirik ki, övladlarımız yalanın atası ilə yox, Nurlar Atası ilə birlikdə olsunlar.

## *Dua*

***Ya Rəbb***, Sənə dua edirəm ki, mənim övladımı (uşağın adı) Öz Həqiqət Ruhunla doldurasan. Övladımda, düşmənlə əlaqənin işarəsi olan, hər cür yalanı inkar edən, həqiqəti sevib, onun ardınca gedən qəlb yarat. Dilə gətirdiyi və ya düşündüyü yalan vasitəsi ilə həyatına soxulan hər cür ölüm ruhundan onu azad et. Ona göstər ki, yalan onun qəlbinə, özüylə çaşqınlıq və Səndən ayıran, ölüm daşıyan iblisin girməsi üçün qapı açır. Onu hər cür yalan ruhundan azad et. Sənə yalvarıram ki, mənim övladım heç zaman yalanın köməyi ilə şeytan tərəfindən kor olub aldanmasın və Sənin həqiqətlərini həmişə aydın dərk etsin

Dua edirəm ki, oğlum (qızım) bütün sirlərin gec və ya tez aşkar olacağını bilərək, heç zaman, heç nəyi gizlətməsin. Əks halda qoy o, onu tövbəyə gətirən ağrı və kədəri hiss etsin ki, bu yalan onun özünə zərər vurmasın. Yalanın mənasını ona səbrlə izah etməyi və bu biliyi həyata keçirməyə ona kömək etməyi mənə öyrət. Sənin Sözündə deyilir: «O, yəni həqiqət Ruhu gəldikdə, sizə hər həqiqətə yol göstərəcək...» (Yəh. 16:13). Qoy Sənin həqiqət Ruhun mənim oğluma (qızıma) hər cür həqiqətə yol göstərsin və o, heç zaman yalançı olmasın. Lakin həqiqət Ruhunun ardınca gedərək, daxilən tam insan olsun.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Rəbb yalançı dilə ikrah edər, həqiqəti yerinə yetirənlərdən isə razı qalar.

*Sül. 12:22*

Kədərdən canım üzülüb, Öz sözünə görə mənə güc ver. Məni yalnış yola düşməkdən uzaqlaşdır, qanununa görə mənə lütfün göstər.

*Zəb. 119:28–29*

Qoy səni xeyirxahlıq və sədaqət tərk etməsin, onları boynuna bağla, ürəyinin lövhəsinə yaz. Onda Allahın və insanların gözündə lütf tapıb şərəfə çatarsan.

*Sül. 3:3–4*

O, qanunsuz adam, şeytanın fəaliyyətinə əsaslanaraq tam qüdrətlə, əlamətlər və yalançı xariqələrlə, və həlak olanları aldadan hər növ pisliklə gələcəkdir. Onlar həlak olurlar;çünki həqiqəti sevməyə və onunla xilas olmağa razı olmamışdılar.

*2 Sal. 2:9–10*

Əgər Məni sevirsinizsə, əmrlərimi yerinə yetirin. Mən də Atadan xahiş edəcəyəm ki, O, daim sizinlə bərabər olmaq üzrə sizə başqa bir Təsəlliverici versin. Bu, həqiqət Ruhudur; Onu dünya qəbul edə bilməz, çünki Onu görmür və tanımır: siz isə Onu tanıyırsınız, çünki O, sizin yanınızda durur və sizin daxilinizdə olacaqdır.

*Yəh. 14:15–17*

# 12 FƏSİL

# UŞAĞIN SAĞLAMLIĞI VƏ ŞƏFASI ÜÇÜN NECƏ DUA ETMƏLİ

Qızımın dörd yaşı olanda, həkimlər onda çox ciddi göz xəstəliyi aşkar etdilər. Onlar cərrahiyyə əməliyyatına təkid edirdilər və deyirdilər ki, o, cərrahiyyədən sonra da mütləq qalın linzalı eynək taxmalıdır.

Allaha duada müraciət edərək deyirdim: «Ya Rəbb, məgər, Sən mənim qızım üçün belə tale hazırlamısan? Məgər bu, mənim qəlbimdə sülh olmadığına və daim bunun üçün narahat olduğuma görəmi baş verdi?»

Həyat yoldaşımla birlikdə Amandanın şəfası üçün dua etməyə başladıq. Ehtiyac olarsa, bizə kömək edə bilən başqa bir həkim göstərməsini Rəbbdən xahiş etdik. Səhəri gün Amandanın xəstəliyi haqqında heç nə bilməyən tanışımız bizə zəng vurdu. O, bu ərazidə, Los-Ancelesdəki uşaq xəstəxanasında işləyən, çox yaxşı bir mütəxəssis haqqında məlumatı olduğunu bildirdi.

Mən Amandanı bu həkimin yanına apardım. Çox dəqiq müayinədən sonra, bizə çox möcüzəli xəbər verdi: məlum oldu ki, korreksiya edən linzalar bu problemi, cərrahiyyə əməliyyatı olmadan həll edə bilər. Təsəvvür edin ki, biz, o zaman nə qədər rahatlıq hiss etdik.

Biz razılaşaraq, Amandanı bu həkimə etibar etdik, lakin onun üçün duamızı da dayandırmırdıq.

Amanda çox ciddi həkim nəzarəti altında, səkkiz il bu kontakt linzalarını daşıdı. Əlbəttə ki, hər səhər onları taxmaq və hər gecə onları çıxarmaq əziyyətli bir iş idi. Neçə dəfə qızım onları itirdiyi üçün oyun meydançasına qaçıb, onları axtarmışam. Lakin biz, bütün bunlardan keçdik. Və bir gün, müntəzəm yoxlamadan sonra, həkim elan etdi: «Sənin artıq nə kontakt linzalara, nə də cərrahiyyə əməliyyatına ehtiyacın yoxdur. Sənin gözlərin tam qaydasındadır». Biz çox xoşbəxt idik və Allaha, Onun rəhbərliyinə və dualarımıza cavabına görə minnətdar idik.

Övladlarımız hansısa xəstəliyə tutulanda — soyuqdəymə, qrip və ya zədələnəndə biz həmişə onlar üçün dua edirdik və Rəbb bizi həmişə eşidirdi. Lazım olanda həkimə də müraciət etmişik, çünki Allah həkimlər vasitəsi ilə də şəfa verir. Lakin Müqəddəs Kəlam deyir: «Aranızda xəstə olan varmı? Qoy imanlılar cəmiyyətinin ağsaqqallarını çağırtsın. Onlar da Rəbbin adı ilə üzərinə yağ sürtərək, onun üçün dua etsinlər. Və imanlı dua xəstəni xilas edər. Rəbb onu ayağa qaldırar…» (Yaq. 5:14-15). Həmişə dua ilə başlamalıyıq, əgər lazım gələrsə, həkimə də müraciət etmək olar. Lakin şəfa alan zaman heç vaxt şübhə etməyin.

Kitabın əvvəlində danışdığı kimi, bizim oğlumuz avtomobil qəzasına düşəndə, onun kürəyi və dizləri bərk əzilmişdi. Biz, yubanmadan onun tez sağalması üçün dua etməyə başladıq. Eyni zamanda xəstəxanada onun tam tibbi müainəsinin də qayğısına qaldıq. Biz onun tam şəfası üçün dua etməyə başladıq. Çünki, onun belindəki və dizindəki ağrının onun həyatını korlamasını istəmirdik. Qəzada günahkar olan avtomobil, sığorta şirkətindən bizə zəng vurub, dəymiş zərərin kompensasiyasını ödəmək istəyəndə, birdən Müqəddəs Kəlamdan olan bu yeri aydın eşitdim: «Mən səni yenə sağaldacağam, yaralarına şəfa verəcəyəm» (Yer. 30:17). Artıq oğlumun sağlam olduğuna əmin olduğum üçün, kompensasiyadan imtina etdim. Elə bil ki,

Rəbb məndən soruşdu: «Sənə pul, yoxsa şəfa lazımdır?». Tərəddüd etmədən cavab verdim: «Ya Rəbb, mənə şəfa lazımdır və buna görə Sənə minnətdaram».

Əlbəttə ki, sığorta pulunu almağa razılıq vermək, imanın az olduğunu bildirmir. Lakin bu vəziyyətdə biz kompensasiyadan imtina etməklə, düzgün iş gördük. Əgər, Allah bizim dualarımıza görə şəfa verirsə, biz özümüzü şəfa almayıbmış kimi apara bilmərik.

Müqəddəs Kəlam şəfa vədləri ilə doludur. Davud deyir: «Rəbbə alqış et, ey könlüm, unutma etdiyi yaxşılıqları: odur bütün təqsirlərini əfv edən, bütün xəstəliklərinə şəfa verən» (Zəb. 103:2-3). İsa bizim günahlarımızı bağışlayan və bədənimizə şəfa verən Rəbbimiz olmaq istəyir.

Gəlin övladlarımızın sağlamlığı və şəfası üçün, bu ehtiyac baş verməmişdən öncə Rəbbə dua edək.

## *Dua*

***Ya Rəbb***, Sən Öz kəlamında bizə tapşırırsan ki, bir-birimizə şəfa üçün dua edək. Ona görə də, övladımın sağlamlığı və şəfası üçün Sənə dua edirəm. Dua edirəm ki, heç bir azar, heç bir xəstəlik onun həyatını korlamasın. Onu hər cür xəstəlikdən qoru. Sənin Sözündə deyilir: «Kəlamını göndərib onlara şəfa verdi, məzara düşməkdən onları xilas etdi» (Zəb. 107:20). Xəstəlik oğlumun (qızımın) bədəninin hansı hissəsində gizlənirsə — gizlənsin, Ya Rəbb, xahiş edirəm; Öz Əlinlə ona toxun və şəfa ver. Oğlumu (qızımı) tamamilə sağalt.

Onu xəstəliklərdən və zədələrdən qoru. Xüsusilə də şəfa üçün dua edirəm (xəstə orqanın adını çəkin). Əgər həkimə müraciət etməli olsaq, etibar edə biləcəyimiz mütəxəssisi

bizə göstər. Ona müdriklik və müalicə üsulları və yolları haqqında kamil bilik ver.

Ya Rəbb, Sənə minnətdaram ki, Sən mənə görə əzab çəkib, ölmüsən ki, biz xilas olaq. Səndən xahiş edirəm ki, Öz Kəlamında imanlılara verdiyin vədi yerinə yetirəsən. Mənim övladıma tam şəfa və möhkəm sağlamlıq verəsən.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Bizim asiliyimizə görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün O, cəza aldı, Onun yaraları ilə biz şəfa tapdıq.

*Yeş. 53:5*

Beləliklə, günahlarınızı bir-birinizə etiraf edin və bir-biriniz üçün dua edin ki, şəfa tapasınız. Saleh adamın duası çox güclü və təsirlidir.

*Yaq. 5:16*

Ancaq adama hörmət edən sizlər üçün şüalarında şəfa olan salehlik günəşi doğacaq. Tövlədən buraxılan danalar kimi oynayacaqsınız.

*Mal. 4:2*

Ona görə ki, Siz bunun üçün çağrıldınız. Çünki Məsih də bizə bir nümunə qoyaraq, bizim üçün iztirab çəkdi ki, biz Onun izləri ilə gedək. O Özü bizim günahlarımızı Öz bədənində çarmıxda daşıdı ki, biz günah etibarı ilə ölüb, salehlik üçün yaşayaq. Siz onun yaraları ilə şəfa tapdınız.

*1 Pet. 2;21,24*

Onda şəfəq kimi nurunuz saçacaq, tezliklə şəfa tapacaqsınız, qarşınızda salehliyiniz gedəcək, Rəbbin izzəti sizə arxa olacaq.

*Yeş. 58:8*

## 13 FƏSİL

# UŞAĞA BƏDƏNİNİN QAYĞISINA QALMAĞI NECƏ ÖYRƏTMƏLİ

Əgər övladlarımızı bu dünyada konservləşdirilmiş və qeyri-təbii ərzaqların əhatəsində tək qoysaq, əlbəttə ki, onlar düzgün qidalanmayacaqlar. Yediyimiz ərzaqların əksəriyyəti neçə dəfə təmizlənir, nə qədər şey əlavə olunur, nə qədər şey götürülür ki, bu qidaların qida dəyərindən də danışmağa dəyməz. Lakin uşaqları belə şeylər maraqlandırmır. Bu cür qidalar onların xoşuna gəlir, çünki bu qidalar gözə xoş görünür, gözəl ətri və yaxşı dadı var, hətta hər yerdə reklam da edilirsə, demək olar ki, iş həll olunub. Əgər sizin əriniz, mənim ərim Maykl kimi, belə ərzaqları sevir, onları özü və uşaqları üçün evə gətirirsə, bizim həyatımız çox çətinləşir. Bir dəfə evə dönəndə, atasının nəzarətində qoyduğum on aylıq oğlumun şüşəsində kola suyunu görən zaman, necə dəhşətə gəldiyimi xatırlayıram. O zaman başa düşdüm ki, bu vəziyyətdən çıxış yolu ancaq duadır.

Ailəmə sağlam qidalanmağı öyrətmək və uşaqlara düzgün qidalanmaq vərdişini aşılamaq üçün, əlimdən gələni edirdim. Mən onlarla mübahisə edib, nə olursa-olsun haqlı olduğumu sübut etməyə hazır idim.

«Buna dözə bilmirəm. Ancaq bizim evdə normal qida yoxdur» — deyə oğlum səsində nifrətlə bildirdi. «Bizdəki qidalar o qədər sağlamdır ki, ürəyim bulanır» — deyə qızım gözündə yaşla oğlumun sözünə əlavə etdi. İnanırdım ki, «quru bir loğması olan dinc ev, münaqişəli olan ziyafət dolu evdən yaxşıdır» (Sül. 17:1). Mən özümü saxlamağa və emosiyalarıma yer verməməyə çalışırdım. Başa düşürdüm ki, əgər daim onların yanında olub, bunu onların yadına salmasam, düzgün qidalanmağı onlara öyrədə bilməyəcəyəm. Bu vəziyyəti ancaq, dua vasitəsi ilə hərəkət edən Allahın gücü dəyişə bilərdi.

Demək olar ki, bütün insanlar bədənlərinə düzgün qulluq etmək xüsusunda çətinliklərlə üzləşirlər. Sağlamlıq barəsindəki kitablarım və mənim tərəfimdən hazırlanmış fiziki məşqlər videokursunun sayəsində, bu problemlə üzləşib dərin ümidsizlik və kədər içinə düşən çoxsaylı insanlarla tanış oldum. Övladlarımın həyatda bu cür problemləri olmaması üçün, onları duada dəstəkləmiriksə, istiqamətləndirmiriksə, onlara sağlam vərdişlər izah edib, başa salmırıqsa, onlara çox pis xidmət etmiş oluruq. Əgər övladlarımız hələ balacadırsa, indidən dua etməyə başlayın ki, onlar sağlam qidanı və fiziki məşqləri çox sevsinlər və bədənlərinin qayğısına düzgün qalmağı öyrənsinlər. Əks halda, yeniyetmə dövründə onlarda çox pis vərdişlər formalaşa bilər və bu zaman nəyi isə dəyişmək gec ola bilər. Qızların və oğlanların, yeniyetmə və tələbə dövrlərinə nəzər salsaq, buna əmin ola bilərik. Ona görə də, nə qədər gec deyil dua etməyə başlayın. Əgər sizin övladınız artıq böyükdürsə, müəyyən vaxtda da olsa dua etməyi dayandırmayın. Hədsiz iştahdan və ya əksinə iştahsızlıqdan əziyyət çəkən bir çox gənc qadınlar, nəyinki öz cismani istəkləri ilə vuruşur, həm də ruhani mübarizə aparırlar. Bədbəxtlik də ondadır ki, bunlardan bir çoxu həddindən artıq yemək vərdişinə qul olurlar, bu da Allah təliminin nöqteyi nəzərindən qəbul edilməzdir və ruhani həyatı təşkil edən prinsiplərin əksinədir. Bu çatışmamazlıqla əziyyət çəkən çox qadın tanıyıram. Xoşbəxtlikdən dua edən valideynlərə malik olan bəziləri, tez-tez özlərinə necə qalib

gəldikləri haqqında şəhadətçilik edirlər. Bunlar qədər uğurlu olmayan başqaları isə çətin vəziyyətlərə düşüblər.

Övladınızın öz bədəninin qayğısına düzgün qalması üçün Müqəddəs Ruhun rəhbərliyi və gücü lazımdır. Sizin dualarınız ona məğlubiyyətdən, kədərdən və depresiyadan qaçmağa kömək edəcək. Məgər siz təəssüflənmirsiniz ki, sizin üçün vaxtı ilə heç kəs dua etməyib? Mən təəssüflənirəm.

## Dua

***Ya Rəbb***, oğlum üçün dua edib Sənə yalvarıram; onun qəlbinə sağlam qidalanma istəyi qoy. Bilirəm ki, oğlum (qızım) bütün həyatı boyu, həyat yox, ölüm gətirən faydasız qidalardan istifadə edəcək. Nəyin xeyirli və nəyin ziyanlı olduğunu dərk etməyə ona kömək et: sağlam qidaları bəyənib, keyfiyyətsizlərdən uzaqlaşsın.

Səndən xahiş edirəm, övladımı müxtəlif tarazlaşdırılmamış pəhrizlərdən qoru. İsa Məsihdə mənə verilən hakimiyyətlə (Luk. 10:15-ə bax) onun üçün vəsadətçilik edir və hər cür pis vərdişə, hər cür qida asılılığına, hər cür doymamazlığa, hər cür aclığa və nizamsız qidalanmaya «yox» deyirəm.

Ya Rəbb, Sən, Öz Sözündə deyirsən: «siz həqiqəti dərk edəcəksiniz; və həqiqət sizi azad edəcəkdir» (Yəh. 8:32). Necə yaşamaq haqqında həqiqətlərini ona aç ki, pis vərdişlərdən azad olsun. Dua edirəm ki, müntəzəm fiziki məşğələlərlə bərabər, çoxlu saf su içmək və Sənin əmrlərini izləyərək, bütün çətinliklərə qalib gəlmək istəyini onun qəlbinə qoyasan. Qoy hər bir çətin vəziyyətdə Sənə bu sözlərlə müraciət etsin: «Ya Rəbb yolunu mənə öyrət…» (Zəb. 26:11). Ona aç ki, onun bədəni Müqəddəs Ruhun məbədidir.

Dua edirəm ki, oğlum (qızım) Sənin ona verdiyin bədəni qiymətləndirsin, qorusun və qayğısına qalsın. Qoy o, öz bədəninə tənqidi yanaşmasın və özünü ümumi fikir və anlayış nöqteyi — nəzərindən tədqiq etməsin. Dua edirəm ki, övladım, onu hansısa dəbdə olan ideyaların ardınca getməyə məcbur edən günah, dünyəvi jurnallar, televiziya və kinoya bağlılıqdan azad olsun. Qoy o, desin: «Qoyma gözlərim fani şeylərə baxsın» (Zəb. 119:37). Qoy o, dərk etsin ki, həqiqi cazibədarlıq Sənin Müqəddəs Ruhundadır. Qoy o, dərk etsin ki, həqiqi gözəlliyin mənbəyi — Allahı sevən ürəkdədir.

Qoy o, öz sağlam həyat tərzi və fiziki cazibədarlıq təsəvvürlərini Sənin təlimin əsasında formalaşdırsın. Öz bədəninə Müqəddəs Ruhun məbədi kimi, qayğı göstərməsi üçün ona, güclü istək ver.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Məgər bilmirsiniz ki, bədəniniz, Allahdan aldığınız və sizdə yaşayan Müqəddəs Ruhun məbədidir və siz özünüzə məxsus deyilsiniz? Çünki siz çox baha qiymətə alınmısınız. Buna görə Allahınkı olan bədəninizlə və ruhunuzla Allahı izzətləndirin.

*1 Kor. 6:19–20*

Kim Allahın məbədini məhv edərsə, Allah onu məhv edəcəkdir. Çünki Allahın məbədi müqəddəsdir; bu məbəd isə sizsiniz.

*1 Kor. 3:17*

Beləliklə, ey qardaşlar, Allahın mərhəməti naminə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs, Allaha məqbul qurban kimi təqdim edin; mənəvi ibadətiniz budur.

*Rom. 12:1*

Əksinə, Rəbb İsa Məsihlə silahlanın və cismani təbiətinizin ehtiraslarını razı salmağı düşünməyin.

*Rom. 13:14*

Beləliklə, yeyirsinizsə, içirsinizsə, nə edirsinizsə, hər şeyi Allahın izzəti üçün edin.

*1 Kor. 10:31*

## 14 FƏSİL

# UŞAQDA OXUMAQ VƏ ALLAHI TANIMAQ ARZUSUNU NECƏ OYATMAQ OLAR

Dərslərimin öhdəsindən asanlıqla gəlməyimə baxmayaraq, məktəb illəri mənim üçün çətin psixoloji sınaq idi. Bu səbəbə görə də mən, övladlarımın məktəbdə müvəffəqiyyət qazanmaları üçün heç vaxt dua etmirdim. Bu, bizim övladlarımızdan birində disleksiya (oxumaq bacarığına malik olma qabiliyyətinin pozulması) diaqnozu təyin edilənə qədər davam etdi. Bizim övladımız çox qabiliyyətli və bacarıqlı olduğu üçün dərslərində problem yarana biləcəyi fikri, mənim heç ağlıma gəlməmişdi. Övladlarımızın məktəbdə təlim prosesi, həyat yoldaşımla mənim üçün sonsuz mübarizə olsa da, onun təlim sahəsindəki problemləri bizim üçün bəlli olan və tibbi müayinə tərəfindən təsdiq edilən günə qədər övladımızla nə baş verdiyini başa düşmürdük.

Bununla əlaqədar çox həyəcanlar yaşamağımıza baxmayaraq, dua həmişə bizim dayağımız idi. Həyat yoldaşım, mən və bizim imanlı dostlarımız, həm bizim övladımızın tamamilə sağalması üçün, həm də Rəbbin bizə təsəlli verməsi və övladımızın nadirliyinin təzahür etdiyini görməyi bizə öyrətməsi üçün dua etməyi davam edirdilər.

Bizim hər birimizin çatışmayan cəhətlərimiz var. Xoşbəxtlikdən Allah, bizim zəifliklərimizi Öz qüvvəsilə bərpa edir. Müqəddəs

Yazılar deyir: «Ona görə yox ki, bir şeyi öz müvəffəqiyyətimizmiş kimi düşünməyə özümüzdə qabiliyyət vardır; yox, bizim qabiliyyətimiz Allahdandır» (2 Kor. 3:5). Bu vəd icra olundu: Allah, övladımızın məktəbi müvəffəqiyyətlə başa çatdırmasına kömək etdi, biz isə bu illər ərzində həqiqi biliyin və müdrikliyin bizə Rəbb tərəfindən verildiyinə əmin olduq.

Müqəddəs Kitab bizi öyrədir ki, Allahı dərk etmək Onun qarşısında ehtiramdan və Onun yollarından başlanır. Əgər biz, Onun sözlərinə qulaq asır və Onun əmrlərini ürəyimizdə saxlayırıqsa, əgər Onun yollarını düzgün başa düşməyə çalışır və bunda bizə kömək etməsini Ondan xahiş ediriksə, əgər müdrikliyi, gizlədilmiş xəzinəni axtardığımız səbirsizliklə axtarırıqsa, o zaman Allahı dərk etmiş oluruq (Sül. 2:1-12-yə bax). Lakin Allahın bu idrakı nə qədər dərk edilməzdir! O, o qədər böyükdür ki, bizi pislikdən qoruyan qalxana bənzəyir.

Uşağın dərs oxumaq bacarıqları və bilik əldə etmək səyləri onun anadangəlmə keyfiyyətləri deyil. Buna görə də, biz övladımız üçün o, hələ ana bətnində olarkən dua etməliyik: «Ya Rəbb, qoy bu uşaq Sənin tərəfindən güclü ağlın və sağlam bədənin kamil birliyində toxunsun. Sən isə onun əbədi Müəllimi ol». Biz bu haqda nə qədər tez dua etsək, o qədər yaxşıdır. Və övladınızın neçə yaşı olmasının fərqi yoxdur — sizin dualarınız onun həyatında çox şeyi qəti surətdə dəyişdirməyə qadirdir.

## *Dua*

***Ya Rəbb***, dua edirəm ki, mənim övladım Sənin qarşında və Sənin yollarında dərin ehtiramda yaşasın. Qoy o, Sənin sözünü qəlbində bir xəzinə kimi qorusun. Qızılı, yaxud gümüşü necə axtarırlarsa, biliyi və müdrikliyi elə axtarsın. Ona saf ağıl, bilik ruhu və dərs oxumaq qabiliyyəti ver. Onun

qəlbinə dərs oxumaq, bilik və bacarıq əldə etmək istəyi ver və qoy onu bu yolda sevinc müşaiyət etsin. Lakin ən əsas duam odur ki, mənim övladım Səndən öyrənsin. Çünki Sənin Sözündə deyilir ki, bizim övladlarımız Səndən öyrənəndə, öz ürəklərində sülh tapırlar. Müqəddəs Yazılarda deyilir: «Rəbb qorxusu bilik mənbəyidir, amma səfehlər hikmət və tərbiyəyə xor baxar» (Sül. 1:7). Qoy mənim övladım, heç zaman öyrənməkdən üz çevirən axmaq olmasın, lakin möhtac olduğu bilik üçün Sənə müraciət etsin.

Mən dua edirəm ki, övladım (uşağın adı) ata və anasının müdrikliyinə hörmət etsin və onun həyatına Sənin tərəfindən gətirilən müəllimlərdən öyrənmək istəsin. Ya Rəbb, xeyir-dua ver ki, onlar həmişə imanlı və saleh insanlar olsunlar və mənim övladıma yaxşılığı öyrətməyi bacarsınlar. Qoy onun həyatında, uşaqları Sənin yollarından aparan və öz müəllimlik borcunu yerinə yetirməyən müəllimlər olmasın. Mənim övladıma (uşağın adı) müəllimlərlə yola getməyi öyrət ki, onlarla həmişə yaxşı münasibəti olsun. Məktəbdə bütün dərslərindən uğur qazanmasında ona kömək et. Bilik əldə etməsinə əngəl olan hər bir maneəni onun yolundan uzaqlaşdır ki, dərs oxumaq onun üçün ağır mübarizəyə və çətinlikləri dəf etməyə çevrilməsin. Ona təmiz zəka, yaxşı yaddaş ver və öz dərs prosesini, məntiqlə təşkil etmək üçün mənim oğluma (qızıma) kömək et. Qoy o, bacarıqlı şagird olsun.

Mən övladıma Sənin Kəlamına əsasən deyirəm: «Qəlbini tərbiyəyə, qulaqlarını bilik sözlərinə ver» (Sül. 23:12) və «Rəbb hər şeydə sənə dərrakə verəcəkdir» (2 Tim. 2:7). Ya Rəbb, Səni və Sənin Kəlamını dərk etməyin sevincini hiss etməkdə ona kömək et.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Bütün övladlarını Mən Rəbb öyrədəcəyəm,
onlar tam sülh içində olacaq.

*Yeş. 54:13*

Qoy hikmətli qulaq asıb müdrikliyini artırsın, dərrakəli adam sağlam məsləhət alsın.

*Sül. 1:5*

Xalqım biliksizlikdən məhv oldu. Sən biliyi rədd etdiyin üçün Mən də səni rədd edəcəyəm ki, bir daha Mənə kahinlik etməyəsən. İndi ki, öz Allahının qanununu unutdun, mən də sənin balalarını unudacağam.

*Huşə 4:6*

Aldığın tərbiyəyə bağlan, ayrılma, onu saxla, o, sənin həyatındır.

*Sül. 4:13*

Oğlum, əgər sözlərimi qəbul etsən, əmrlərimi qorusan, qulağını hikmətə tərəf çevirsən, sən, həqiqətən, idrakı çağırsan, səs ucaldıb dərrakəni səsləsən, bunları gümüş kimi axtarsan, gizli xəzinə kimi arasan, onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan.

*Sül. 2:1–5*

## 15 FƏSİL

# UŞAĞIN BACARIQ VƏ QABİLİYYƏTLƏRİNİ — ALLAHIN ƏNAMLARINI NECƏ MÜƏYYƏN ETMƏLİ

Övladlarım doğulan kimi onlara verdiyi qabiliyyətləri mənə göstərməsi və o qabiliyyətlərin Allahın izzəti üçün, daha yaxşı inkişafına kömək etməsi üçün Rəbbə dua etməyə başladım. Bizim övladlarımız hələ körpə ikən onların musiqi qabiliyyətləri olduğu aşkar oldu. Övladlarımızın istedadlarının inkişafdan qalmaması üçün necə hərəkət etməli olduğumuzu həyat yoldaşımla mənə göstərməsi üçün Rəbbə dua etdim.

Kristoferin dörd yaşı olanda, biz ona fortepianoda çalmağı öyrətdik və onun bu sahədə bacarıqları üzə çıxdı. Lakin, bir neçə ildən sonra onun musiqi dərslərinə marağı itdi. O zaman Allah mənə başa saldı ki, övladımın istedadını boğmağa mənim haqqım yoxdur. Buna görə də mən qərar qəbul etdim: altı yaşlı oğlumun hər musiqi dərsinə 25 sent ödəyəcəyəm. Heç şübhəsiz ki, bu qərar mənə Müqəddəs Ruh tərəfindən verilmişdi. Çünki o vaxtdan Kristoferin on iki yaşı tamam olan günə qədər bir daha fortepiano dərsləri haqqında şikayət eşitmədim. O zaman mən hiss etdim ki, o, çoxdan arzuladığı zərb alətlərində çalmağı öyrənməlidir. Bu dəfə oğlumdan musiqi dərslərinə diqqət verməyi xahiş etmək lazım gəlmədi, hər şey əksinə idi!

İndi Kristofer elektron dilli musiqi alətlərində, zərb alətlərində, bas-gitarada çalır, lakin mahnılarına, musiqini indiyə qədər fortepianoda bəstələyir. O, fortepianoda aranjirovkalar da edir. Müəllimləri onun musiqi uğurlarını, uşaqlıqda heç şübhəsiz Allahın iradəsilə təşkil olunmuş dərslərdə aldığı dərin biliyi ilə izah edirlər.

Mən Müqəddəs Ruhun rəhbərliyini qızımızın vokal bacarıqlarını inkişaf etdirəndə də hiss etmişdim. Düşmən bizim övladlarımızın istedadlarından özünü izzətləndirmək üçün istifadə etməyə və ya heç olmasa, onların Allahın izzəti üçün istifadəsinə mane olmağa çalışır. Buna görə də, biz bu problem üçün dua etməliyik. Övladlarımızın istedadları üçün dua bizdən səbirli olmağı tələb edir, ona görə ki, bu məqsədə tezliklə çatmaq olmur.

Mənim övladlarımın həyatlarında müasir musiqi incəsənəti, özünün bütün ləyaqətsiz atributları — geyimləri, bəzi musiqiçilərin həyat tərzləri ilə birlikdə onları cəlb etdiyi dövrlər (12-14yaş) olmuşdu. Mən və həyat yoldaşım bilirdik ki, biz övladlarımızla deyil, iblislə mübarizə aparırıq. Biz həmçinin onu da bilirdik ki, onların maraqları barədə öz qəti sözümüzü deməliyik və icazə verilənin sərhəddini, xüsusilə, onlara qulaq asmağa icazə verdiyimiz musiqi əsərlərinin ölçüsünü müəyyən edən qayda qoymalıyıq. Bu o demək deyil ki, onlara müasir musiqiyə qulaq asmağı qadağan etmişdik; biz sadəcə bilirdik ki, onların etdikləri hər bir şey «Allahın izzəti üçün» (1 Kor. 10:31) edilməlidir. Çünki Allah onları bunun üçün çağırmışdı.

Biz dua edirdik ki, övladlarımızın gözləri dünyanın cazibələrindən dönsün və Allahın onlar üçün müəyyən etdiyi məqsədə cəmlənsin. Biz Rəbbə yalvarırdıq ki, övladlarımızın daxil olmalı olduqları bütün qapılar açıq olsun və onların daxil olmamalı olduqları bütün qapılar bağlı olsun. Biz dəfələrlə öz dualarımıza cavablar almışdıq. Məsələn, bir dəfə Kristoferi müxtəlif musiqi qruplarında bir neçə qastrol səfərlərində iştirak etmək üçün dəvət etmişdilər. Həyat yoldaşımla mənim qəlbim narahat idi və biz oğlumuzun bu hərəkətinin düzgün olmasına şübhə edirdik. 18 yaşı tamam olanda, onu məsihçi

musiqisi üzərində ixtisaslaşmış «Sparrow Records» səsyazan şirkəti üçün mahnılar yazmağa və aranjirovkalar etməyə dəvət etdilər. O vaxt orada mədh himnlərindən ibarət albom çıxartmağa hazırlaşırdılar. Bu dəfə həyat yoldaşımla mən dəqiq bilirdik ki, bu təklif Kristoferin musiqi istedadından Rəbbin izzəti üçün istifadə etməsi haqqında olan dualarımıza Allahın cavabı kimi gəlib. Lakin biz, bununla dua etdirməyi dayandırmadıq. Biz, musiqi biznesinin səhnə arxasındakı həyatını yaxşı bilirdik və qastrol həyatının günah və həvəslərinin gənc məsihçi üçün təhlükəli olduğunu həmin an aydın dərk edirdik. Buna görə də biz, Kristofer üçün bu gün də dua edirik ki, o, Allahdan aldığı qabiliyyətə sadiq qalsın və bu qabiliyyəti Onun izzətlənməsi üçün istifadə etsin.

Allah sizin övladınıza hansı ənam və qabiliyyətləri verib? Hətta siz onları görmürsünüzsə də, onlar hamıda var, çünki «hər kəsin Allahdan öz ənamı vardır — birininki belə, digərininki başqa cür» (1 Kor. 7:7). Bəzən onların üzə çıxması üçün valideyn duası kömək edir.

Allah sizin övladınızın gələcək həyatının gözəlliyinin sirrini açdıqda, onun həyata keçməsi üçün dua edin. Müqəddəs Kitab deyir: «İşində mahir olanı görürsənmi? Sıravi adamların deyil, şahların hüzurunda dayanar» (Sül. Məs. 22:29). Allahdan xahiş edin ki, övladınıza yuxarıdan verilmiş istedadı inkişaf etdirmək üçün kömək etsin və öz oğlunuza (qızınıza) onun bu dünyada böyük təyinatı var.

Hər bir uşağın istedadı var, biz dua etməliyik ki, o öz vaxtında açılsın, inkişaf etsin, Rəbbin izzətinin artması üçün istifadə edilsin.

## *Dua*

***Ya Rəbb***, mən Sənin qarşına övladımın ənamları və istedadları üçün vəsadətlə gəlirəm. Sənə yalvarıram: onları görməyə və Sənin izzətin üçün istifadə etməyə kömək et.

Mənə və oğluma (qızıma) onun ənamlarını aç və onların inkişafı üçün konkret nə etmək lazım olduğunu göstər. Bu qabiliyyətləri Sənin göstərdiyin istiqamətdə, Sənin təyin etdiyin vaxtda inkişaf etdirmək üçün bizə kömək et.

Sənin Kəlamın «ilahi lütfə görə» (Rom. 12:6) bizə verilən müxtəlif qabiliyyətləri üzə çıxartmağı əmr edir. Mənim övladım onda olan qabiliyyətlərin Sənin ənamın olduğunu başa düşəndə, qoy heç bir şey: nə qorxu, nə özünü qiymətləndirməmək, nə özünə əminsizlik — onları Sənin izzətin üçün istifadə etməyə mane olmasın. Qoy o, öz təyinatını axtarmaq üçün vaxt sərf etməmək və yaxud ümumiyyətlə həyatın mənasını itirməmək üçün Səni eşitsin və çağırıldığı işi yerinə yetirsin. Qoy onun qabiliyyəti boş yerə sərf edilməsin və yaxud Sənin izzətin üçün istifadə edilməmiş olsun.

Sənə yalvarıram: həyatının əsas işinin nə olduğunu ona aç və bu işdə uğur qazanmasında ona kömək et. Onun əlinin işinə xeyir-dua ver, yaşayışı üçün sevdiyi işlə qazanc əldə etməsi üçün bacarıq ver.

Sənin Kəlamında deyilir: «İnsanın hədiyyəsi ona yol açar, böyük adamların hüzuruna aparar» (Sül. 18:16). Qoy onun əməyi insanlar tərəfindən layiqincə qiymətləndirilsin. Lakin dua etdiyim əsas odur ki, mənim övladımı xeyir-dualandırdığın ənam və qabiliyyətləri tamamilə Sənin izzətin üçün xidmət etsin.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Çünki Allahın ənamları və dəvəti geri alınmazdır.

*Rom. 11:29*

Hər birimizə isə lütf Məsihin ehsanının ölçüsü ilə bəxş edilmişdir.

*Efes. 4:7*

Hər kəs, Allahın çoxcəhətli lütfünün təsərrüfatçısı kimi,
aldığı ənam ilə bir-birinə xidmət etsin.

*1 Peter 4:10*

Hər bir yaxşı bəxşiş və şər kamil hədiyyə yuxarıdan,
nurlar Atasından gəlir. Onda dəyişiklik var, nə də dönüklük kölgəsi.

*Yaqub 1:17*

Allahın Məsih İsada sizə bəxş etdiyi lütf üçün durmadan haqqınızda
Allahıma şükr edirəm; ona görə ki, siz hər cür nitqdə və hər cür
bilikdə, bir sözlə hər şeydə Onun vasitəsilə zəngin oldunuz.
Çünki Məsih haqqındakı şəhadətimiz sizdə möhkəmləndi.
Belə ki, siz Rəbbimiz İsa Məsihin zühurunu gözləyərkən,
heç bir ruhani ənamda əskikliyiniz yoxdur.

*1 Kor. 1:4-7*

## 16 FƏSİL

# UŞAĞA HƏYAT SÖZLƏRİ DEMƏYİ NECƏ ÖYRƏTMƏLİ

Bir dəfə mən oğlumun məktəbdən qayıtdıqdan sonra bir neçə ədəbsiz sözlər dediyini eşitdim. «Bunlar yaxşı sözlər deyil, — mən ona dedim. — bunları deməməli olduğunu bilirsənsə, bu sözləri necə deyirsən? Məgər bilmirsən belə danışmaq olmaz?» «Məktəbdə hamı belə danışır», — deyə oğlum cavab verdi. «Əgər başqaları pis hərəkət edirsə, sən də onlar kimi edəcəksən?» — mən soruşdum. Sonra mən qəfildən, Rəblə görüşdən əvvəl istifadə etdiyim və Müqəddəs Ruh tərəfindən təmizləndiyim bir neçə söyüş sözləri işlətdim.

Oğlum gözlərində dəhşətli ifadə ilə mənə baxaraq çığırdı: «Ana! Sən nə danışırsan!» «Axı başqaları da belə danışır, — mən cavab verdim. — Bunu məndən eşitmək sənin xoşuna gəlmir?» «Bu, dəhşətdir», — cavab gəldi. «Bilirsən, — mən davam etdim, — mən belə dildə istədiyim vaxt danışa bilərəm, ancaq istəmirəm. Mənim sözlərim səni, sənin ruhunu təhqir edir. Sən belə sözlər deyəndə onlar mənim ruhumu təhqir edir. Təsəvvür et ki, Allahın Ruhu bizdən belə sözlər eşidəndə nə hiss edir. Bizim seçimimiz var: öz dodaqlarımızla Müqəddəs Ruhu ya kədərləndirək, ya da Onu izzətləndirək.

Allah bizi istənilən vəziyyətdə sevir, lakin biz birinci xeyir-dua alırıq, ikinci isə məyus oluruq».

Mən o vaxtdan etibarən, Kristoferin yetkinlik dövrünə qədər bir dəfə də olsun ondan ədəbsiz sözlər eşitmədim. Həmin gün Kristoferlə mənim aramda yenə söhbət oldu və mən əminəm ki, o, bu söhbəti indiyə qədər xatırlayır.

Mən başa düşürəm ki, istifadə etdiyim tərbiyə metodu istənilən adama toxuna bilər. O, mənə də toxunmuşdu və mən Allaha dua etdim ki, o sözləri deyərkən  yapışan çirkdən məni təmizləsin. Lakin onlar heç cür mənim başımdan çıxmırdı. Mən yalnız malik olduqları dağıdıcı gücü nümayiş etdirmək üçün onlardan istifadə etmişdim. Mən heç kimə hər hansı vəziyyətdə bu metodu tətbiq etməyi məsləhət görmürəm, onu, yalnız bizim sözlərimizdə olan qüvvəyə parlaq misal kimi göstərirəm.

Biz özümüz öz ətrafımızda sülh yaradırıq. Bizim sözlərimiz qüvvəyə malikdir və bu səbəbdən onlar ölüm və yaxud həyat gətirə bilərlər. Müqəddəs Kitab xəbərdar edir ki, bəzi sözlər bizim həyatımızda böyük problemlər və xoşagəlməz hadisələr yaradır, digərləri isə bizi onlardan qoruyur. Sözlər, hətta bizim həyatımızı xilas edə bilər. Yazılar xəbərdar edir: «Səfeh lovğa sözlərinə görə kötək qazanar, hikmətlinin dili onu qoruyar» (Sül. Məs. 13:3). Allaha dua etməliyik ki, bizim və övladlarımızın dodaqlarını qorusun.

«Məndə yaxşı heç nə yoxdur», «Ölsəm yaxşı olar», «Həyat dəhşətdir», «İnsanlar dəhşətdir», «Mən heç nəyə yaramıram» kimi Allaha məqbul olmayan sözlər göstərir ki, onların çıxdığı ürək Müqəddəs Ruhla dolu deyil — o, qaranlığa bürünmüşdür. Bu, iblisin tələləridir. Əgər siz övladınıza öz danışığını idarə etməyi öyrətməsəniz, bu, onun həyatında bütün pisliklərin kökü olacaqdır.

Müqəddəs Kitab öyrədir ki, əgər biz Rəbbin ardınca gediriksə, dediyimiz hər boş sözə görə məsuliyyət daşıyırıq. Biz yerdəki həyatımızda tez-tez sərt cəzalara məruz qalırıq. Mən belə düşünürəm ki, iradəmizin gücü ilə asanlıqla öhdəsindən gələ biləcəyimiz bir

şeydən ötəri bu qədər baha qiymət ödəməyə dəyməz. Biz öz dodaqlarımızla, ətrafımızda məhəbbət, sevinc və sülh yaya bilər və yaxud əksinə, düşmənçilik səpər, nifrət yarada bilərik.

Biz istəyirik ki, övladlarımızın dodaqları həyat sözləri desin. Əlbəttə, bu o demək deyil ki, onlar öz mənfi emosiyalarını gizlətməlidirlər. Sadəcə olaraq, onların ifadə etdikləri sözlər dağıtmaq xatirinə deyil, şəfa almaq xatirinə Allahı dərk etməyə, Onun qarşısında tövbəyə və təvazökarlığa gətirməlidir.

Bizim övladlarımızın dodaqlarından çıxan sözlər onların özlərinə, ətrafdakılara, həyatlarının şəraitinə mənfi təsir göstərirsə, onda biz onları Allahın Sözünə istiqamətləndirməliyik ki, özləri oradan həyat sözləri götürsünlər. Danışığı dəyişməyin ən yaxşı üsulu — ürəyi dəyişməkdir, çünki «ağız ürəkdən gələni söylər» (Matta 12:34). Müqəddəs Ruhla və Allah Kəlamının həqiqəti ilə dolu ürəkdən Allaha məqbul, deyənlərə və eşidənlərə həyat bəxş edən sözlər çıxır. Bizim duamız məhz bundan başlamalıdır.

## *Dua*

***Ya Rəbb***, dua edirəm ki, mənim övladım (uşağın adı) Səni izzətləndirən sözlər demək istəsin. Onun ürəyini Öz Ruhunla və həqiqətinlə elə doldur ki, onun dodaqlarından ölüm deyil, həyat sözləri çıxsın. Elə et ki, hər cür boş, mənfi, pis, incidən, düşünülməmiş və yaxud kobud sözlər demək günahı onun ruhuna narazılıq gətirsin və tövbəyə yönəltsin. Mən dua edirəm ki, o, pis və iyrənc sözlərə nifrət etsin və nə vaxtsa onun ağzından belə sözlər çıxarsa, qoy onlar bataqlıq lehməsinə bənzəsin və övladım üçün iyrənc sayılsın. Mənim oğluma (qızıma) öz danışığını idarə etməyi öyrət ki, onun ağzından bir dənə də düşünülməmiş və mənasız söz çıxmasın.

Mənim oğlumu (qızımı) öz dili ilə qurulmuş tələlərdən qoru. Sən Öz Kəlamında vəd edirsən: «Ağzını, dilini tutan insan canını bəlalardan saxlar» (Sül. 21:23). Ona öz dilini qorumağı öyrət və onu hər cür bəladan qoru. Sənin Kəlamında deyilir: «Ölüm və həyat dilin əlindədir, onu sevənlər barından yeyər» (Sül. 18:21). İnsanlara istənilən vəziyyətdə necə və nə vaxt danışmalı olduğunu başa düşməkdə övladıma kömək et. Qoy o, həmişə ümid, şəfa, təsəlli sözləri desin və həyatında heç vaxt ədəbsiz sözlər söyləməsin.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Ya Rəbb, ağzımdan çıxan sözlər, qəlbimdəki düşüncələr hüzurunda qəbul olunsun. Ya Rəbb, mənim Qayam və Satınalanımsan!

*Zəb. 19:14*

Yaxşı adam yaxşılıq xəzinəsindən yaxşı şeylər çıxarır;
və pis adam pislik xəzinəsindən pis şeylər çıxarır.

*Mat. 12:35*

Mən sizə deyirəm: İnsanlar söyləyəcəkləri hər boş söz üçün qiyamət günü hesab verəcəklər. Çünki öz sözlərinə görə bəraət qazanacaq və öz sözlərinə görə məhkum olacaqsan.

*Mat. 12:36–37*

Xoş sözlər sanki pətəkdə baldır, cana şirinlik, sümüklərə şəfadır.

*Sül. 16:24*

Düşünmədən danışanın dili qılınc kimi yaralar,
hikmətlinin dili isə insanları sağaldar.

*Sül. 12:18*

# 17 FƏSİL

# UŞAĞI MÜQƏDDƏSLİYƏ CAN ATMAĞA NECƏ HƏVƏSLƏNDİRMƏLİ

Təmizlikdə və müqəddəslikdə yaşamağa öyrədilmiş uşaqların aydın, xoşbəxt və qeyri-adi cəlbedici üzləri olur. Müqəddəs Kitab deyir: «Hətta uşaq da əməlləri ilə, işlərinin saf, doğru yoxsa əksinə olması ilə tanınar» (Sül. 20:11). Biz istəyirik ki, övladlarımız saleh insanlar olsunlar və mənəvi təmizlikləri sayəsində zahirən gözəl olsunlar. Lakin bu, öz-özünə baş verməyəcək. Buna öyrənmək lazımdır. Övladlarımızı Allahın yollarının təmizliyinə öyrətmək və onlar üçün Rəbbə sadiqlik nümunəsi olmaq bizim gücümüz daxilində olsa da, yalnız Müqəddəs Ruh həqiqi müəllim ola bilər. Müqəddəslik Rəbbə məhəbbətdən başlayır. Müqəddəs Kitab bizim hər birimizə nəsihət verir: «Özünü təmiz saxla» (1 Tim. 5:22). İstənilən adam, xüsusilə uşaq üçün bu tapşırığı yerinə yetirmək çətindir. Onu yalnız Allaha və Onun qanununa tam itaət şəraitində və Müqəddəs Ruhun gücündə yerinə yetirmək olar.

Biz köçəndə oğlumun məktəbi bitirməyinə az qalmışdı və yeni kollektivə öyrəşmək onun üçün çətin idi. Yeniyetmə üçün güclü imanlı olsa da, bu çətin sınaq idi. Bu, kiçik şəxsi məsihçi məktəbi idi. Birinci həftə ərzində Kristofer özünün bütün sinif yoldaşları ilə tanış oldu. Sendi adlı bir gənc onların hamısından seçilirdi. O, çox

yaxşı idmançı idi, əla oxuyurdu və müxtəlif uğurlarına görə onu dəfələrlə mükafatlandırmışdılar. Sendinin sözləri və əməlləri onun Allah qarşısında dərin ehtiramını və Onun əmrlərinə hörmət etməsini əks etdirirdi və bu, onun ən vacib xüsusiyyəti idi.

Bir dəfə bütün oğlanlar səhər yeməyinə toplaşanda, kimsə ədəbsiz zarafat etdi və Sendidən başqa hamı güldü. Mənim oğlum da hamı ilə birlikdə güldüyünü boynuna aldı. «Axı mən təzəyəm və başqa planetdən gələn kimi görünmək istəmədim», — o, bu hadisə barədə evdə danışarkən özünə bəraət qazandırmaq istəyirdi.

Kristofer tezliklə gördü ki, Sendi heç vaxt nalayiq zarafatlara gülmür, siqaret çəkmir, içki içmir və dalaşmır. Lakin buna baxmayaraq, hamı onu sevir və hörmət edirdi.

Bir dəfə valideyn iclasından evə qayıdanda, Kristoferə tanış olduğum çox yaxşı bir qadın haqqında danışdım. «Onun ümumi kütlədən nədəsə seçilməsi o dəqiqə hiss olunurdu, — mən dedim. — Onda o qədər yaxşılıq, istilik və məhəbbət var — əsl Allah adamıdır. Onun həm də gözəl yumor hissi var. Mənə onunla ünsiyyətdə olmaq elə rahat idi və indi mənə elə gəlir ki, onunla çoxdan tanışam». Mən o qadını təsvir edəndə Kristofer qışqırdı: «Bu ki, Sendinin anasıdır».

«Əlbəttə, — mən cavab verdim. — Necə mən bunu həmin an bilmədim! Sendinin yalnız belə valideynləri ola bilər — ruhən güclü, dərin imanlı və duaçı. Uşaqlar təsadüfən Sendi kimi olmurlar, onları tərbiyə etmək lazımdır».

Bütün tədris ili ərzində biz bu gözəl ailəni müşahidə etdik və onun hər bir üzvünün qeyri-adi şəxsiyyət olduğunu gördük. Nə üçün? Ona görə ki, onların həyatının əsasında seçilməyə çalışmaq və özləri haqqında təsəvvür yaratmaq deyil, lakin Allaha dərin hörmət və Onun yolu ilə — müqəddəslik və təmizlik yolu ilə getmək dayanırdı.

Mənim oğlum daha o məktəbdə oxumur və biz daha Sendinin ailəsi ilə görüşmürük. Bizim həyat yollarımız ayrılsa da, onları heç

vaxt unutmayacağıq. Onların nümunəsi bizə daha yüksək məqsədlərə can atmağı öyrətdi, mənəvi dəyərlərimizin daha yüksək olmasına səbəb oldu və saflığı qiymətləndirməyi öyrətdi.

Gəlin dua edək ki, övladlarımız saleh həyat tərzini sevsinlər ki, o maqnit kimi onları özünə çəksin və onları nə isə pis hərəkət etməyə itələyəndə, onlar həmin an düşməni tanıya bilsinlər və günaha üstün gəlsinlər. Yazılıb: «Çünki Allah bizi murdarlığa deyil, müqəddəsliyə çağırmışdır» (1 Sal. 4:7). Allahın əmrlərinə görə olan həyat, özündə saflığı və bütün insanların bütövlüyünü nəzərdə tutur. Əxlaq — həqiqi müqəddəsliyin əsasıdır. Salehliyə səy göstərən və Allahı axtaran uşaqlar həmişə xeyir-dualı olacaq və həyat qüvvəsilə dolacaqlar.

Sendi — Müqəddəs Yazılardakı sözün təcəssümüdür: «Qoy heç kim sənin gəncliyinə xor baxmasın. Amma sözdə, rəftarda, məhəbbətdə, ruhda, imanda və paklıqda imanlılara nümunə ol» (1 Tim. 4:12). Müqəddəslik və təmizlik yolunu izləyən uşaqlardan gözəl heç nə yoxdur. Gəlin dua edək ki, bizim körpələrimiz də onların arasında olsunlar.

## *Dua*

***Ya Rəbb***, bu duada Sənə yalvarıram ki, mənim övladımın (uşağın adı) ürəyini Sənə qarşı məhəbbətlə doldur. Qoy onun Sənə can atması alovlu olsun. Ona, Sənin əmrlərinə hörmət etməyi və bunların onun yaxşılığı üçün verildiyini başa düşməyi öyrət. Qoy o, bilsin ki, əgər Sənin iradənə tabe olmayacaqsa, onun həyatı uğurlu olmayacaq. Qoy o, Sənin təlimində kök salsın ki, günah onun həyatına soxula bilməsin. Qoy o, pisliyi, natəmizliyi, murdar fikirləri, ədəbsiz sözləri və şərəfsiz işləri inkar etsin və Məsihə bənzəmək üçün

saflığın və müqəddəsliyin gücünü hiss etsin. Qoy o, Səni axtarsın.

Sən Öz Kəlamında demisən: «Ürəyi təmiz olanlar nə bəxtiyardırlar! Çünki onlar Allahı görəcəklər» (Matta 5:8). Qoy təmiz ürəkdən çıxan saleh yaşamaq arzusu mənim övladımın bütün əməllərində və zahirində əks olunsun. Ya Rəbb, qoy onun geyimi, saç düzümü, üzünün ifadəsi, xarici görünüşü bütünlükdə Sənin qarşında ehtiram və Səni izzətləndirmək arzusu haqqında şəhadət etsin.

Əgər mənim oğlum (qızım) nə vaxtsa, müqəddəslik yolundan dönərsə, onu tövbəyə gətir və Onun ürəyini və həyatını təmizlə. Mənim övladım başa düşsün ki, saleh həyat xeyir-dua və Səni görmək kimi böyük mükafat gətirir.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Rəbbin dağına kim çıxa bilər? Müqəddəs məskəninə kim girə bilər?
Əlləri pak, qəlbi təmiz, hiyləyə könül verməyən, yalandan and
içməyən insan. O, Rəbdən bərəkət alacaq,
xilaskarı Allahdan salehlik alacaq.

*Zəb. 24:3-5*

Böyük evdə isə nəinki qızıl və gümüş, habelə taxta və saxsı qablar da vardır; onlardan bəzisi şərəfli, bəzisi də şərəfsiz istifadə üçündür. Beləliklə, kim özünü şərəfsiz işlərdən təmizləsə, təqdis olunmuş, Ağasının istifadəsinə münasib, hər xeyirli iş üçün hazırlanmış, şərəfli vəzifəyə layiq qab olacaqdır.

*2 Tim. 2:20-21*

Məndə olub meyvə verməyən hər budağı O qoparır; və hər meyvə verəni daha çox versin deyə budayıb təmizləyir.

*Yəh. 15:2*

Orada bir yol olacaq, o yol «Müqəddəs yol» adlanacaq.
Murdar adam oradan keçməyəcək, o yol qurtuluş tapanların yoludur.
Ora ilə gedənlərdən heç biri, hətta ağılsızlar da keçsələr,
əsla yolunu azmayacaq. Orada şirlər olmayacaq, yırtıcı heyvanlar
o yola çıxmayacaq, onlara orada rast gəlməyəcəklər. Ancaq qurtuluş
tapanlar o yol ilə gəzəcək. Rəbbin satın alınmış adamları qayıdacaq,
sevinclə nəğmə deyərək Siona gələcək. Üzlərində əbədi sevinc
olacaq, onlar fərəh və şadlıq tapacaq, kədər və qəm-qüssə yox olacaq.

*Yeş. 35:8-10*

Adam var ki, özünü təmiz sanır, amma murdarlıqdan təmizlənməyib.

*Sül. 30:12*

## 18 FƏSİL

# UŞAQ OTAĞINI NECƏ QORUMALI

Mənim oğlumun on bir yaşı olanda, heç bir səbəb olmadan, onu gecə vahimələri izləməyə başladı. O, qorxulu filmlərə baxmamışdı və o zaman onunla qeyri-adi heç nə baş verməmişdi. Biz Kristoferlə bu barədə bir neçə dəfə dua etmişdik, lakin qorxulu yuxular onu tərk etmirdi.

Bir dəfə səhər bu hadisənin səbəbini mənə açması üçün Allaha dua edəndə, oğlumun otağına keçmək istəyi hiss etdim. «Ya Rəbb, əgər Kristoferin otağında orada olmamalı nə isə varsa, bunu mənə göstər», — mən xahiş etdim. Həmin an ayaqlarım məni stola yaxınlaşdırdı. Orada kompyuterin yanında oyun diskləri var idi. Mən əlimə keçən ilk diski götürdüm. Kristofer bu diski cəmiyyətdəki dostlarının birindən müvəqqəti götürmüşdü. Diskin qutusu hər hansı uşaq macəra oyunlarının qutusu kimi tamamilə günahsız görünürdü. Onu açarkən ilk baxışda maraqlı bir şey müşahidə etmədiyim təlimatı tapdım. Lakin onun arxa tərəfində iyrənc iblis simvolu gördüm. Mən sarsılmağıma baxmayaraq dedim: «Rəbb, Sənə minnətdaram» və tez diski otaqdan çıxartdım.

Əgər oyun oğlumun olsaydı, mən heç düşünmədən onu məhv edərdim, lakin bu vəziyyətdə onun sahibinin valideynlərinə zəng

etdim və bu barədə onlara danışdım. Onlar da bu barədə heç nə bilmədiklərindən məndən az təəccüblənmədilər. Kristofer məktəbdən qayıdanda mən öz tapıntım haqqında ona danışdım. O, dedi ki, bu təlimatı hələ sona qədər oxumayıb və orada nə olduğundan xəbəri yoxdur. O, tərəddüdsüz bu oyunu qaytarmaq qərarına gəldi.

Həmin günün axşamı həyat yoldaşımla mən oğlumun otağını zeytun yağı ilə məsh etdik və duada Rəbdən xahiş etdik ki, onu təmizləsin. Biz Müqəddəs Kitabın sözlərini xatırladıq: «Boyunduruğu boynunuzdan götürüləcək» (Yeş. 10:27). Müqəddəs Kitabda insanların məsh olunması haqqında daha çox danışılsa da, yaşayış yerlərini də təqdis etmək məqsədilə məsh edilməsini təsvir edən epizodlar var. Məsələn, «Sonra məsh yağını götürüb məskəni və içindəki hər şeyi məsh et. Beləliklə, onu və bütün avadanlığını təqdis et ki, müqəddəs olsun» (Çıx. 40:9). Düşmənin bütün boyunduruğunu qırmağı qarşımıza məqsəd qoyaraq, qapının girəcəyini məsh etdik və Müqəddəs Ruhu otağa dəvət etdik ki, Allahdan olmayan hər şey oradan qovulsun.

Kristoferin gecə vahimələrinin, sanki belə hadisə heç olmamış kimi tamamilə sona çatması bizim düzgün hərəkət etməyimizin sübutu idi.

Hər bir evin, xüsusilə uşaqların otağının vaxtaşırı təqdis olunmağa ehtiyacı var. Müqəddəs Kitabda deyilir ki, əgər biz evimizə iyrənc bir şey gətiririksə, bununla onu dağıdırıq. Evlərin profilaktik məqsədlər üçün vaxtaşırı məsh edilməsi yaxşı olardı. Lakin siz uşağınızın davranışında xoşagəlməz dəyişikliklər görmüsünüzsə: o, qorxaq və yaxud kobud, hirsli, zəif, dinməz olubsa, özünü nəzakətsiz aparırsa və ya qorxulu yuxular onu incidirsə, uşağın otağında kifayət qədər dua etmək lazımdır ki, hər şey yaxşılığa doğru dəyişsin. Məsihçi mahnıları, izzət və sitayiş himnləri çox yaxşı təsir edir. Mən şəhadət edirəm ki, öz övladlarımda bundan sonra müsbət dəyişikliklər müşahidə etmişdim.

Mən, on altı yaşlı oğullarını aldadıb sərxoşluq, narkomaniya və okkultizm asılılığı toruna salan düşmənlə ağır mübarizə aparmış bir

ər-arvadla tanışam. Həmin oğlan məktəbdə olanda valideynləri onun otağında səcdə himnləri oxuyur və Müqəddəs Yazılardan parçalar yazılmış kassetlər oxudurdular. Nəticədə itaətsizlik ruhu qırıldı və oğlan yenə də sakit, Allahdan qorxan insan oldu.

Siz övladınızın otağında dua edəndə, Allaha izzət gətirməyən bütün şeyləri — üzərində küfr yaxud spirtli içki və narkotiklə əlaqədar hər hənsı işarə olan afişaları, kitabları, jurnalları, rəsmləri, şəkilləri, oyunları, paltarları tullayın. Bütün bunlarla yanaşı öz hərəkətinizin mənasını və Allahın bunlara münasibətini, Öz Kəlamında bu barədə nə dediyini, uşağa məhəbbətlə və səbirlə izah etməyi unutmayın. Əgər mümkündürsə, nalayiq mahiyyətli bütün əşyaları tullamağı uşağın özünə təklif edin. Uşağa izah etmək lazımdır ki, onun otağını Allahı təhqir edən bütün şeylərdən təmizləmək, onun öz rahatlığı üçün və Allahdan xeyir-dua alması üçün vacibdir. Sonra uşaq otağında dua edin və Rəbdən oranı təqdis etməsini xahiş edin. Mən belə duaların nəticəsində baş vermiş möcüzəli dəyişikliklərin şahidiyəm.

Bu, mövhumatçılıq deyil, əksinə, siz bunlarla təsdiq edirsiniz ki, sizin eviniz, övladınız və onun bütün həyatı Allaha həsr olunub. Siz belə elan etməlisiniz: «…mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək» (Yeşua 24:15). Bu o deməkdir ki, sizin eviniz təqdis olunub və Allahın izzəti üçün ayrılıb.

Gəlin övladlarımızın otaqlarının təqdis olunması haqqında buna ehtiyac yaranmamışdan əvvəl dua etməyə başlayaq.

## *Dua*

***Ya Rəbb***, mən Sənin Müqəddəs Ruhunu oğlum (qızım) yaşayan otağa dəvət edirəm. Sən göyün və yerin Rəbbisən və Səni bu evin Rəbbi elan edirəm. Öz nurunla oranı işıqlandır.

Mənim övladımın otağında məskən salmağa çalışan bütün qaranlığı qov. Qoy burada qorxu ruhuna, məyusluğa, qəzəbə, şübhəyə, həyəcana, qiyama və nifrətə yer olmasın (övladınızın davranışındakı digər mənfi təzahürlərin adlarını çəkin). Ya Rəbb, mən dua edirəm ki, bu otağın qapısı Səndən olmayan hər bir şey üçün bağlı olsun. Əgər burada Sənə məqbul olmayan nəsə varsa, bunu mənə göstər ki, o, buradan uzaqlaşdırılsın.

Mənim oğlumun otağını Öz müdafiə divarınla ört ki, pislik heç cür oraya daxil ola bilməsin. Bu yeri Öz məhəbbətinlə, sülhünlə və sevincinlə doldur. Mən xahiş edirəm ki, övladımın dilinə Davudun sözlərini qoyasan: «Təmiz ürəklə evimdə yaşayacağam, iyrənc şeylərdən gözümü çəkəcəyəm» (Zəb. 101:2–3). Sənə yalvarıram, Rəbb: mənim övladımın otağını Sənin izzətinlə təqdis edilmiş qüsursuz yer et.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Belə iyrənc şeyləri evinizə gətirməyin,
yoxsa siz də onlar kimi məhv olarsınız.

*Qanun. 7:26*

Yuyunub təmizlənin, gözümün önündə işlərinizi
şərdən uzaqlaşdırın, pislik etməkdən vaz keçin.

*Yeş. 1:16*

Beləliklə, ey sevimli qardaşlarım, bu cür vədlərə malik olaraq,
özümüzü hər bir bədən və ruh murdarlığından təmizləyərək
və Allah qorxusu ilə kamil qüdsiyyəti əldə edək.

*2 Kor. 7:1*

Məhəbbətin naminə, ey Allah, mənə lütf et,
bol mərhəmətinə görə asiliklərimi sil.
Mənim bütün təqsirlərimi yu, günahımdan təmizlə.

*Zəb. 51:1-2*

Rəbb pislərin ocağına lənət edər,
salehlərin yurduna xeyir-dua verər.

*Sül. 3:33*

## 19 FƏSİL

# QORXUDAN AZAD OLMAQ ÜÇÜN UŞAĞA NECƏ KÖMƏK ETMƏLİ

Məni psixi cəhətdən qərarsız ana tərbiyə etdiyindən, qorxu lap uşaq yaşlarımdan məni izləyib. Onun dəlisov xasiyyəti və təcavüzkar davranışı məni həmişə həyəcanda saxlayırdı. Mən böyüyüb Məsihə gələndə, qorxunun əsl səbəbini müəyyən etməyi və onunla mübarizə etməyi öyrəndim. Mən öz övladlarıma görə ruhani mübarizə üçün bu taktikanı seçdim.

Biz Los-Ancelesdə olarkən, zəlzələyə, yanğına, daşqına, küçə davalarına və cinayətkarlığın azğınlığına dözməli olduq. Həmin şəraitlərdə qorxu bizim həyatımızı asanlıqla iflic edə bilərdi, əlbəttə, biz ona təslim olsaydıq. Lakin bizim ona qarşı silahımız Allahın müdafiəsi haqqında daimi dua idi. Mən uşaqlarımın gözlərində qorxu görən kimi, biz ailəliklə dua etməyə, Müqəddəs Kitabı və himnləri oxumağa başlayırdıq. O yerlərdən köçəndən sonra biz bir qədər sakitləşdik, lakin buna baxmayaraq, o zaman aldığımız dərsləri unutmadıq. Onlardan ən əsası odur ki, Allahın kamil məhəbbəti hər bir insanın ürəyindən bütün qorxunu güclü surətdə qovur.

Allahın bizi qorumaq və müdafiə etmək bacarığına iman etməyəndə qorxu bizə hakim olur. Uşaqlar həqiqətin və yalanın nə olduğunu müstəqil surətdə ayırd edə bilmədikləri üçün, qorxu onları

asanlıqla əsarət altına salır. Qorxudan azad olmağın yeganə düzgün üsulu Allahın Kəlamının imanla elan edildiyi dua və Allaha məhəbbətinə və qüdrətinə görə həmddir.

İsa şagirdləri ilə dənizdə olarkən fırtına qalxdıqda, O, onların qorxularına münasibətini belə sözlərlə bildirdi: «Ey az imanlı adamlar! Siz niyə qorxaqsınız?» (Mat. 8:26).

İsa istəyir ki, Onun şagirdləri kimi biz də inanaq: əgər bizim həyat gəmimizdə İsa varsa, o, batmayacaq.

Bəzən vahimə uşaq üçün çox ağır yükə çevrilir və onun qəlbini elə sıxır ki, heç bir hərəkət və söz kömək etmir. Bu, o deməkdir ki, uşağı qorxu ruhu izləyir. Lakin Müqəddəs Kəlam deyir ki, qorxu ruhu Allahdan deyil, bizim canlarımızın düşmənindən gəlir.

Valideynlər qorxu ruhuna qarşı dayanmaq üçün İsa Məsihdə olan hakimiyyətə və gücə malikdirlər. Qorxunun bizim üzərimizdə səlahiyyəti yoxdur, lakin bizim onun üzərində səlahiyyətimiz var. İsa bizə düşmənin bütün qüvvələri üzərində səlahiyyət verib (Luka 10:19-a bax). Və buna şübhə etməyin. Əgər siz uzun müddət ərzində rahatlıq tapa bilməmisinizsə, bir necə güclü məsihçi imanlılardan sizinlə bir yerdə dua etmələrini xahiş edin. Çünki haradasa iki, yaxud üç imanlı Rəbbin adı ilə toplaşırsa, O, mütləq onların arasında olur (Mat. 18:20-yə bax). Rəbbin olduğu yerdə qorxu ruhu ola bilməz.

Nə qədər ki, İsa bizimlədir, uşaqlarımız qorxuda yaşamağa razı olmamalıdırlar.

## *Dua*

***Ya Rəbb***, Sənin sözündə deyilib: «Mən məzlum, Rəbbi çağırdım, O, məni eşitdi, Bütün əzablarımdan məni xilas etdi (Zəbur 34:6). Sənin məni eşitdiyinə inanaraq, mən, bu gün səni Çağırmaq istəyirəm. Xahiş edirəm, mənim

övladımı onu udmaqla hədələyən qorxudan azad et. Yazılıb: «Çünki Allah bizə qorxaqlıq ruhu deyil, qüdrət, məhəbbət və nəfsə hakim olmaq ruhu vermişdir» (2 Tim. 1:7). Mənim oğlumu Öz məhəbbətinlə doldur və onun ürəyindən qorxunu və şübhəni qov. Qoy o, Sənin qorxudan və həyəcandan azad edən hüzurunu hiss etsin. Mənim övladıma hər şeydə sənə etibar etməyi öyrət. Ona aydın zəka ver ki, iblisin hüzurunu və yalanı müəyyən etməyi bacarsın.

Qorxu möhkəmlənəndə, ona müdriklik ver, onu qoru və Özünə cəlb et. Mənim övladıma öz qorxularına göz yummamağı, lakin onlar haqqında duada Sənə danışmağı və onlardan azad olmaq üçün xahiş etməyi öyrət. Mən xahiş edirəm ki, belə vəziyyətlərdə Sənin məhəbbətin onun həyatına daxil olsun, oradan hər cür vahimə ruhunu çıxartsın. Qoy o, Sənin sözünü ürəyinə qəbul etsin və onun qəlbində iman möhkəmlənsin.

Ya Rəbb, bizi bütün qorxulardan azad etmək vədinə görə Sənə minnətdaram. İsa Məsihin ismi ilə dua edirəm ki, mənim övladımı elə bu gün hər bir qorxudan azad et.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
### sizin dualarınızı daha təsirli edə bilər

Xeyirxahlığın nə qədər böyükdür! Bunu Səndən qorxanlar üçün saxladın. Bütün bəşər övladları qarşısında Sənə pənah gətirənlərə xeyirxahlıq etdin.

*Zəb. 33:19*

Qorxma, çünki Mən səninləyəm, dəhşətə gəlmə, çünki Allahın Mənəm. Səni qüvvətləndirəcəyəm, Sənə kömək edəcəyəm. Sadiq sağ əlimlə Sənə dayaq olacağam.

*Yeş. 41:10*

Səni qanadlarının altına alar, pərlərinin altında sığınacaqsan. Sədaqəti qalxanın, sipərin olar. Nə gecənin kabusundan, nə də gündüz atılan oxdan, nə zülmətdə dolanan ağır xəstəlikdən, nə də günorta məhvedici qırğından qorxmazsan.

*Zəb. 91:4-6*

Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum?

*Zəb. 27:1*

Ətrafımı ölüm ipləri bürümüşdü, məni əcəl selləri ürkütmüşdü. Ölülər diyarının ipləri mənə sarılmışdı, ölüm kəməndləri məni qarşılamışdı. Əzab içində Rəbbə yalvardım, O, məbədindən məni səsimi eşitdi, fəryadımsa hüzuruna, Onun qulağına yetdi.

*Zəb. 118:4-6*

Məhəbbətdə qorxu yoxdur; əksinə, kamil məhəbbət qorxunu qovar, çünki qorxuda əzab vardır, qorxan isə məhəbbətdə kamil olmamışdır.

*1 Yəh. 4:18*

## 20 FƏSİL

# UŞAĞIN SAĞLAM DÜŞÜNCƏ BACARIĞINI İNKİŞAF ETDİRMƏSİNƏ NECƏ KÖMƏK ETMƏLİ

İblis sizin övladınızın ağlını ələ keçirtmək üçün hər şey edir. Lakin xoşbəxtlikdən sizin ona qarşı durmaq üçün səlahiyyətiniz var. Əgər sizin övladınız hələ kiçikdirsə, siz onun nəyə baxdığını və qulaq asdığını, nə oxuduğunu idarə edə bilərsiniz. Lakin sizin əsas gücünüz duadadır. Buna görə də, sizin övladınız, hətta artıq böyüyüb və hər gün sizin yanınızda olmursa da, siz onun ağlının həmişə təmiz və aydın olması haqqında dua edə bilərsiniz.

Biz İsanı öz həyatımıza dəvət edib, Müqəddəs Ruhla dolanda bir çox başqa xeyir-dualarla yanaşı sağlam ağıl da alırıq ki, bunu başqa heç harada və heç cürə almaq mümkün deyil. Bu, o deməkdir ki, bizə Məsihin ağlı verilib. Müqəddəs Kitab deyir: «Məsih İsada olan fikir sizin aranızda da olsun» (Filip. 2:5). Məsih bizi idarə etməyə başlayanda və bizim öz ağlımız, hər bir düşüncəmizi Onun itaətinə əsir etməyi öyrənməyimizin ölçüsündən asılı olaraq, yeniləşəndə biz dünyanın günahlarına qarşı dayana bilərik.

Mənim anam bütün ömrü boyu, lap gəncliyindən 67 yaşında vəfat edənə qədər, ruhi pozğunluqdan əziyyət çəkmişdi. Fantaziyalar dünyasında yaşamağın və öz ağlını idarə edə bilməməyin nə olduğunu

mən öz gözlərimlə görmüşəm. Mən bu gün də bu haqda düşünəndə titrəyirəm. Allaha iman edəndən sonra dua etməyə başladım ki, nə mən, nə də mənim uşaqlarım buna bənzər heç bir şey yaşamayaq. Həyəcanlı anlarda mən təkrar edirdim: «…Allah bizə qorxaqlıq ruhu deyil, qüdrət, məhəbbət və nəfsə hakim olmaq ruhu vermişdir» (2 Tim. 1:7).

«Allah bizə aydın zəka verib, — mən dəfələrlə təkrar edirdim. — O, bu cür aydın zəkanı mənim oğluma və qızıma da verib. Bununla mən heç zaman razılaşmaram».

Ruhi xəstəliklər, həmişə nəsildən nəslə ötürülmür. Allah bizim övladlarımız üçün ruhi xəstəliklərdən əzab çəkmək və yaxud emosiyalarını idarə edə bilməməyi təyin etməyib.

Ağılın vəziyyəti onun sahibinin nə düşündüyü ilə müəyyən edilir. Əgər onun başı boş, dünya problemləri ilə doludursa, onda onun fikirləri dolaşıq olacaq və o, öz hissləri üzərində idarəni itirəcək. Əgər insan Allahdan olan şeylər, xüsusilə Onun Kəlamı haqqında düşünürsə, onda onun ağlı həmişə aydın olacaq, ürəyində isə sülh padşahlıq edəcək. Müqəddəs Kitab deyir: «Allah qarışıqlıq deyil, sülh Allahıdır» (1 Kor. 14:33). Bir valideyn kimi bizim birinci dərəcəli vəzifəmiz ondan ibarətdir ki, Allahın sözü bizim övladlarımızın başında yaşasın. Belə olsa, onların ağlı həmişə işıqlı olacaq və bizim qorxularımız isə buxarlanacaq.

Allah bizə sağlam düşünmək qabiliyyəti verib. Bəs biz az olanla kifayətlənmək istəyirikmi? Gəlin Allahdan məhz bu ənamı istəyək.

## *Dua*

***Ya Rəbb***, bizə aydın zəka vermək vədinə görə Sənə minnətdaram. Mən xahiş edirəm ki, Mənim övladıma (uşağın adı) aydın, sağlam, zirək, iti, hərarətli ağıl verəsən. Mən

dua edirəm ki, övladımın ağlının heç bir yüklə ağırlaşmaması üçün onun başında qarma-qarışıq, qaranlıq, mənfi fikirlərə yer olmasın. Ona hər zaman sağlam düşüncə ver. Ona qəti qərar qəbul etməyi, lazım olan hər şeyi başa düşməyi və ən vacib olan şeydə fikrini cəmləşdirməyi öyrət. Əgər mənim övladımın beyin fəaliyyətində pozulma və yaxud funksional patologiya varsa, İsanın ismilə şəfa üçün dua edirəm. Qoy o, «ruhən və əqlən» yeniləşsin (Efes. 4:23) və «Məsihin ağlına» (1 Kor. 2:16) malik olsun.

Mən dua edirəm ki, o, Rəbbi bütün qəlbi ilə sevsin və onun başında iblisin yalanları üçün yer olmasın. Qoy Sənin Sözün onun ürəyində mökəmlənsin və onun ağlını pak, cazibəli, fəzilət və tərifə layiq (Filip. 4:8) olanlar doldursun. Qoy o, başa düşsün ki, onun ağlına daxil olan hər şey, özünün bir hissəsinə çevrilir və qoy o, görüb, eşitdiyi hər şeyi diqqətlə götür-qoy etsin.

Sənin Kəlamında deyilib ki, «ağlı Sənə yönəlmiş adamlara Sən kamil sülh verirsən, çünki onlar Sənə güvənir» (Yeş. 26:3).

Mən dua edirəm ki, övladımın Sənə və Sənin Kəlamına imanı günbəgün artsın ki, o, Həmişə sağlam düşüncəli və özünü idarə edən olsun.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Və bu zəmanəyə uyğunlaşmayın, ancaq Allahın yaxşı, məqbul və kamil iradəsinin nə olduğunu dərk etmək üçün ağlınızın yeniləşməsi üçün kökündən dəyişin.

*Rom. 12:2*

Heç nəyin qeydinə qalmayın, amma hər şeydə, dua və niyaz edərək, öz xahişlərinizi Allaha şükranla bildirin. Və Allahın hər cür ağıldan üstün olan sülhü Məsih İsa vasitəsilə ürəklərinizi və düşüncələrinizi qoruyacaqdır.

*Filip. 4:6–7*

Çünki cəngimizin silahları cismani deyildir, lakin istehkamları yıxmaq üçün Allahın qüdrətinə malikdirlər. Biz nəzəriyyələri və Allahın biliyinə qarşı duran hər əngəli yıxırıq və hər düşüncəni Məsihə itaət etsin deyə əsir edirik.

*2 Kor. 10:4–5*

Cismani təbiətə uyan düşüncə — ölüm, Ruha uyan düşüncə isə həyat və sülhdür.

*Rom. 8:6*

Beləliklə, mən bunu deyir və Rəbb adına şəhadət edirəm ki, siz artıq bütpərəstlər kimi hərəkət etməyəsiniz. Onlar ağıllarının boş düşüncələrinə görə davranırlar. Zehinləri qaranlıqlaşmış, içlərində olan cahilliyə və ürəklərinin duyğusuzluğuna görə Allahın həyatına yad olmuşdurlar.

*Efes. 4:17–18*

## 21 FƏSİL

# UŞAĞIN RƏBDƏ SEVİNC TAPMASINA NECƏ KÖMƏK ETMƏK OLAR

Bir dəfə mənim yanıma yeniyetmə bir qız gəldi. O, çox kədərli idi. O, bir saat ağlayaraq özünün acı həyatından, onu intihar etmək haqqında düşüncələrə gətirib çıxaran dəhşətli ümidsizliyindən danışdı. Mən onu dinlədikdən sonra biz birlikdə onu incidən bütün bədbəxtlikləri və həyəcanları haqqında dua etdik və mən, Allaha dua etdim ki, ona «kül yerinə çələng, yas yerinə sevinc gətirən məsh yağı, kədərli ruh əvəzinə həmd libası» (Yeş. 61:3-ə bax) versin.

Biz duanı qurtaranda, onun üzündəki dəyişikliyə görə heyrətə gəlmişdim. Məyus və kədərli ifadə nurlu və sakit gözəlliklə əvəz olunmuşdu. Sevinc ruhu onun ürəyinə daxil oldu və mənim qarşımdakı artıq tamamilə başqa insan idi. O zamandan etibarən bu qız inkişaf etdi və onun çoxlu dostları oldu.

Bədbəxtlikdən, bir çox yeniyetmələr depressiyadan əziyyət çəkirlər. Lakin ən pisi odur ki, o, bizim uşaqlarımızı böyüdükdə də izləyir. O, uşaqlarımıza adi qaydada yaşamağa və işləməyə mane olaraq gəlir, gedir, onların insanlarla münasibətini korlayır, sağlamlığı pozur və hətta onların Allahla münasibətlərinə təsir edir.

Lakin belə olmamalıdır. İnsanın keçmişinin necə olmasından asılı olmayaraq, o, depressiyaya düşməməli və yaxud həmişə pis əhval-ruhiyyədə olmamalıdır. Övladınızın kədərlə, qəmlə yüklənməsinə, çətin xasiyyətli insana çevrilməsinə imkan verməyin. Qoy sizin duanız onu sağaltsın.

Hansı insanın özündə mənfi hisslər saxladığı və hansı insanın ürəyində sevinc ruhunun padşahlıq etdiyi dərhal bilinir. Bu, uşaqlarda xüsusilə tez hiss olunur, çünki onlar böyüklər kimi öz hisslərini gizlətməyi hələ öyrənməyiblər.

Öz övladınıza diqqətlə baxın: siz onun üzündə daha çox hansı ifadəni görürsünüz? Sakitlik, xoşbəxtlik, sevinc ifadəsinimi? Yaxud, incikliyi, narazılığı, ümidsizliyi, qəzəbi, kədəri? Heç bir səbəb olmadan onda pis əhval-ruhiyyə olurmu? Elə olurmu ki, sizin oğlunuz, və yaxud qızınız məyusluğunun səbəbini izah edə bilmir? Tutqun və sərt əhval-ruhiyyə sizin övladınız üçün adi hala çevrilməmiş, Onlara müdaxilə edin. Onların sevinc ruhu ilə qalib gəlmələri üçün dualarımızla mənfi hisslərə qarşı dayanmasaq, bu hisslər onlara tamamilə hakim ola bilərlər.

Övladınızın Rəbdən gələn sevinclə dolması haqqında olan dualarınızın onu başqa insanların əziyyətlərinə qarşı laqeyd edəcəyindən heç vaxt qorxmayın. Bu, baş verməyəcək, çünki Rəbdə sevinc həyat şəraitlərindən asılı deyil. Onun mənbəyi Allahın üzünü görmək və Onun bizim möhtac olduğumuz hər şey olduğunu dərk etməyimizdədir.

Mən demək istəmirəm ki, sizin övladınız heç bir mənfi hiss və qəlb ağrısı hiss etməməlidir. Mən demək istəyirəm ki, mənfi hisslər onu idarə etməməlidir və biz Rəbbə baxmalıyıq, çünki «O, xalqını sevinclə, Öz seçdiklərini mədh səsi ilə çıxartdı» (Zəb. 105:43). Əgər biz bu haqda Ondan xahiş etsək, O, bizim övladlarımızı da eynilə belə çıxardacaqdır.

## Dua

***Ya Rəbb***, mənim övladıma Öz sevincini verməyini Səndən xahiş edirəm. Qoy onun imanı ürəyində elə indi böyüsün və Səndən olan sevincin bütün dolğunluğunu dərk etsin.

Həqiqi xoşbəxtliyin yalnız Sənin tərəfindən verildiyini başa düşməsinə kömək et. Əgər mənfi hisslər onu incitməyə başlasa, Öz məhəbbətinlə onu əhatə et. Qoy o, Yazılardan belə ayələri xatırlasın: «Bu günü Rəbb yaratdı, onda sevinib şadlıq edək (Zəb. 118:24). Mənim övladımı ümidsizlikdən, depressiyadan, tənhalıqdan, məyusluqdan, qəzəbdən və rədd olunmaqdan qoru. Qoy o, heç zaman mənfi hisslərə təslim olmasın. Qoy o, öz ürəyində desin: «Onda canım Rəblə şad olacaq, məni qurtardığı üçün qəlbim fərəh tapacaq» (Zəb. 35:9).

Rəbb, bilirəm ki, mənim övladımın keçirtdiyi mənfi hisslər Sənin təliminə yaddır. Bu gün və həmişə sevinci Səndə tapmaqla, Sənin məhəbbətinə etibar etməyi və ruhən möhkəmlənməyi ona öyrət.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Mən Atamın əmrlərini yerinə yetirib Onun məhəbbətində qalıram.
Əgər siz də Mənim əmrlərimi yerinə yetirsəniz,
Mənim məhəbbətimdə qalacaqsınız. Sevincim sizdə qalsın
və sevinciniz tamam olsun deyə bu şeyləri sizə söylədim.

*Yəh. 15:10-11*

Mənə həyat yolunu öyrədirsən, doyunca sevinc Sənin hüzurundadır,
sağ əlində hər zaman səadət var.

*Zəb. 16:11*

Qoy ümid verən Allah iman həyatınızda sizi hər cür sevinc və sülhlə doldursun ki, siz Müqəddəs Ruhun qüdrəti vasitəsilə ümidlə dolub daşasınız.

*Rom. 15:13*

Çünki qəzəbi bir anlıq olur, lütfü isə ömür boyu qalır. Kimin bir gecə gözündən yaş tökülərsə, onun üçün sübh tezdən sevinc doğar.

*Zəb. 30:5*

Rəbdə böyük sevinc tapacağam, Allahımda ürəyim şadlıqdan coşacaq,
çünki çələnglə bəzənmiş bəy kimi bər-bəzək taxmış gəlin kimi
mənə qurtuluş geyimi geyindirdi, salehlik libası ilə bürüdü.

*Yeş. 61:10*

## 22 FƏSİL

# KEÇMİŞİN LƏNƏTİNİ NECƏ DAĞITMALI

Hamıya məlumdur ki, biz valideynlərimizin zahiri cizgilərini miras almışıq, məsələn, ananın gözləri, atanın burnu və yaxud nənənin saçları. Lakin siz, bilirsinizmi ki, biz hətta valideynlərimizin pis xasiyyət, paxıllıq, bağışlamamazlıq, eqoistlik və qürur, yalançılıq, depressiya kimi xüsusi xasiyyətlərinin də varisləriyik? Ruhani kökü olan bu və ya digər keyfiyyətlər valideynlərdən övladlara və nəvələrə ötürülə bilər. Bəzi ailələrin tarixinə baxdıqda, görə bilərik ki, bir neçə nəsil eyni problemlərlə, məsələn, ailədə möhkəm münasibətlər qura bilməmək, ər-arvad sədaqətsizliyi, sərxoşluq, narkomaniya, suiqəsdliyə meyl və yaxud depressiya ilə üzləşir. İnsanlar: «Nə etmək olar, mən belə doğulmuşam». — deyərək, özlərinə bəraət qazandırmağa çalışırlar.

Müqəddəs Kitabda valideynlərin övladların taleyinə təsiri haqqında deyilir ki, Allah «ataların cəzasını üç-dörd nəslə qədər övladlarına» (Çıx. 20:5) çəkdirir. Bu ayədə Allahı sevməyən insanlar haqqında danışılır. Buna baxmayaraq, imanlı valideynlər də günah yolunu seçə bilərlər ki, bu da ən ciddi formada onların övladlarında öz əksini tapmaya bilməz.

Müqəddəs Kitab deyir: «Buna görə kim Məsihdədirsə, yeni məxluqdur; köhnə şeylər keçdi, indi hər şey yeni oldu» (2 Kor. 5:17).

Lakin bu, o demək deyil ki, biz Məsihə gələndə günah edə bilmirik, bu, o deməkdir ki, biz günahın nəticəsindən, yəni ölümdən azad oluruq və günaha qarşı dayanmaq üçün bizə qüvvət verilir. Buna baxmayaraq, biz hər gün seçirik: bu azadlıqda və gücdə yaşamalıyıq, yaxud yaşamamalıyıq.

Müqəddəs Kitab həmçinin bizə deyir: «...Məsihin bizə bəxş etdiyi hürriyyətdə möhkəm durun və yenidən əsarətin boyunduruğunu taxmayın» (Qal. 5:1). Əgər biz indi günahın əsarətindən azadıqsa, onda nə üçün Müqəddəs Kitab bizi bu təhlükə haqqında xəbərdar edir? Cavab belədir: İsanın bizi azad etməsinə baxmayaraq, geriyə, günaha dönməkdə və seçməkdə biz azadıq.

İş orasındadır ki, biz günaha düşərkən bəzən bədənin arzularına təslim oluruq və etməli olmadığımızı edirik. Bəzən biz pis ailə ənənələrini qoruyuruq və onları öz övladlarımıza ötürürük. Həmişə nəsildən nəsilə ötürülən fiziki keyfiyyətlərdən fərqli olaraq, günaha meyllilik, valideynlərimizdən itaətkarlıqla almalı olduğumuz miras deyil. Nə üçün? Çünki günaha meyllilik həqiqət əvəzinə iblisin yalanını sözsüz qəbul etməkdən başqa bir şey deyil. Düşmən bizi inandırmağa çalışır ki, biz Məsihdə yeni məxluq deyilik və əcdadlarımızın günahlarından azad olmamışıq. İblis imanlını inandırmağa çalışır ki, əgər onun atası və yaxud babası içki düşkünü və adamsevməz olubsa, yaxud, arvadını manipulyasiya edibsə, öz yaxınlarını təhqir edibsə, fırıldaqçı olubsa, o, da belə olacaq, çünki bu mənfi keyfiyyətlər onun irsi cizgiləridir. Lakin biz həqiqətən günahlı ailə ənənələri ilə əlaqəni qırmaq istəsək, bunu dua və Müqəddəs Ruhun qüvvəsi ilə edə bilərik. Lakin əgər, biz əcdadlarımızın sanki güzgüdəki kimi övladlarımızda əks olunduqlarını görsək, onların pis mirasdan azad olmaları üçün dua etməliyik.

«Əgər Allah bizi Öz mərhəməti ilə xilas edibsə, Müqəddəs Ruh bizi təmizləyib və yeniləşdiribsə və biz İsanın qanı ilə salehiksə, onda nə üçün mən hələ də günahla bacara bilmirəm?» — deyə mən bir neçə il əvvəl öz ruhani rəhbərimdən soruşmuşdum. «Bu, iki

səbəbə görə baş verir: ya günah etiraf edilməyib, ya da siz bunu dərk edərək edirsiniz», — o, cavab verdi. «Mən indiyə qədər nə vaxtsa mənimlə baş vermiş hadisələrə görə, ailəmin bəzi üzvlərini bağışlaya bilmirəm, — dedim. — Lakin mən bu günahı etiraf etmişəm və bundan tövbə etmişəm. Bəs nə üçün mən ona tamamilə qalib gələ bilmirəm?»

«Sizin ananız bağışlamağı bacarmayan insan idi, elə deyilmi?» — rəhbərim soruşdu. «Bəli, bu belədir. O, demək olar ki, ailənin bütün üzvlərindən narazı idi. Elə buna görə də o, hamıdan uzaqlaşdı. Bu səbəbə görə onun dostları da yox idi — o, hətta ən kiçik səhvləri də bağışlamaq istəmədiyinə görə onları özündən uzaqlaşdırmışdı». O, dedi: «siz nə vaxtsa fikirləşmisinizmi ki, ananızın bağışlamamazlıq keyfiyyətini miras ala bilərsiniz və o, sizin xarakterinizin bir hissəsinə çevrilə bilər? Uşaqlar öz valideynlərinin xasiyyətlərini miras olaraq götürürlər».

Mən heç vaxt düşünməmişdim ki, mənim hərəkətlərimi sağlam olmayan düşüncə idarə edə bilər. Nə isə mənim hərəkətlərimə təsir etməyi davam edirdi və mən heç cür bağışlamağı öyrənə bilmirdim. Və mən bu haqda nə qədər çox düşünürdümsə, qohumlarımın kinli olmaqları bir o qədər çox yadıma düşürdü. Demək olar ki, bütün ailələr öz tarixlərinin hansısa mərhələsində qəddarlıq hadisələri ilə üzləşirlər və qohumluq əlaqələrinin qırılmasına yol verməmək üçün bunlara diqqət verməməyə çalışırlar.

«Mən bilirəm ki, bu, mənə bəraət qazandırmır. Lakin mən ailə üzvlərimin nə qədər kinli olduqlarını görürəm. Onlar bir-birlərini bağışlamağı bacarmırlar, — mən etiraf etdim. — Lakin ən çox qorxduğum odur ki, bu xasiyyət mənim övladlarıma da ötürülər. Mən görürəm ki, onlar tez-tez hansısa hərəkətləri bir-birlərinə bağışlamırlar. Məni bu fikir dəhşətə gətirir ki, mən və həyat yoldaşım bu dünyadan köçdükdən sonra, bizim övladlarımız bir-birlərinə yad olacaqlar. Mən başa düşürəm ki, övladlarımın xatirinə bu günahdan azad olmalıyam».

Həmin gün rəhbərimlə mən dua etdik ki, bağışlamamazlıq günahı bizim ailə xasiyyəti kimi nəsildən-nəsilə ötürülməsin və Müqəddəs Ruhun gücü ilə dayandırılsın. Mənim Məsihdə yeni məxluq olduğum və keçmiş günahlı adətlər və ənənələrə uyğun yaşamamalı olduğum haqqında Müqəddəs Yazılardan ayələri sitat gətirdim. Bu, mənim üçün açıqlama oldu və bağışlamamazlıq hissi gələn anda, lazım gələrsə, hər saat etiraf edəcəyimi qərara aldım.

Mən etiraf, dua, tövbə edərək bağışlamamazlıq günahından nə qədər çox azad olurdumsa, övladlarımın da azad olmalarını aydın surətdə görürdüm, çünki onların münasibətləri hiss olunacaq dərəcədə yaxşılaşmışdı. Əlbəttə, onların bağışlamaq arzusu təkcə məndən deyil, onların özlərindən də asılıdır. Bağışlamaq, yaxud bağışlamamaq — şəxsi qərardır. Lakin onlar, qarşılarında bağışlamağı bacarmaq nümunəsi görəndə, bu, onların düzgün qərar qəbul etmələrinə gətirib çıxarır.

Valideynlər üçün uşağın xasiyyətini dəyişməyin ən effektli üsulu — valideynin öz günahını etiraf etməkdən başlamaqla, şəxsi xarakterinin dəyişilməyə başlamasıdır. Əgər günah tez-tez baş verirsə, onda o, tezliklə öz mövqeyini möhkəmlədəcəkdir. Məsələn, yalan — günahdır. Təkrarlanan yalan növbəti yalan üçün yol açır və tezliklə vəziyyət ümumiyyətlə nəzarət altından çıxır. Və yaxud, daha bir nümunə: ölmək arzusu da günahdır. İnsan tez-tez «mən ölmək istəyirəm» ifadəsini təkrar edirsə, tezliklə görünür ki, onu intihar etmək haqqında fikir izləyir.

Əgər siz günah etdiyinizi və yaxud Allahın yolundan uzaqlaşdığınızı dərk etmisinizsə, təcili Rəbbin qarşısında tövbə edin, öz günahınızı ona açın və «Rəbb, mən Sənin rəhbərliyini istəyirəm. Həyatımı dəyişmək üçün mənə kömək et», — deyərək, sizi bağışlamasını xahiş edin.

Sonra valideynlərinizin və onların valideynlərinin, sizin və sizin övladlarınızın üzərində hökm sürən günahlarının adlarını deyin və bu haqda dua edin. Müqəddəs Kitab deyir: «Elə həmin Ruh bizdəki

ruha şəhadət edir ki, biz Allahın övladlarıyıq. Və əgər övladıyıqsa, deməli, eyni zamanda varislərik, Allahın varisləriyik; və əgər Məsihlə bərabər izzət qazanmaq üçün Onunla iztirab çəkiriksə, Məsihin həmvarisləriyik» (Rom. 8:16–17). Biz ailə günahlarının deyil, Allahın varisləri olmaq istəyirik.

İsanın adı ilə biz istənilən ailə günahından azad ola bilərik və Müqəddəs Ruhun köməyi ilə onu övladlarımızın həyatına buraxmaya bilərik. Əgər siz, övladlarınızın, ailənin böyük nəslinin günahlarına görə əziyyət çəkmələrini istəmirsinizsə, elə indi dua etməyə başlayın.

## Dua

***Ya Rəbb***, Sən Öz Sözündə demisən ki, yaxşı insan öz nəvələrinə miras qoyur (Sül. 13:22-yə bax). Mən xahiş edirəm ki, mənim övladlarım üçün qoyduğum miras, saleh həyat üçün mükafat olsun və Sənin qarşında təmiz sayılsın. Buna görə də mən İsa ismilə xahiş edirəm: qohumlarımdan və əcdadlarımdan miras götürdüyüm hər bir günahdan məni təmizlə. Mən öz günahlarımı Sənin qarşında etiraf edirəm, bağışlanma və şəfa diləyirəm, çünki Sənin sözündə deyilib: «Əgər günahlarımızı etiraf ediriksə, sadiq və adil olan Allah günahlarımızı bağışlayıb, bizi hər yamanlıqdan təmizləyəcəkdir. Bilirəm ki, mən günahımı etiraf edib, Onun qarşısında tövbə edəndə, övladımın bu günahı məndən miras götürmək ehtimalı əhəmiyyətli dərəcədə azalır.

İsa bizə deyib: «…düşmənin bütün qüvvətini ayaq altında əzmək üçün səlahiyyət verirəm…» (Luka 10:19). Əgər iblis mənim həyatımda yer tutan günahı övladıma (uşağın adı) etdirmək istəyərsə, onun planlarını İsa Məsihin mənə verdiyi

güc və səlahiyyətlə dağıdıram. Mən, xüsusilə (sizin ailə üzvlərinə xas olan və övladınızı qorumaq istədiyiniz qüsurun adı) haqqında dua edirəm. Rəbb, mən Səndən olmayan hər bir şeyi rədd edirəm.

İsa, bizi keçmişimizin günahlarından azad etməyə gəldiyin üçün Sənə minnətdaram. Biz onlardan asılı olmaqdan imtina edirik. Səmavi Ata, «…nurda müqəddəslərin mirasına şərik olmamız üçün…» (Kol. 1:12) bizi çağırdığına və bizi qaranlığın hakimiyyətindən xilas etdiyinə görə Sənə minnətdaram. Mən xahiş edirəm ki, mənim oğlum (qızım) öz qohumlarından pis xasiyyətləri miras olaraq götürməsin, lakin, Sənin əmrinə uyğun olaraq hərəkət etsin: «…dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Səltənəti miras alın» (Mat. 25:34). İsa, Sənə minnətdaram ki, Səndə keçmiş sona çatır və yeni həyat başlayır.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Beləliklə, Məsihin bəxş etdiyi hürriyyətdə möhkəm durun və yenidən əsarətin boyunduruğunu taxmayın.

*Qal. 5:1*

Rəbbimiz İsa Məsihin Allahı və Atasına həmd olsun ki, Öz böyük mərhəmətinə görə, İsa Məsihin ölülərdən dirilməsi ilə yenidən doğulmamızı təmin edib, bizi yaşayan bir ümidə, göylərdə sizin üçün saxlanmış, çürüməz, ləkəsiz, solmaz bir mirasa çatdırdı. Siz Allahın qüdrəti ilə axır vaxtda kəşf olunmağa hazır bir qurtuluşa iman vasitəsilə mühafizə olunursunuz.

*1 Pet. 1:3–5*

Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O, məni məsh etdi. Qəlbləri sınıq olanların yaralarını sarımaq üçün, əsirlərə azadlıq, dustaqlara hürriyyət elan etmək üçün…

*Yeş 61:1*

Buna görə kim Məsihdədirsə, yeni məxluqdur; köhnə şeylər keçdi, indi hər şey yeni oldu.

*2 Kor. 5:17*

Çünki biz də bir zamanlar anlaqsız, itaətsiz, yolunu azmış, müxtəlif ehtiras və zövqlərə qulluq edən, kin və paxıllıqla yaşayıb, iyrənc və bir-birimizə nifrət edən adamlar idik. Amma Xilaskarımız Allahın xeyirxahlığı və insanpərvərliyi izhar olunduğu zaman, salehliklə gördüyümüz işlərə görə deyil, Öz mərhəməti ilə, bizi yenidən doğulma suyu ilə yumaqla və Müqəddəs Ruhla təzələməklə xilas etdi. O, Ruhu, Xilaskarımız İsa Məsih vasitəsilə üstümüzə bol-bol tökdü ki, Onun lütfü ilə bəraət qazanıb, əbədi həyat ümidinə varis olaq.

*Tit. 3:3–7*

# 23 FƏSİL

# SƏRXOŞLUĞA, NARKOMANLIĞA VƏ ASILILIĞIN DİGƏR NÖVLƏRİNƏ QARŞI NECƏ DAYANMALI

İblis bizim övladlarımızı izləyir və onları bizdən oğurlamaq üçün hər şey edir. Sərxoşluq, narkomanlıq və asılılığın digər növləri onun sevimli «qarmaqcıq» larıdır. Övladlarımıza olan hücum o qədər güclüdür ki, onlar özləri bunu dəf edə bilməzlər. Xoşbəxtlikdən onlarda dayanmalarına kömək edən dəstəyimiz, duamız, məsləhətlərimiz var. Bir tərəfdən uşaqların gələcəyi üçün dua etmək heç vaxt tez deyil ki, alkohola və narkotikə meyl olmasın. Çünki, bu tələyə düşmək hətta erkən yaşlarda da çox asandır. Digər tərəfdən, bu ehtiyaclar üçün dua etməyə başlamaq heç vaxt gec deyil, ona görə ki, insan həyatının istənilən mərhələsində günaha təslim ola bilər. Əlli yaşını keçəndən sonra, içki düşkününə çevrilən bir kişi tanıyıram. O, spirtli içkilərə meylli olduğunu heç vaxt inkar etmirdi. Lakin o, möhkəm içkilər verilən bir şənlikdə olana qədər, bu zəifliyə təslim olmamışdı. O, bir qədər içmişdi, lakin evə gəldikdə isə daha dayana bilmədi. Yəqin ki, onun dua edən anası, atası və yaxud dua qrupunda onun üçün vəsadət edən dostları olsaydı, bu heç vaxt baş verməzdi.

Rəbbi izzətləndirən məsihçi musiqiçilərin günaha təslim olaraq, içki düşkünü və yaxud narkoman olduqlarını mən özüm görmüşəm.

Belə adamlar ruhani müharibənin ön cərgəsində olurlar və düşmən tərəfindən təslim edilənə qədər təhlükəni görmürlər. Onlar özlərini iblis üçün asan əldə edilən qənimət kimi təqdim edirlər və tezliklə onun toruna düşürlər. Bu, yalnız ona görə baş verir ki, onların həyatları dua ilə qorunmur. Etiraf etmək lazımdır ki, onlardan bəziləri könüllü surətdə günah yoluna gedirlər, lakin onların böyük bir hissəsi saleh həyat yaşamaq istəyirlər. Bu faciənin səbəbini onda axtarmaq lazımdır ki, bədənin səsi və iblisin hücumları bizim düşündüyümüzdən daha güclüdür. Bizim hər birimizdə olan zəif anlarda, insan hətta ağlından belə keçirtmədiyi hərəkəti edə bilər. Yalnız Allahın dua vasitəsilə hərəkət edən gücü hər şeyi dəyişə bilər.

Əgər sizin oğlunuzun və yaxud qızınızın artıq belə problemi varsa, iblis onların həyatında hansısa yeri artıq zəbt edibsə, Məsihdə kim olduğunuzu bilərək, heç qorxmadan onunla mübarizəyə çıxın və itirilənləri qaytarın. Sizin övladlarınız iblisə deyil, sizə məxsusdurlar və siz Allahın taxtı qarşısında onlar üçün vəsadət edə bilərsiniz. Sizdə güc və səlahiyyət var. İblisdə onlar yoxdur. Onun üsulları məlumdur: yalan və aldatmaq. Həyatınızda, övladınız da daxil olmaqla, hər şeyin Rəbbi olan Xilaskarınız İsa Məsihdən aldığınız qüvvət ilə iblisin yalanlarını aşkara çıxardın.

Müqəddəs Kitab deyir: «Beləliklə, yeyirsinizsə, içirsinizsə, nə edirsinizsə, hər şeyi Allahın izzəti üçün edin» (1 Kor. 10:31). Gəlin, övladlarımızın öz qayğılarına qalmaları üçün və onların bütün hərəkətlərində Rəbbi izzətləndirmək arzusunun olması üçün dua edək.

## *Dua*

***Ya Rəbb***, Sənə yalvarıram ki, mənim övladım (uşağın adı) hər cür asılılıqdan, xüsusilə spirtli içkidən və narkotikdən azad olsun. Onu möhkəmləndir, Özünə cəlb et və hər

şeydə Sənə güvənməyi ona öyrət. Hansı yolla getməli olduğunu ona göstər və ona aç ki, özünü Qorumaqla, o, Sənə xidmət edir.

Mən Sənə yalvarıram, Rəbb: mənim övladımı alkohola və narkotikə cəlb etməklə, məhv etməyə çalışan iblisin bütün planlarını dağıt və elə et ki, mənim oğlum (qızım) onlara qarşı heç bir həvəs hiss etməsin. Sənin Sözündə deyilib: «Yol var ki, insanın qarşısında düz görünür, amma sonu ölümdür» (Sül. 16:25). Yalanı tanımağı ona öyrət və ölum gətirən hər şeyə «xeyr» və Allahdan olub, həyat gətirən hər şeyə «bəli» demək üçün ona güc ver. Hər bir imtahanda həqiqəti görməyi ona öyrət və onu pislikdən, iblisin qurduğu tələlərdən qoru. Qoy o, həmişə həyatı seçsin və başa düşsün ki, bu dünyada hər şey yalnız Səndən asılıdır.

İsanın ismilə dua edirəm ki, mənim övladım öz bədənini Sənin izzətin üçün müqəddəslikdə saxlasın.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Çünki əgər cismani təbiətə görə yaşayırsınızsa, öləcəksiniz;
lakin əgər bədənin mənfi əməllərini Ruh vasitəsilə məhv edirsinizsə, yaşayacaqsınız.

*Rom. 8:13*

Buna görə də təşvişi ürəyindən qov, əzabı bədənindən uzaqlaşdır.

*Vaiz 11:10*

Qarşınızda həyatla ölümü, bərəkətlə lənəti qoyduğum üçün,
bu gün göyü və yeri sizə şahid tuturam.

*Qanun 30:19*

Əməlisalehi salehliyi qurtarar, xaini acgözlüyü tələyə salar.

*Sül. 11:6*

Beləliklə, əgər sizi Oğul azad edərsə, həqiqətən azad olarsınız.

*Yəh. 8:36*

## 24 FƏSİL

# UŞAĞI ƏXLAQI QİYMƏTLƏNDİRMƏYƏ NECƏ ÖYRƏTMƏLİ

Cinsi əxlaqsızlıq günahı — bizim uşaqlarımızı təhlükəli yaralarla, ölümlə və əbədi cəhənnəmlə izləyən ən dəhşətli bədbəxtliklərlə bir sırada dayanır. Nə üçün? Ona görə ki, onun nəticəsi həm valideynlərin, həm də uşaqların bütün həyatı boyu iz qoyur. «Abort», «nigahdan kənar cinsi əlaqə», «xəyanət», «homoseksualizm», «zöhrəvi xəstəliklər», «QIÇS» — bunlar hər bir valideynin dəhşətlə titrədiyi problem yığınıdır. Bu gün isə bu məsələ həqiqətən həyat və ölüm sualına çevrilib. Hamıya məlumdur ki, cinsi əxlaqsızlıq izsiz keçmir. Lakin bizi övladlarımızın yalnız fiziki sağlamlıqları narahat etmir. Müqəddəs Kitab bizi «cana qarşı döyüşən cismani ehtiraslardan» (1 Pet. 2:11) uzaqlaşmağa çağırır. Cinsi əxlaqsızlığın nəticəsində can məhv olur.

Mən bu problem haqqında oğlum və qızım hələ çox kiçik olanda dua etməyə başlamışam və indi də bu barədə yorulmadan dua etməyi davam edirəm. Sözsüz ki, mən övladlarımın SPİD-dən ölmələrini və yaxud Kristofer və Amanda nigaha girməzdən əvvəl nəvələrimin dünyaya gəlməsini istəmirəm. Bundan başqa, onların Allaha itaətsizlik etmələrini və öz təyinatlarını yerinə yetirməmələrini istəmirəm. Mən bilirəm ki, insan bədənin arzularını razı salmaq üçün

Allahın hüzurundan, sülhündən, xeyir-duasendan və sevincindən imtina edə bilər. Qiymət həddindən artıq böyükdür.

Allahın yollarını uşağa öyrətməyi təxirə salmadığımız kimi, uşaq yeniyetmə olana qədər gözləmək və duanı da təxirə salmaq olmaz. Elə indi, dua etməyə başlamaq lazımdır. Bu gün tamahın toruna düşmək xüsusilə asandır: bizim övladlarımızı hər yerdə açıq-saçıq afişalar, kinoda və reklamda səhnələr, jurnallarda açıq-saçıq şəkillər izləyir. Uşaq qəlbləri daim atəşə tutulur və biz günahın onlardan yan keçəcəyini düşünərək aldanırıq. Bu, belə deyil, çünki günah çox böyükdür. Uşaqların valideynlərinin vəsadət dualarına ehtiyacları var. Hətta sizin oğlunuz və ya qızınız günahın məhvedici təsirinə düşübsə, günahı etiraf edib, tövbə etmək, bağışlanma və şəfa almaq heç vaxt gec deyil.

Müqəddəs Kitab deyir: «Öz ağlına güvənən axmaqdır, hikmətlə gəzib-dolanan azad olur» (Sül. 28:26). Biz dua etməliyik ki, övladlarımız müdriklikdə gəzmək, təhlükəli tələlərdən qaçmaq və Allahın əmrlərində göstərildiyi kimi hərəkət etmək üçün, özlərinin müvəqqəti hisslərinə deyil, Allaha etibar etsinlər.

Cinsi həyatın təmizliyi — erkən yaşlarımızda öyrənməli olduğumuz Allahın yollarından biridir. Övladınızın neçə yaşlı olmasının, körpə, yeniyetmə, otuz yaşı, bakir oğlan və yaxud artıq cinsi əlaqə təcrübəsi olmasının fərqi yoxdur. Onun cinsi həyatının təmizliyi üçün indi və həmişə dua edin.

## *Dua*

***Ya Rəbb***, övladımın ömrünün sonuna qədər öz cinsi həyatını təmizlikdə saxlamasına kömək et. Ona saleh yaşamaq arzusu ver, qoy əxlaq onun şəxsiyyətinin bir hissəsi və davranışının əsası olsun. Əks cinsə qarşı münasibətdə həmişə

Sənin əmrlərini rəhbər tutmasına və Səndən olmayan hər şeydən imtina etməsinə kömək et. Onun gözlərini Sənin Kəlamının həqiqətinə aç və nigahdan kənar cinsi əlaqənin xeyir-dua gətirmədiyini, belə münasibətlərin davamsız olduğunu və əsl məhəbbət üçün əsas ola bilməyəcəyini başa düşməsinə kömək et. Qoy onun qəlbi heç zaman zina günahının nəticələrinə görə əzab çəkməsin.

Dua edirəm ki, oğlumun (qızımın) həyatında nigahdan əvvəl, öz həyat yoldaşından başqa heç kimlə cinsi əlaqə və intim münasibətləri olmasın və homoseksualizm günahı heç zaman ona toxunmasın. Mənim övladımı pis məqsədləri olan insanla münasibətdən qoru və yaxud belə insanı onun həyatından uzaqlaşdır. Onu hər cür zorakılıqdan qoru. Onun gözlərini bütün dünyanı özünə çəkən azğınlıqdan uzaqlaşdır və qoy o, Sənin xəbərdarlığını bilsin: «…kim dünyaya dost olmaq istəyirsə, özünü Allahın düşməni edir» (Yaq. 4:4). Qoy o, həmişə Sənə məqbul olmağa çalışsın və heç zaman zina günahı etməsin. Onun qəlbini bədən ehtirasından qoru. Qoy Müqəddəs Ruh təhlükəli anlarda işə düşən həyəcan siqnalı kimi, ona öz hərəkətləri ilə, Sənin qarşında icazə verilənin sərhəddinə yaxınlaşdığını xəbərdar etsin.

Sənin Kəlamında deyilir: «İmtahana dözən adam xoşbəxtdir. Çünki sınaqdan uğurla çıxarkən, Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaqdır» (Yaq. 1:12). İmtahan olunanda ona kömək et və həqiqətdə dayanmaq, cismani istəklərə isə «xeyr» demək üçün güc ver. Onu möhkəmləndir və saleh həyat yaşamağı öyrət ki, sonda əbədi həyat tacını ala bilsin.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Çünki Allahın iradəsi budur ki, müqəddəs olasınız, cinsi əxlaqsızlıqdan imtina edəsiniz, hər biriniz öz bədəninə qüdsiyyət və hörmətlə hakim olsun. Allahı tanımayan xalqlar kimi şəhvət ehtirası ilə hərəkət etməməlisiniz.

*1 Sal. 4:3-5*

Cinsi əxlaqsızlıqdan çəkinin. İnsanın işlətdiyi bütün günahlar bədənin xaricindədir, əxlaqsız isə öz şəxsi bədəninə qarşı günah işlədir.

*1 Kor. 6:18*

Bədən isə əxlaqsızlıq üçün deyil, lakin Rəbb üçündür və Rəbb də bədən üçündür.

*1 Kor. 6:13*

Siz hər insanın başına gələndən başqa bir imtahana məruz qalmadınız. Allah sadiqdir; O, gücünüzdən artıq imtahan olunmanıza razılıq verməz, lakin imtahan ilə yanaşı, qurtuluşu da təmin edəcəkdir ki, tab gətirə biləsiniz.

*1 Kor. 10:13*

Lakin hər kəs öz ehtirası ilə aparılaraq və aldanaraq imtahan olunur. Ehtiras isə boylu qalıb günah doğurur.

*Yaq. 1:14-15*

## 25 FƏSİL

# ÖVLADIMIZIN ALLAHIN TƏYİN ETDİYİ HƏYAT YOLDAŞI TAPMASINA NECƏ KÖMƏK ETMƏLİ

Övladlarım doğulan kimi, mən onların gələcək həyat yoldaşları üçün dua etməyə başladım. Mən bu gün də, bu haqda dua edirəm və onların nigah bağlayacaqları günə qədər dua edəcəyəm. Bununla yanaşı, həm də onlarda heç zaman boşanma arzusunun olmaması üçün dua edirəm. Ola bilsin ki, kiməsə bu dualar vaxtından qabaq edilmiş kimi görünsün. Lakin bu belə deyil. İsanı öz ürəklərinə qəbul etdikdən sonra evlənmək və ya ərə getmək qərarı, övladlarımız üçün ən vacib qərar sayılır. Ona görə ki, məhz bu qərar onların bütün sonrakı həyatlarını müəyyən edir. Bu addımın, hətta onların ailə üzvlərinin həyatına da təsir etməsi barədə danışmağa dəyməz. Səhv qərar, bütün yaxınları ağrıda bilər. Sizin övladınız üçün, ən yaxşı həyat yoldaşının kim olacağını yalnız Allah bilir. Ona görə də, bu məsələlərdə yalnız O, ən yaxşı məsləhətçi ola bilər və yalnız Onun fikri düzgün və qəti sayılır. Mən uğursuz nigah yaşayan, həyat yoldaşı tərəfindən kobudluq, ər-arvad xəyanəti, gec qurulmuş təkrar nigahlar (uşaq əldə etmək üçün), yaxud tənhalıqdan əzab çəkən tanışlarım haqqında düşünəndə, belə nəticəyə gəlirəm

ki, onlardan heç birinin gələcək həyat yoldaşları və ailələri üçün dua edən valideynləri olmayıb. Digər tərəfdən mən nigahları ideal olan və yuxarıda sadalanan bədbəxtliklərdən heç birini yaşamayan cütlər tanıyıram. Burada qəribə heç nə yoxdur. Ona görə ki, onların nə vaxtsa, dua edən valideynləri olub və yaxud onlar özləri gələcək həyat yoldaşları üçün Allahın razı qaldığı düzgün seçim etdiklərinə əmin olana qədər dua ediblər. Bu adamlar əks cinsə qarşı yüngül fikirdə olmayıblar və Allahın zina etməmək haqqında əmrinə etinasızlıq etməyiblər. Onlar özlərini Allahın onlar üçün hazırladığı gələcək həyat yoldaşları üçün təmiz saxlayıblar və səxavətlə mükafatlandırılıblar.

Müşahidələrim və şəxsi təcrübəm məni əmin edir ki, əgər biz, iki nəfəri Öz hakimiyyətilə əbədi birləşdirən Kəsə dua ediriksə, ər-arvad ittifaqı göylərdə bağlanır.

Təmtəraqlı toylar ər-arvad xoşbəxtliyinə təminat vermir. Onu yalnız Allah verməyə qadirdir. Müqəddəs Kəlam deyir: «İnsanın qəlbində çox amalı var. Amma Rəbbin niyyəti həyata keçər» (Sül. 19:21). Bəy və gəlini ailə, nigah məsələləri üzrə məsləhətçilər deyil, Rəbb Allah Özü salehlik yoluna istiqamətləndirir. Yeni evlənənlər məsləhət üçün Allaha müraciət etdikdə və Onun əmrlərini izlədikdə, xoşbəxtlik əldə edə bilərlər. Bizim dualarımız isə övladlarımızı Allahın iradəsini axtarmaq yollarında saxlayır və onlara öz hiss və arzularının dalınca getməyə icazə vermir.

Müqəddəs Ruh nigahı möhkəmlədir; ayrılıq ruhu isə onu dağıdır. Dua etmək lazımdır ki, Allahın Ruhu bizim övladlarımızı istiqamətləndirsin və onların gələcəklərini müəyyənləşdirsin.

Əgər sizin oğlunuz və yaxud qızınız nigahdadırsa, ər-arvadın «bir fikirdə və eyni rəydə» (1 Kor. 1:10) birləşməsi üçün dua edin. Çünki «öz-özlüyündə bölünmüş heç bir şəhərə və yaxud ev davam gətirməz» (Mat. 12:25). Dua edin ki, onların evində münasibətlərinə «zolaq vurmağı» bacaran ayrılıq ruhuna yer olmasın. Əgər oğlunuz və ya qızınız artıq boşanıbsa, dağılan hər şeyin bərpa olunması və

bundan sonra onların həyatlarında ayrılıq fikirlərinə yer olmaması üçün dua edin.

Övladımızın neçə yaşı olmasından asılı olmayaraq, onun nigahı üçün dua edin. Boşanma adi hala çevrilib və demək olar ki, hamını həyatının bu və ya digər mərhələsində hədələyir. Gəlin birlikdə ona qarşı dayanaq və Allahın Oğlu İsa Məsihin Müqəddəs Ruhunun gücü ilə özümüzü və övladlarımızı qoruyaq.

## *Dua*

***Ya Rəbb***, mən xahiş edirəm ki, (əgər, Sən mənim övladım üçün subay qalmağı müəyyən etməmisənsə) övladıma (uşağın adı) kamil həyat yoldaşı göndər. Ona ideal arvad (ideal ər) göndər. Mənim oğluma (qızıma) bu insana düzgün münasibət göstərməyi öyrət. Mən dua edirəm ki, həyat yoldaşı seçmək vaxtı gələndə, övladım Sənə itaətli olsun. Qoy o, bu qərarı öz cismani arzuları əsasında deyil, Sənin Kəlamına əsasən qəbul etsin. Qoy o, bütün ürəyi ilə Sənə etibar etsin və öz ağlına güvənməsin. Qoy o, öz yollarında Səni tanısın ki, Sən, onun yollarını düzəldəsən (Sül. 3:5-6-ya bax).

Elə et ki, mənim övladımın həyat yoldaşı olmaq üçün kim təyin olunubsa, yaxşı insan olsun və Sənin əmrlərinə riayət etsin. Qoy o, mənim övladımı xoşbəxt etsin; adi vurğunluqla, Sənin onun üçün təyin etdiyin insana qarşı olan məhəbbət arasındakı fərqi görməkdə, övladıma kömək et. Əgər o, nigaha girməli olmadığı adama qarşı meyl hiss etsə, Ya Rəbb, yalvarıram bu münasibətləri dağıt. Qoy o, başa düşsün ki, heç bir nikahın mərkəzində Sən dayanmasan, davam gətirə bilməz. Əgər Sən, ər-arvad ittifaqına xeyir-dua verməzsənsə, heç kim ona xeyir-dua verə bilməz. Çünki Sənin Kəlamında

deyilir: «Evi Rəbb tikməzsə, bənnaların zəhməti boşa gedər» (Zəb. 127:1). Mən Sənə yalvarıram: xoşbəxt ailənin əsası ola biləcək nikah yarat.

Ya Rəbb, mən Sənə yalvarıram ki, mənim oğlum (qızım) öz seçimini edəndə və özünü nikah bağları ilə bağlamağı qərara alanda, oğlumun (qızımın) seçdiyi, mənim üçün qız (oğul) və bütün ailə üçün xeyir-dua ola biləcək Allah adamı, Sənin sadiq xidmətçin, Səni sevən və Sənin yollarınla gedən insan olsun. Övladımın nigahı, onun həyatında yeganə nikah olsun. Onun ər-arvad həyatında heç bir əqli, mənəvi, fiziki zorakılığa yer olmasın. Qoy onun ailəsini ayrılıq ruhunun hakimiyyəti altında olmayan əqli, mənəvi və fiziki birlik möhkəmləndirsin. Mən oğlumun (qızımın) ər-arvad arasına nifaq salan boşanma, ziddiyyət, inkar ruhundan azad olması üçün dua edirəm. Onların hər birinə ər-arvad sadiqliyini qorumaq üçün, güclü istək ver və bu sadiqliyi dağıtmaq istəyən hər cür istəyi uzaqlaşdır.

Qoy övladımın seçdiyi insan, bütün həyatı boyu onun yeganə həyat yoldaşı və sadiq dostu olsun; qoy onların münasibətlərində sadiqlik, istilik, anlayış, bağışlama, qarşılıqlı dəstək, qayğı və ömürlərinin sonuna qədər bir-birinə məhəbbət padşahlıq etsin.

# MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Kainatın başlanğıcından isə «Allah onları kişi və qadın yaratdı».
«Buna görə insan ata-anasını buraxacaq və arvadına bağlanacaqdır.
İkisi də bir bədən olacaqdır.» Belə ki, onlar artıq iki deyil,
bir bədəndirlər. Beləliklə, Allahın birləşdirdiyini insan ayırmamalıdır.

*Mark 10:6-9*

Qoy hər kəs nigaha hörmət etsin və kəbin yatağı ləkəsiz olsun;
çünki Allah, əxlaqsızları və zinakarları məhkum edəcəkdir.

*İbr. 10:4*

İsa onlara dedi: «Kim arvadını boşayıb başqası ilə evlənərsə,
ona qarşı zina edər.

*Mark 10:11*

Arvad alan uğur qazanar, Rəbbin razılığını alar.

*Sül. 18:22*

Siz başqa bir şeyi də edirsiniz: ağlayıb, sızlamaqla Rəbbin
qurbangahını göz yaşları ilə doldurursunuz. Çünki Rəbb artıq
gətirdiyiniz qurbanlara diqqət etmir, onları sizdən könül xoşluğu ilə
qəbul etmir. Siz «Nə üçün?» deyib soruşursunuz. Çünki səninlə
cavanlığında evləndiyin arvadın arasında Rəbb şahiddir. O, qadın sənin
yoldaşın və nigah əhdi ilə arvadın olduğu halda ona xəyanət etdin.
Allah sizi bir bədən və bir ruh olaraq yaratmadımı? Bəs nə üçün bir?
Çünki O, Özü üçün bir nəsil istəyirdi. Buna görə də özünüzü gözləyin.
Qoy heç kəs cavanlığında evləndiyi arvadına xəyanət etməsin.

*Mal. 2:13-16*

# 26 FƏSİL

# UŞAĞA BAĞIŞLAMAĞI NECƏ ÖYRƏTMƏLİ

Uşaqların qarşısında nəyə görəsə üzr istəməli olanda, «Mən səni bağışlayıram» cavabını gözlədiyimi həmişə onlara deyirəm. Mənim bu sözə ehtiyacım olduğu üçün deyil, onların bağışlamamazlıqdan tamamilə azad olmaları üçün belə edirəm. Mənim övladlarım mübahisə edib, sonra barışanda onlardan bir-birinə «Mən səni bağışlayıram» demələrini xahiş edirəm. Hətta həmin an onlar bir-birindən küsülüdürlərsə də, mən bilirəm ki, bu söz onların qəlbinə işləyəcək. Əlbəttə, «Mən səni bağışlayıram» sözü ürəkdən çıxsa, daha yaxşı olardı. Lakin onlarda hələ səmimilik yoxdursa da, yenə də onları demək, bağışlamaq arzusunun öz-özünə gələcəyini gözləyərək, heç nə deməməkdən daha yaxşıdır.

«Bağışlamaq sizin seçiminizdir, — mən Kristofer və Amandaya izah edirəm. — Siz başqalarını bağışlamadıqda, ölümün bu və ya digər formada həyatınıza daxil olmasına imkan verirsiniz. İnsanı bağışlamaq üçün, ən yaxşısı onun üçün dua etməyə başlamaqdır. Əvvəlcə çətin olsa da, bağışlamağı qərara aldıqda və bağışlamağa başladıqda, biz dualarımıza ehtiyacı olan daha çox problem görürük və qəlbimizdə bizi incidən insana daha çox rəğbət oyanır.

Mən başqalarından bağışlanma gözləyən çox ailələr tanıyıram. Onlar bağışlamaq istəmirlər; onlar nə vaxt bağışlamaq istəyəcəklərini gözləyirlər. Nəticədə belə ailələrin üzvləri arasında düşmənçilik yaranır və qorunur; onlara bir-birinə pis sözlər deyir və bir-biri haqqında pis danışırlar və bəzən illərlə küsülü olurlar. Mərhəmətin və bir-birinə isti münasibətin olmamasına görə onların bütün sözləri və əməlləri, sərbəst hərəkət etmək imkanı verilən qəzəb ruhu ilə qidalanır. Ailənin bəzi üzvləri kinli olduğundan bütün ailə əzab çəkir. Uşaq valideynlərinə yalnız hörmət etməli deyil (bunun üçün ona bütün həyatının xeyir-dualı olacağı vəd olunub), həm də ola bilsin ki, ağır nəticələrə gətirib çıxartmış, bütün səhvlərini və diqqətsizliklərini bağışlamalıdır. Onlar həm də, bacılarını, qardaşlarını, xalalarını, dayılarını, nənələrini və babalarını, dostlarını, düşmənlərini və hətta özlərini də bağışlamalıdırlar və bütün bunlarda biz, onları dəstəkləməliyik. Əgər biz, övladlarımıza bağışlamağı öyrətməsək, pisliyin və onların gələcək həyatlarında hər cür bəlaların təməlini qoymuş oluruq.

Övladlarımızın öz ürəklərini yumşalda bilmələri üçün biz onlara yalnız bağışlamağı və dua etməyi öyrətməli deyilik. Əgər biz, həqiqətən insanları sevməyi öyrənməklərini istəyiriksə, biz özümüz bağışlamağı bacarmalıyıq. Kinlilik, qəddarlıq elə asanlıqla bizim həyatımızın bir hissəsinə çevrilir ki, biz hətta öz çiyinlərimizdə necə yük daşıdığımızı da dərk edə bilmirik.

Nəhayət, mən başa düşdüm ki, başqa insanı bağışlamaq, onun hərəkətlərinə bəraət qazandırmağı nəzərdə tutmur, məni azad edir. Bu zaman bağışlamaq mənim üçün xeyli asanlaşdı. Mən həmişə düşünürdüm ki, başqasını bağışlayarkən, mən ona başa salıram ki: «Sənin etdiyin normaldır». Ancaq bu, heç də belə deyil. Biz bağışlayarkən, Allahın ədalətli olduğuna iman etdiyimizi təsdiq edirik. Mən Allaha: «Ata, bu insana qarşı kinin daha qəlbimə hakim olmasını istəmirəm» — deyəndə, Allahın həqiqəti bildiyini elan edirəm və Ona hakimlik etməyə imkan verirəm, çünki baş verənlər haqqında bütün həqiqəti yalnız O, bilir.

Müqəddəs Kitab deyir: «…Çünki Rəbb, adil Allahdır, Onu intizarla gözləyənlər nə bəxtiyardır!» (Yeş. 30:18). Bağışlamağı bacarmadığımızı Allaha etiraf edəndə, biz Onun xeyir-duasını alırıq və azad oluruq. Allahın nə vaxt iş görməyə başlayacağını rahatlıqla gözləyə bilərik. Bu, həyatımızda xəstəliklərə və əzablara yol açaraq, qəlbimizi qəddarlıq zindanında saxlamaqdan daha yaxşı deyilmi?

Oğul, onu döyən atanı necə bağışlaya bilər? Ana, onun qızını öldürən sərxoş sürücünü necə bağışlaya bilər? Gənc qız, onu zorlayan dayısını necə bağışlaya bilər? İnsan, ona qarşı mərhəmətsiz olana qarşı necə mərhəmətli ola bilər? Əgər bütün bu insanlar Rəbbə iman etməzlərsə, Onun tam bağışlanmasını dərk və qəbul etməzlərsə, heç cür. Biz, Rəbbin tam və sözsüz bağışlanmasını qəbul etdikdə, gözlərimizdən axan sevinc yaşları ilə keçirdiyimiz rahatlığı heç nə ilə müqayisə etmək olmaz. Pavel deyib: «…mən hesab etmirəm ki, onu əldə etmişəm. Yalnız bir şey edirəm, arxada qalan hər şeyi unudub, qarşıda olana çatmağa can ataraq, Allahın Məsih İsa vasitəsilə etdiyi yüksək dəvətə daxil olan mükafat üçün hədəfə doğru qaçıram» (Filip. 3:13-14). Əgər biz, keçmişə bağlı qalırıqsa, Allahın bizim üçün hazırladığı həyatda yaşaya bilmərik. İsa deyib: «Mərhəmətli olanlar nə bəxtiyardırlar! Çünki onlara mərhəmət ediləcəkdir» (Mat. 5:7). Gəlin övladlarımız üçün dua edək — dua edək ki, onlar insanlara qarşı mərhəmətli olsunlar və heç bir şey Allahın onlara olan mərhəmətini hiss etmələrinə mane olmasın. Gəlin dua edək ki, onlar hər münasib şəraitdə, insana: «Mən səni bağışlayıram» — deməyi öyrənsinlər; qoy inciklik acısı onlarla Allah arasında divara çevrilməsin və bizim dualarımıza maneçilik etməsin. Bu divarı dağıtmaq üçün bizim vaxtımız yoxdur; bizim dua edilməli həddindən artıq problemlərimiz var.

# Dua

***Ya Rəbb***, Sənə yalvarıram ki, mənim oğluma (qızıma) bağışlamağı öyrədəsən. Sənin onun bütün günahını bağışlamağının bütün dərinliyini ona göstər ki, başqalarını bağışlamaq onun üçün asan olsun. Ona başqalarını öz hiss və emosiyaları əsasında deyil, Sənin istədiyin kimi bağışlamağı öyrət. Ona göstər ki, o, bağışlayarkən, insanın hərəkətlərinə bəraət qazandırmır, lakin özü azad olur. Qoy o, başa düşsün ki, bizim hər birimiz haqda, bütün həqiqəti yalnız Sən bilirsən və buna görə də, onun mühakimə etməyə ixtiyarı yoxdur.

Ya Rəbb, Sənin Kəlamında deyilir: «Qardaşını sevən, nurda və onda büdrədən bir şey yoxdur. Qardaşına nifrət edən isə qaranlıqdadır və qaranlıqda yeriyir; hara getdiyini bilmir, çünki qaranlıq onun gözlərini kor etmişdir» (1 Yəh. 2:10-11). Nə vaxt kinli və qəddar olduğumu mənə göstər, çünki mən belə olmaq istəmirəm. Mən getdiyim yolu aydın görmək istəyirəm. Mən bunu övladım üçün də diləyirəm; qoy o, həmişə bağışlama və məhəbbət işığında gəzsin. Ona, ailənin bütün üzvlərini, dostlarını və hər kəsi bağışlamağı öyrət. Ona keçmiş yollarından azad olmasina kömək et ki, Sənin mirasını ala bilsin. Onun qəlbində kədərin, kinin və ya qəzəbin gizlənməsinə imkan vermə, bu hisslər baş qaldıran kimi onları Sənə açmağı ona öyrət.

Mən Səndən xahiş edirəm ki, mənim övladıma, özünü bütün keçmiş səhvlərinə və uğursuzluqlarına görə bağışlamağı öyrət. Qoy o, heç zaman yer üzündə və onun həyatında baş verən pisliklərə görə, Səni mühakimə etməyə cəsarət etməsin. Mən dua edirəm ki, o, Sənin öyrətdiyin kimi, öz düşmənlərini sevə bilsin, ona lənət edənlərə xeyir-dua versin, ona nifrət edənlərə yaxşılıq etsin, onu təhqir və təqib

edənlər üçün dua etsin (Mat. 5:44-45-ə bax). Mən İsa ismilə dua edirəm ki, mənim övladım onun bütün günahlarını Sənin bağışladığını dərk edərək, yaşasın və bu dərk etmənin sevinci ilə dolsun.

**MÜQƏDDƏS KİTAB AYƏLƏRİ**
**sizin dualarınızı daha təsirli edə bilər**

Qoy hər cür kin, hiddət, qəzəb, çığırtı, küfr, hər növ pis niyyətlə
bərabər sizdən uzaq olsun. Amma bir-birinizə qarşı lütfkar,
şəfqətli olun və Allah Məsihdə sizi bağışladığı kimi,
siz də bir-birinizi bağışlayın.

*Efes. 4:31-32*

Çünki insanların təqsirlərini bağışlasanız, səmavi Atanız sizi də
bağışlar. Amma siz insanların günahlarını bağışlamasanız,
Atanız da sizin günahlarınızı bağışlamaz.

*Mat. 6;14-15*

Və ağası qəzəblənib bütün borcunu ödəyincə qədər,
onu işgəncə verənlərin əlinə verdi. Hər biriniz qardaşlarınızın
təqsirlərini ürəkdən bağışlamasanız, Səmavi Atam da sizi elə edər.

*Mat. 18:34-35*

İnsanın ağlı hiddəti ləngidir,
başqasının günahını bağışlamaq ona şərəf gətirər.

*Sül. 19:11*

Dua edən zaman, kimsəyə qarşı bir kininiz varsa, onu bağışlayın ki,
göylərdə olan Atanız da sizin təqsirlərinizi bağışlasın.

*Mark. 11:25*

# 27 FƏSİL

# UŞAĞA TÖVBƏNİN VACİBLİYNİ BAŞA DÜŞMƏSİ ÜÇÜN NECƏ KÖMƏK ETMƏLİ

Siz nə vaxtsa, günah hissinin təzyiqi altında yaşayan uşaq görmüsünüzmü? Bu yalnız ona görədir ki, onlara öz hərəkətlərini etiraf etməyi, onlardan tövbə etməyi və bağışlama almağı öyrətməyiblər. Onların üzləri, mühakimədən azad uşaqların üzləri kimi, aydın və rahat deyil. Müqəddəs Kitab deyir: «Rəbbə baxan nur saçar, üzü qızarmaz» (Zəb. 34:5). Öz səhvlərini etiraf edən, onlara görə təəssüf edən və dəyişilmək istəyən uşaqlar hətta zahirən də başqa cür görünürlər və öz günahlarını gizlədən və dəyişilmək istəməyən yaşıdlarına bənzəmirlər.

Bizim övladlarımız iki həyat prinsipinə — günahları etiraf etməyə və tövbə etməyə riayət etməyi öyrənməlidirlər, çünki etiraf edilməmiş günah, onlarla Allah arasında divar yaradır. Demək olar ki, «günahdan üz çevirmək və bir daha onu təkrar etməmək qərarını qəbul etmək» mənasını verən tövbə o zaman baş verir ki, sizin uşağınız bu sözləri deyir: «Mən bunu etmişəm. Buna görə təəssüf edirəm və bunu təkrar etmək istəmirəm». Etiraf edilməmiş günah, sizin övladınızı əsarətdə saxlayır və bu, onun üzündə, xasiyyətində və hərəkətlərində əks olunacaq.

Allah itaətsiz İsrailə müraciət edərək dedi: «Orada əməllərinizi və bütün işlərinizi yada salacaqsınız, bu işlərlə siz özünüzü murdar etdiniz. Etdiyiniz bütün pisliklərə görə öz-özünüzdən iyrənəcəksiniz» (Yez. 20:43). Etiraf edilməmiş günahlara görə biz də, özümüzə qarşı belə nifrət hiss edirik və bu, tez-tez bizim özümüzə qiymət verməməyimizdə əks olunur. Əgər biz valideynlər, uşaqlarımıza öz günahlarını etiraf etməyi və onlardan tövbə etməyi öyrətməsək, onların qəlbində kök salan özünü qiymətləndirməmək və günah hissi onların həyatını dağıda bilər. Uşaqlarım etiraf etməzdən əvvəl, həmişə onların üzlərindən özlərini təqsirkar hiss etdiklərini görürdüm. Onlar sonra mənə danışırdılar ki, günahlarını gizlətmək onlar üçün çətin imtahan idi və bunu daşımaq ağır yük olurdu.

«Bu ona görə baş verir ki, mən Allahdan bilməli olduğum hər şeyi mənə açmasını xahiş etmişdim, — mən uşaqlarıma deyirdim, — və siz düzgün hərəkət etməyəndə Müqəddəs Ruh həmişə mənə deyir».

Mən məsum uşaq gözlərinin tutulduğunu görən kimi, Allahdan xahiş edirdim ki, onların hər cür gizli günahını mənə açsın. Etirafdan, tövbədən və uyğun gələn cəzadan sonra Kristofer və Amanda tamamilə başqa cür görünürdülər: onların çiyinlərindən sanki ağır bir yük götürülürdü. Günah qəlbi zəhərləyir, etiraf olunmamış günah isə insanı torpağa əyir, onun surətini dəyişdirir və kədərli edir. Etiraf edilmiş günah və həlim ürək həyata işıq, əminlik və azadlıq gətirir.

Bir halda ki, ideal uşaqlar yoxdur, körpə qəlblərində gizlənən hər cür günahı bizə göstərməsini Rəbdən xahiş etməliyik ki, ciddi nəticələr özünü göstərməmiş ölçü götürək. Bunun hamısını edən Allahdır, «çünki qəlbin hər sirrini bilən Odur» (Zəb. 44:21). Biz hamımız arvadlarını döyən, uşaqlarına zülm edən və yaxud, dayanmadan «şən» həyat keçirən, «yaxşı və tərbiyəli» kişilər haqqında eşitmişik. Əmin ola bilərsiniz ki, belə kişinin ürəyində etiraf olunmamış günah var. Şübhə etmək lazım deyil ki, övladlarımızın qəlblərindəki

gizli günahlar, sonda ən arzuolunmaz nəticələrə gətirəcək. Onu açmağın vaxtı çatıb. «Etdiyiniz günahların hamısını üstünüzdən götürün, özünüzdə yeni ürək və yeni ruh yaradın. Nə üçün öləsiniz, ey İsrail nəsli?» (Yez. 18:31). Allahdan xahiş edin ki, sizin və yaxud övladınızın ürəyindəki hər cür etiraf olunmamış günahı üzə çıxartsın ki, sonra ona görə bədənin və yaxud qəlbin sağlamlığı ilə hesablaşmaq lazım gəlməsin.

Günah ölümə aparır. Tövbə isə həyata aparır. Biz Allahın gözlərini açmaq üçün, günahlarımızı etiraf etmirik — O, onsuz da hər şeyi bilir. Tövbə, təmizlənmək və hər şeyi yenidən başlamaq üçün bizim şansımızdır. Övladlarımızın buna ehtiyacı bizdən az deyil.

## Dua

***Ya Rəbb***, Səndən xahiş edirəm ki, mənim övladımda öz səhvlərini etiraf edən ürək yarat. Bağışlanma və təmizlənmə almaq üçün, ona həqiqətən peşman olmağı öyrət. Sənin əmrlərinin onun, öz yaxşılığı üçün verildiyini başa düşməsinə və Sənin gözlədiyin etirafın və günahlardan tövbənin onun həyatının normasına çevrilməli olduğunu başa düşməsinə kömək et. Övladımın qəlbinə Sənin qarşında həqiqətdə gəzmək istəyi ver ki, o da Davud kimi deyə bilsin: «Mənim bütün təqsirlərimi yu, günahımdan təmizlə. Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver. Məni öz hüzüründan atma, Müqəddəs Ruhunu məndən götürmə» (Zəb. 51:2, 10-11).

Ya Rəbb, hər cür gizli günahı aç ki, övladım onları etiraf etsin, tövbə etsin və bağışlanma alsın. Sənin Kəlamında deyilir: «Gör qəlbimdə pisliyə yol verirəmmi? Əbədi yolda mənə rəhbər ol!» (Zəb. 139:24). Qoy o, heç zaman günah

hissinin və mühakiəmnin ağır yükü altında yaşamasın. Qoy o, Sənin onu Məsihdə bağışladığını dərk edərək, təmiz vicdanla yaşasın. Mən dua edirəm ki, onun ürəyi həmişə Sənə tərəf dönsün, üzündə isə həmişə sevinc olsun.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Sevimlilərim, əgər ürəyimiz bizi məhkum etmirsə,
bizim Allah qarşısında cəsarətimiz vardır. Və nə rica etsək,
Ondan alarıq, çünki Onun əmrlərinə riayət edirik və Onun qarşısında
məqbul olan işləri görürük.

*1 Yəh. 3:21–22*

Qoy pis adam öz yolunu, şər adam öz fikirlərini atsın. Qoy Rəbbə sarı
dönsün ki, Ondan mərhəmət tapsın. Qoy bizim Allahımız tərəfə
dönsün, çünki onun əfvi boldur.

*Yeş. 55:7*

Buna görə, ey İsrail nəsli, sizin hər birinizi əməllərinizə görə
mühakimə edəcəyəm Xudavənd Rəbb belə bəyan edir. Tövbə edib
bütün günahlarınızdan dönün ki, təqsir sizi məhvə sürükləməsin.

*Yez. 18:30*

Günahlarını ört-basdır edən uğur qazanmaz,
onu etiraf edərək tərk edən mərhəmət tapar.

*Sül. 28:13*

Beləliklə, günahlarınızın silinməsi üçün tövbə edin və Allaha
qayıdın ki, Rəbbin hüzurundan dincəliş vaxtları gəlsin; və sizin üçün
əvvəlcədən təyin olunan İsa Məsihi göndərsin.

*Həv. 3:19–20*

# 28 FƏSİL

# DÜŞMƏNÇİLİK QALALARINI NECƏ DAĞITMALI

Övladlarınızın vəziyyətində və davranışında sizi çox narahat edən və həyəcanlandıran nəsə görüb, lakin, öz narahatçılığınızın səbəbini başa düşmədiyiniz anlar olubmu? Əgər belə olubsa, Allahın sizə verdiyi instinktin səsinə qulaq asın və baş verənin səbəbi haqda Ondan soruşun. Bizim, baş verən hər şey haqqında məlumatı olan, kainatın Yaradıcısı ilə əlaqəmiz var və biz Ondan müdriklik və açıqlama istəyə bilərik.

Övladınızın üzündə günah ifadəsini görüb, lakin, bunun nəyə görə baş verdiyini başa düşmədiyiniz vaxt olubmu? Başqa sözlə desək, hansısa günahın olduğundan şübhələnmisiniz, lakin sübutunuz olmayıb. Belə vəziyyətlərdə mən həmişə Rəbbə belə dua edirdim: «„Ey Allah, ağılsızlıq etdiyimi bilirsən, günahlarım Səndən gizli deyil“ (Zəb. 69:5). Övladımla nə baş verliyini mənə göstər». Və hər dəfə Rəbb, mənə bədənin istəyinə görə baş verən günahı göstərirdi. Belə ki, övladlarımdan biri icazə vermədiyim yeməyi gizlicə öz otağına aparırdı. Gələn dəfə istədikləri nəticəni əldə etmək üçün, uşaqlar yalan danışmaqdan istifadə etdilər. Bütün hallarda günahlar mənim dualarımdan sonra açılmışdı.

Mən həmişə övladlarımı xəbərdar edirdim ki, ata və ananı aldatmaq üçün çalışmağa dəyməz, çünki Allah onsuz da onlara həqi-

qəti göstərəcək. Onlar tezliklə mənim sözlərimin həqiqiliyinə əmin oldular.

Mən bir hadisəni yaxşı xatırlayıram. Bu, Amandanın yeddi yaşı olanda baş vermişdi. Hər gün səhər yeməkdən əvvəl, həkimimizin təyinatına görə ona vitaminlər verirdim: üç dənə kiçik həb. Adətən, mən onları nəlbəkidə, boşqabın böyrünə qoyurdum. O, əvvəlcə şıltaqlıq edir və onları qəbul etmək istəmirdi. Lakin sonra o, sakitləşdi və onun bütün qarşıdurmaları və şikayətləri sona çatdı. Lakin bütün bu müddət ərzində, Amandanın hərəkətlərində nə isə məni çox narahat edirdi, mən özümü yaxşı hiss etmirdim, lakin öz narahatçılığımın səbəbini tapa bilmirdim.

Mən Rəbbə müraciət etdim: «Ya Rəbb, Amandanın həyatında görməli olduğum, lakin görmədiyim şeyi mənə göstər».

Növbəti bir neçə gün ərzində demək olar ki, heç nə baş vermədi və köçmək üçün əşyaların bağlanması ilə məşğul olduğum üçün, mən bu haqda çox düşünmədim. Yükdaşıyanlar böyük əşyaları daşımaq üçün gələndə, biz uşaq stullarının söykənəcəyindən üzlükləri çıxartmağa başladıq. Budur, Amandanın stulunun üzlüyündən iyirmi altı həb tapdım. Mən gözlərimə inana bilmirdim. Tapdığımı həyat yoldaşıma göstərdim və birlikdə gülməkdən özümüzü saxlaya bilmirdik. Buna baxmayaraq bilirdik ki, qızımızla ciddi danışmalıyıq.

Biz daha beş üzlüyü çıxartdıq və onlardan dördündə iyirmi və yaxud otuz dənə belə dairəciklərdən tapdıq və bu bizim təəccübümüzə səbəb oldu. Yalnız, Amandadan uzaqda olan stul «təmiz» çıxdı. Bu dəfə biz gülməkdən uğunduq.

Amanda məktəbdən qayıdanda, bizim üzümüzdə ciddi ifadə gördü. Stolun üzərində onun qarşısına ağzına kimi vitaminlərlə dolu stəkan və su ilə dolu fincan qoyulmuşdu. Ona ciddi şəkildə deyildi: «Əgər bunların hamısını bir dəfəyə yemək istəmirsənsə, bütün bunların nə demək olduğunu izah etməlisən».

Bu hadisə gülməli və bir qədər mənasız görünə bilər. Lakin bu hiylə baş tutsaydı və açılmamış qalsaydı, daha böyük yalana yol açar

və yalan bizim övladlarımızın həyatının normasına çevrilə bilərdi. Mən Rəbbə minnətdaram ki, daha ciddi şeylər baş verməmiş belə hadisələri bizə göstərir.

Övladınızla xoşagəlməz bir şeyin baş verdiyini hiss edirsinizsə, onun qəribə vəziyyətinin səbəbini həmişə gizlədilmiş günahda axtarmayın. Ola bilər ki, o, ümidsizlik və həyəcan içindədir, paxıllıq edir, qürurun və eqoistliyin hakimiyyəti altındadır. Dəqiq bilmək, demək olar ki, mümkün deyil. Ən yaxşısı bu haqda Allahdan soruşmaqdır. Hətta indiki anda vəziyyəti düzgün başa düşmürsünüzsə, yenə də dua edin. İsa belə vəziyyətlərdə sözlər verib: «Bizi hiyləgərdən xilas et» (Mat. 6:13). Bəzən bizdən xüsusi fərasət tələb olunmur; biz, yalnız övladlarımızın həyatını Öz Ruhunun qüvvəsi ilə nurlandırması və onları pislikdən qoruması xahişi ilə duamızı Allaha yüksəltməliyik. Ən başlıcası, bu haqqa laqeyid yanaşmamaqdır.

Hətta əgər, bu gün övladınızın davranışı sizə tamamilə normal görünürsə, yenə də dua təsirli və effektli vasitə olaraq qalır. Uşaqlardan həmişə xoşa gəlməz şeylərə görə şübhələnmək olmaz; onların ətrafında fırlanan, həyatlarına soxulmaq üçün fürsət axtaran, onların qəlblərinin düşməninidən şübhələnin. Allahın Kəlamı xəbərdar edir: «Ayıq durun, sayıq olun. Çünki düşməniniz olan şeytan, nərə çəkən və aşırmaq üçün kimisə axtaran aslan kimi gəzir» (1 Pet. 5:8). Növbəti ayə bizə hərəkət etmək üçün dəqiq göstəriş verir: «ona qarşı durun».

## *Dua*

***Ya Rəbb***, övladım üçün (uşağın adı) vəsatət edirəm və Səndən xahiş edirəm: onu Sənə məqbul olmayan və onun həyatında günah üçün dayaq ola biləcək hər şeydən azad et. Əgər onun nədən azad olmalı olduğunu mən bilmirəmsə,

Sən bilirsən. İsanın ismilə dua edirəm ki, ona şəfa verəsən. Mən bilirəm ki, « cismani aləmdə hərəkət ediriksə də, cismani təbiətə görə hərəkət etmirik. Çünki, cəngimizin silahları cismani deyildir, lakin istehkamları yıxmaq üçün, Allahın qüdrətinə malikdirlər. Biz nəzəriyyələri və Allahın biliyinə qarşı duran hər əngəli yıxırıq…» (2 Kor. 10:3–5).

Övladımla ünsiyyət qurmaq üçün, mənə müdriklik ver. Mən bilirəm ki, iblis tədricən hərəkət edir, buna görə də, Ya Rəbb, mən Sənə etibar edirəm və nəyi bilməli olduğumu mənə göstərməyini xahiş edirəm. Övladıma görə həyəcan, təlaş və qorxu keçirəndə, mənə dua etməyi öyrət. Məndən gizlədilmiş hər şeyi mənə göstər və qoy, bütün gizli olan şeylər açılsın. Əgər mən nə isə etməliyimsə, mənə göstər. Övladımı tərbiyə etmək üçün, mənə göstərdiyin köməyə görə Sənə minnətdaram.

Ya Rəbb, mən bu gün oğlumu, qızımı (uşağın adı) Sənin əllərinə verirəm və xahiş edirəm: onu istiqamətləndir, müdafiə et və onun həyatında öz mövqeyini möhkəmlətməyə çalışan günahı ona göstər. Onun qəlbində öz qalalarını ucaltmağa çalışan iblislə müharibə aparmaq üçün ona güc ver. Düşmənin yaxınlaşdığını hiss etməyi ona öyrət ki, həmişə vacib olanda, Sənin yanına qaçsın və Səndə sığınacaq və dayaq tapsın. Qoy o, bu cür sözlərlə Sənə müraciət etsin: «…məni gizli təqsirlərimdən təmizlə» (Zəb. 119:12). Mən Sənin Sözünə görə elan edirəm ki: «Rəbb məni hər cür pis işdən qurtaracaq və Öz Səmavi Səltənəti üçün hifz edəcəkdir…» (2 Tim. 4:18).

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
**sizin dualarınızı daha təsirli edə bilər**

Səmavi Səltənətin açarlarını sənə verəcəyəm;
yer üzündə bağlayacağın hər şey göylərdə bağlanmış olur və yer üzündə açacağın hər şey göylərdə açılmış olur.

*Mat. 16:19*

Beləliklə, onlardan qorxmayın. Çünki elə gizli bir şey yoxdur ki, açılmasın; və elə xəlvəti bir şey yoxdur ki, bilinməsin.

*Mat. 10:26*

Doğurdanda pis cəzasız qalmaz, salehlərin nəsli xilas olar.

*Sül. 11:21*

Rəbb məzlumların pənahgahıdır, sıxıntı anlarında müdafiə qalasıdır.

*Zəb. 9:9*

Məni çağır, sənə cavab verim, bilmədiyin böyük,
dərk edilməz şeyləri sənə bildirim.

*Yer. 33:3*

## 29 FƏSİL

# UŞAĞA MÜDRIKLIK ƏLDƏ ETMƏSİ ÜÇÜN NECƏ KÖMƏK ETMƏLİ

Mənim övladım bilirmi ki, yad adamın maşınına əyləşmək olmaz? Bilirmi ki, dərin hovuzun yanında oynamaq olmaz, çünki bu təhlükəlidir? Mənim oğlum və ya qızım narkotikin dadına baxmağı təklif edən yaşıdlarına «xeyr» deyəcəkmi? Küçəni keçməzdən əvvəl sola və sağa baxmağı unutmayacaqmı? Oğlum ona tamamilə uyğun gəlməyən qıza evlənmək təklif etməz ki? Mənim övladlarım yaxınlaşmaqda olan qaçılmaz təhlükənin yaxınlaşdığını hiss edəcəklərmi? Övladlarımızın müvəffəqiyyəti və təhlükəsizliyi çox vaxt yalnız onların özlərinin qəbul edəcəkləri qərardan asılıdır. Lakin bu qərarın hər cür nəticə verə bilməsi fikri, istənilən valideyni dəhşətə gətirə bilər.

Əgəryi övladlarımız müdrikli, həqiqəti və yalanı ayırd etmək, Allahın səsini eşitmək kimi ənamlara malik deyillərsə, onların qəbul etdikləri qərarların düzgünlüyünə əmin ola bilmərik. Bu xoşbəxtliyi əldə etməyin yeganə üsulu — onları verməsi üçün, Allaha xahişlə müraciət etməkdir. Müqəddəs Kitab bizə deyir: «Əgər sizlərdən birinin hikməti əskikdirsə, hər kəsə comərdliklə verən Allahdan diləsin…» (Yaq. 1:5).

Həyatınızdakı hadisələri Allahın idarə etdiyini hiss etdiyiniz vaxtlar olubmu? Məsələn, siz ilk baxışda qəribə görünən qərar qəbul edirsiniz, lakin sonra, bu qərarın düzgün olduğu aşkara çıxır. Ola bilər ki, siz, bir dəfə işıqfor sizə icazə verdiyi vaxt sola dönməmisiniz. Lakin siz, dönsəydiniz, qırmızı işıqda sizə tərəf şütüyən maşınla toqquşardınız. Siz düz hərəkət etmisiniz, lakin burada sizin xidmətiniz yoxdur. Bəzi adamlar bunu təsadüf adlandırırlar, lakin mən, burada Allahın işini görürəm.

Biz istəyirik ki, övladlarımız ağıllı və müdrik olsunlar. Çünki onlar böyüdükdə, öz həyatlarında müstəqil surətdə daha çox vacib qərarlar qəbul edəcəklər. Belə ki, mənim oğlum orta məktəbi bitirdikdən sonra, konkret qərar qəbul etməli idi. Mən təklikdə oturub, nəfəsimi içimə çəkərək onun üçün dua edirdidm: «Ya Rəbb, ona müdriklik və Sənin aydın rəhbərliyini ver». Allah bu duaya cavab verdi və biz bu gün, bu hərəkətin həqiqi səbəbini yalnız Allah bilsə də, o vaxt Kristofer tərəfindən qəbul edilmiş qərarın düzgünlüyünə əminik.

Məsəllər Kitabında məharətlə qeyd olunub: «Hikmətli oğul atasını sevindirər, axmaq oğul anasına dərd gətirər» (Sül. 10:1). Həqiqətən də, oğlu müdrik hərəkət edən atadan daha çox kim qürur hissi keçirə bilər? Və özünü axmaq aparan oğulun anasından daha çox kim inciyib, əzab çəkər? Məsəllər bizi öyrədir: əgər sən «idrakı çağırsan» və «gümüş kimi arasan» (Sül. 2:3–4), o zaman Allahdan bilik əldə edəcəyik. Mən inanıram ki, bizə lazım olan bütün məlumatlar və bütün müdriklik Rəbdə cəmləşib. Gəlin duada xahişlə Allaha müraciət edək və özümüzü bədbəxtliklərdən qoruyaq.

## Dua

***Ya Rəbb***, Səndən xahiş edirəm ki, övladıma (uşağın adı) müdriklik, yaxşını pisdən ayırmaq bacarığı verəsən. Şəxsi təsəvvürlərindən asılı olmayaraq, Sənə etibar etməyi və bütün işlərində Səni görməyi ona öyrət (Sül. 3:5-ə bax). Yaxşını və pisi ayırd etməyi və «yol budur, gedin bu yola» — deyən Müqəddəs Ruhun səsini tanımağı ona öyrət. Mən bilirəm ki, onun həyatının xoşbəxtliyi Sənin sözünə əsasən, uzun ömür, var-dövlət, hörmət, uğur, sevinc, razılıq və xoşbəxtlik gətirən, müdrikliyi və ağılı qəbul edəcəyindən asılıdır. Mən arzu edirəm ki, bütün bunlar Sənin xeyir-duan kimi onun həyatına gəlsin.

Sənin Kəlamında deyilir: «Rəbb qorxusu müdrikliyin başlanğıcıdır, Müqəddəsi tanımaq idraklı olmaqdır» (Sül. 9:10). Qoy, Sənin qüdrətin qarşısında sağlam qorxu və Səni dərk etmək onun həyatının təməli olsun. Qoy, qərar qəbul etməzdən əvvəl səhv etməmək üçün, həmişə Sənə müraciət etsin. İdrakın bütün xəzinəsi və bütün biliklər Səndə gizlənib və biz Səndən bu haqda xahiş edəndə qərəzsiz verirsən. Bu həqiqəti ona aç. Qoy o, müdrikliyi səndə axtarsın. Ya Rəbb, Səndən xahiş edirəm ki, mənim övladımın xahiş etdiyini onun üzərinə bolluqla tök ki, o, sülh və həyat yolu ilə getsin.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

Salehin atası bolluca fərəhlənəcək, hikmətli övladı onu sevindirəcək.
Qoy ata-anan sevinsin, səni doğan fərəhlənsin.

*Sül. 23:24-25*

Hikmət hər şeydən üstündür, gərək onu qazanasan, idraka sahib olmaq üçün var yoxunu verəsən. Onu üstün tutasan, səni ucaldar, əgər ona bağlansan, səni şərəfə çatdırar.

*Sül. 4:7-8*

Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir,
Rəbbin əmrləri pakdır, gözləri aydın edir.

*Zəb. 18:8*

Hikmət qəlbinə dolar, bilikdən könlün xoş olar. İdrak səni hifz edər, dərrakə səni qoruyar. Hikmət səni pislərin yolundan, sözü məkrli adamlardan qurtarar.

*Sül. 2. 10-12*

Hikmətə çatan, dərrakə tapan insan nə bəxtiyardır! Bunları qazanmaq gümüş qazanmaqdan yaxşıdır, bu qazanc saf qızıldan dəyərlidir. Hikmət yaqutlardan qiymətlidir, xoşladığın bütün şeylər ona tay deyil. Onun sağ əlində uzun ömür, sol əlində sərvət və şərəf var. Onun yolları bəyənilir, bütün yolları əmin-amandır. Ona bağlananlar üçün o, həyat ağacıdır, ondan möhkəm yapışanlar nə bəxtiyardır!

*Sül. 3:1*

## 30 FƏSİL

# UŞAĞIN İMANDA BÖYÜMƏSİNƏ NECƏ KÖMƏK ETMƏLİ

Mən dəfələrlə yeniyetmələrin valideynlərindən belə sözlər eşitmişəm: «Mənim oğlumu heç nə maraqlandırmır», «Mənim qızım ümidsiz kimi, heç bir məqsədsiz evin içində vurnuxur», «Mənim oğlumu məktəbdən qovacaqlar, amma deyəsən onun üçün fərqi yoxdur», «Mənim qızımın həyata olan marağı tamamilə itib». Bu vəziyyətlərin hər birində uşaqlar həyatın mənasını görə bilmədikləri üçün əzab çəkiblər. Onlar ona görə həyatın mənasını görmürdülər ki, Allaha və Allah Kəlamına inanmırdılar.

İmanı olmayan uşaqlar üçün yaşamaq çətindir. Onların yaxşılığa tərəf dəyişilməyə ümidləri yoxdur, onlar öz təyinatlarını bilmirlər. Onlar günlər, aylar və saatlarla televizor qarşısında otururlar. Küçələrdə «macəra» axtararaq veyillənirlər və adətən də tapırlar. İmanlı olmayan uşaqlar vaxtlarını eynilə bu cür imansız uşaqların arasında keçirirlər. Çətin uşaqlar adlananların problemləri elə budur. Onlar bilmirlər ki, İsa, onlara görə ölüb (Rom. 5:8-ə bax.), onları sevən Allahın övladlarıdır (Yəh. 1:12-yə bax), onların xüsusi məqsədləri və çağırışları var (1 Kor. 7:22), onların gələcəkləri gözəldir (1 Kor. 2:9-a bax) və buna görə də hər şeyə qalib gələ bilərlər (Rom. 8:37-yə bax). Onlar bilmirlər ki, «iman edənə hər şey mümkündür»

(Mark. 9:23) və onların gələcəkləri gözəl bir şeyi özündə gizlədir. Bu uşaqlar yalnız özlərinin çatışmamazlıqlarını, uğursuzluqlarını və böyüklərin gündəlik düşmənçiliklərini görürlər. Buna görə də, onlar həyatda məyusdurlar və heç nə istəmirlər.

Lakin şəxsi keyfiyyətsizliyini dərk etmək, mütləq imanın olmamasına şəhadət etmir. Lakin insan, özünü itmiş kimi hiss edəndə, elə fikirləşir ki, Allah da Öz imkanlarında məhduddur. O zaman insanın imanı zəifləməyə başlayır. Əgər uşaqlar yeganə etibarlı, dəyişilməz və qüdrətli həyat mənbəyinə inanmırlarsa, onda onlar özlərinə və onlara təhlükəli və qeyri-sabit görünən gələcəklərinə necə inanacaqlar?

İndi bir uşağı ərsəyə çatdırıb, onu böyük həyata buraxdıqda, mən başa düşürəm ki, uşaqlar valideynlərinin evini tərk edəndə özləri ilə götürdükləri yeganə şey imanlarıdır. Əgər biz, əmin olsaq ki, övladlarımızın Allaha və Onun Kəlamına möhkəm imanları var və onların ürəklərində Allah məhəbbəti yaşayır, biz arxayın ola bilərik ki, onlar düz yol ilə gedirlər və onları əbədi həyat gözləyir. Bunları əldə etmək üçün, bizim dualarımız onlara çox kömək edir.

İsanı hər gün görən, Onu dinləyən və Onun möhtəşəm işlərinin şahidi olan həvarilər yenə də Ondan: «imanımızı artır» — deyə xahiş etdilər. Biz də uşaqlarımız üçün duada vəsadət edən zaman bu haqda xahiş edə bilərik.

Bizdən daha çox möcüzələr görən İsraillilərə, öz imansızlıqlarına görə vəd olunmuş torpağa girməyə icazə verilmədi (İbr. 3:19-a bax). Biz istəmirik ki, övladlarımızın zəif imanı, Allahın onlar üçün hazırladığı mirası almağa mane olsun. Biz onlara, onların ürəyinə iman toxumu səpən, Allah Kəlamını öyrədə bilərik və onun böyüməsi üçün dua edə bilərik.

İmanlı uşaqlar öz imansız yaşıdlarından fərqlənirlər: onlar özlərinə daha əmindirlər, daha məqsədyönlüdürlər, xoşbəxtdirlər, gələcəyə daha nikbin baxırlar və insanlarla daha tez ünsiyyətə girirlər. İmanı güclü olan insanların ən əsas xüsusiyyətlərindən biri vermək,

başqaları ilə bölüşmək — təkcə pulları və maddi vəsaitləri ilə deyil, həm də öz vaxtlarını və məhəbbətlərini bölüşmək bacarığıdır. O, həmişə dayaq olmağa hazırdır və çətin anlarda köməkdir. İmanlı insan Allahın məhəbbəti ilə doludur və bunu başqa insanlarla bölüşməyə imkan axtarır.

Müqəddəs Kəlam deyir: «İndi isə üç şey baqidir: iman, ümid, məhəbbət; amma məhəbbət bunların hamısından üstündür» (1 Kor. 13:13). Göylərdə iman bizə lazım olmayacaq, çünki hər şeyi öz gözlərimizlə görəcəyik. Ümid də orada bizə lazım olmayacaq: çünki ümid etdiyimiz hər şey real olacaq. Lakin məhəbbət heç zaman tükənməyəcək və əbədi olaraq davam edəcəkdir, çünki Allah məhəbbətdir, O da əbədidir. Ona görə də, bizim nə qədər böyük işlər görməyimiz və başqalarına nə qədər kömək etməyimiz vacib deyil. Əgər bütün bunlar məhəbbətsiz edilirsə, mənasızdır. «Və əgər bütün varımı paylayıb, yoxsulları doyduraramsa və bədənimi yandırılmağa təslim edərəmsə, lakin məhəbbətim yoxdursa, bunun mənə heç bir xeyri yoxdur» (1 Kor. 13:3). Məhəbbətlə gördüyümüz işlər əbədi qalır və onların mükafatı həyat tacıdır.

Məhəbbət çox dəyərli xəzinədir. İmandan başlamasına baxmayaraq, o, imandan üstündür. Ona görə də biz, dua edirik ki, övladlarımız imanda böyüyərək, Allahın əlində alətə çevrilsinlər. Adətən, insanlar bölüşmək istəmirlər, çünki, onlarda olanın azalacağından və onların özlərinə də çatmayacağından qorxurlar. Başqa bir səbəb odur ki, onların qəlbində Allah məhəbbəti yoxdur. Gəlin dua edək ki, övladlarımız öz məhəbbətlərini bölüşməyi öyrənsinlər və bunu ancaq Allaha imanla, müdrikliklə və Müqəddəs Ruhun rəhbərliyi altında etsinlər. Əgər onlar, bu prinsiplərin ardınca getsələr, onların həyatı mütləq Allahın lütfü ilə dolacaq.

Biz övladlarımız üçün yanğı və səylə dua edən zaman, tez-tez özümüzün də duaya, azad olunmağa və yeniləşməyə ehtiyacımız olduğunu hiss edirik. Əgər özümüz inciklikləri yada salırıqsa, övladlarımızın başqalarını bağışlamağı öyrənməsi üçün, necə dua edə

bilərik? Əgər biz özümüz qəlbimizdə tövbə edilməmiş günahı gizlədiriksə, övladımızın tövbə etməyi öyrənməsi üçün, dua etməyə gücü haradan ala bilərik? Əgər özümüz, şübhələrlə mübarizə aparırıqsa, övladımızın imanını artırması üçün Allahdan necə xahiş edə bilərik? Əgər özümüz, açıq ürəkli olmağı bacarmırıqsa, övladlarımıza insanları sevməyi necə öyrədə bilərik? Bu şübhələrin mənə də əzab verməsinə baxmayaraq, mən duanı dayandırmıram. Mən, Rəbbin qarşısına təvazökar qəlblə gəlib, özümdəki bütün pis şeyləri etiraf edirəm və ondan kömək diləyirəm. Əgər siz, imanınızın zəif olduğunu hiss edirsinizsə, bunu Rəbbə etiraf edin və bu fəslin sonunda verilmiş dua ilə özünüz və sonra da övladınız üçün dua edin. Müqəddəs Kəlam deyir: «…imandan olmayan hər şey günahdır» (Rom. 14:23). Əgər biz şübhə ediriksə, demək Allaha itaətsizik; yox əgər iman ediriksə, demək itaətliyik. Şübhə Allahın qüdrətinə imansızlıqdan meydana çıxır. Öz zəif imanınıza imkan verməyin ki, Allahla sizin aranızda divar qaldırsın. Yaxşısı budur ki, zəif iman sizin və övladınızın imanını artırması üçün, Allaha tez bir zamanda müraciət etməyinizə səbəb olsun.

Bu kitabda dua silsilələrini başa çatdırmağımıza baxmayaraq, mən belə hesab edirəm ki, bu sizin dua xidmətinizin başlanğıcıdır və Rəbb bununla sizə övladlarınızın ehtiyacları üçün, vəsadət dualarına yeni yollar göstərəcək. Yadınızda saxlayın ki, dua edən ata və ana kimi malik olduğunuz güc, sizə Allah tərəfindən verilib və sizin dualarınız bu gücü azad edir ki, Allahın iradəsi yerinə yetsin. Siz bu gücü hər zaman əldə edə bilərsiniz. Lakin yeganə maneçilik, Allahın cavab verəcəyinə olan zəif imanımız ola bilər. Lakin Allahın lütfü bu vəziyyətdə də, elə hərəkət edir ki, malik olduğumuz kiçik iman xardal toxumuna bənzəyərək, nə isə böyük bir şeyin boy atmasına bəs edir.

Gəlin duada başqa valideynlərlə birləşərək deyək: «Qoy duada səpdiyimiz iman toxumları həyat bəxş etsin və övladlarımıza qəlbi Allaha tərəf dönən böyük insanlar olmağa kömək etsin».

# Dua

***Ya Rəbb***, Sənin Kəlamında deyilir ki, Sən, hər kəs üçün «iman ölçüsü» təyin etmisən (Rom. 12:3-ə bax). Səndən xahiş edirəm: övladımın qəlbinə əkdiyin imanı artır. Qoy Sənin Sözünün həqiqəti onun qəlbində möhkəmlənsin və hər gün onu istiqamətləndirsin. Dəyişilmək üçün Sənin rəhbərliyini axtaranda, hər dəfə Sənə etibar etməsi üçün ona kömək et. Bilirəm ki, Sənə etibar edib, etməməyimizə özümüz qərar veririk. Bu seçimi etməsində övladıma kömək et. Dua edirəm ki, onun ümidi Sənə olduğu üçün, həmişə Sənə əminliklə yanaşsın. Qoy onda «ümid edilən şeylərə etimad, görünməz həqiqətlərə» (İbr. 11:1-ə bax) iman olsun. Səndən xahiş edirəm: ona elə iman ver ki, onu hər vəziyyətdən və uğursuzluqdan çıxara bilsin və hər şeyin onun yaxşılığı üçün olacağına əminliyi möhkəmlətsin (Rom. 8:28-ə bax).

Qoy mənim oğlum (qızım, uşağın adı) möhkəm inansın ki, onun həyatında ən vacib olan şey, onun Səninlə olan ünsiyyətidir. Qoy o, kənardan heç bir təzyiq olmadan, öz arzusu ilə Sənə yaxınlaşsın. Əmin olmaq istəyirəm ki, mən bu dünyanı tərk etdikdə, övladımın «möhkəm, sarsılmaz və Rəbbin işində tərəqqi» edərək, qalması üçün, kifayət qədər imanı olacaq.

Dua edirəm ki, mənim övladım imanda gəzərək, Sənin bütün insanların üzərinə tökülən məhəbbətlə dolu ürəyinə, Sənin əmrlərinə əsasən, başqaları ilə bölüşməyə hazır olan ürəyə malik olsun. Ona aç ki, məhəbbəti kiminləsə bölüşəndə, o, heç nə itirmir, əksinə çox şey əldə edir. Dua edirəm ki, övladım «iman qalxanını» ələ götürüb, «şeytanın bütün qızmar oxlarını söndürməyə qadir olsun» (Efes. 6:16-ya bax) və imanda möhkəm dayanaraq belə desin: «Mənə qüvvət

verən Rəbbimiz Məsih İsaya şükür edirəm ki, O, əvvəllər Ona küfr, təqib və təhqir etdiyim halda, məni sadiq sayıb, xidmətinə təyin etdi» (1 Tim. 1:12). Bütün bunlar üçün İsa Məsihin ismi ilə dua edirəm.

## MÜQƏDDƏS KİTAB AYƏLƏRİ
## sizin dualarınızı daha təsirli edə bilər

İman etmədən Allaha məqbul olmaq isə qeyri-mümkündür.
Çünki Allaha yaxınlaşan iman etməlidir ki,
O var və Onu axtaranlara mükafat verir.

*İbr. 11:6*

Bunun üçün sizə deyirəm: Dua edib istədiyiniz hər şeyi almış olduğunuza iman edin və istədiyiniz yerinə yetəcəkdir.

*Mark. 11:24*

İsa da onlara dedi: «İmansızlığınız üçün. Çünki sizə doğrusunu deyirəm: Sizdə bir xardal toxumu qədər iman olarsa və siz bu dağa: Burdan oraya köç, — desəniz, o köçər və sizin üçün mümkün olmayan heç bir şey olmaz».

*Mat. 17:20*

Amma qoy diləyən imanla diləsin, heç şübhə etməsin. Çünki şübhə edən, küləyin qaldırdığı və təlatümə gətirdiyi dəniz dalğasına bənzər. Qoy belə bir adam düşünməsin ki, Rəbbdən bir şey alacaqdır. Mütərəddid adam etdiyi heç bir şeydə sabit deyil.

*Yaq. 1:6-8*

Yaxşılıq edərkən ruhdan düşməyək; çünki əgər zəif düşməsək, vaxtında biçərik. Deməli, nə qədər fürsətimiz varsa, hamıya, xüsusən imanlılar ailəsinə yaxşılıq edək.

*Qal. 6:9-10*

## ƏLAVƏ

# ÖZ UŞAQLARINIZ ÜÇÜN BAŞQA VALİDEYNLƏRLƏ BİRLİKDƏ DUA EDİN

Uşaqlarımıza görə kollektiv vəsadət üçün, dua toplantıları təşkil etməyə göstərdiyim bir neçə cəhddən sonra, nəhayət başa düşdüm ki, belə tipli xidməti necə keçirmək olar. Mən başa düşdüm ki, hər şeydən əvvəl belə toplantıların hər birinin gündəliyi iyirmidən az uşağın xahişindən ibarət olmalıdır. İyirmi uşağa görə dua etmək üçün, altı saat vaxt lazım olurdu. Valideynlər özlərinin çox vaxtlarını qurban verməli olurdular, hələ uşaqların özlərini necə səbirli aparmalı olduqlarından danışmıram. Buna görə də, belə görüşləri ildə bir-iki dəfə, qayda olaraq, şənbələrin birində və yaxud bayramlarda keçirməyi qərara aldıq.

Biz dua toplantımızı günorta saat ikidə başlayırdıq, sonra saat 5-dən 5.30-a qədər fasilə olurdu və axşam saat 8.30-a qədər dua davam edirdi. Bəzən özümüzlə yemək gətirirdik, bəzən isə, evə gətirmək üçün sifariş verirdik. Biz yeniyetmələrdən xahiş etmişdik ki, böyüklər dua edənə qədər, balacaların qayğısına qalsınlar.

Sonra məlum oldu ki, bir ailənin bütün uşaqları üçün, eyni vaxtda dua etmək lazım deyil, çünki bütün ailə evə toplaşırdı. Elə olurdu ki, insanlar ancaq onlara dua edilməsi üçün gəlir və sonra isə gedirdilər.

Daha pis olan o idi ki, uşaqları vəsadət duası üçün gətirib, burada qoyurdular, sonra isə gəlib aparırdılar. Biz belə vəziyyətlərə icazə vermədik. Yalnız bir dəfə, işdə məşğul olduğundan toplantılarda iştirak edə bilməyən dul ananın bu cür xahişini nəzərə aldıq. Belə toplantılarda *bütün* valideynlər, *bütün* övladları üçün, *bütün* vaxt ərzində dua etməlidirlər. İnsanlar belə vəziyyətdə onlardan nə tələb olunduğunu bilməlidirlər ki, buna hazır olub-olmadıqları haqqında düşünüb, qərar çıxartsınlar.

Biz öz hərəkətlərimizin ardıcıllığını müəyyən etmək üçün, bütün ailələrin siyahısını tərtib etməkdən başlayırıq. Sonra biz müəyyən edilmiş nizamla hər ailənin ilk övladı üçün, sonra isə kiçiklərin hər biri üçün dua edirik.

Biz həmişə duanı uşaqlar olmayanda başlayırıq ki, valideynlər öz həyəcan və təlaşlarını açıq deyə bilsinlər və hətta valideynlərin fikrinə görə, övladlarının eşitməməli olduqları xüsusi ehtiyaclar haqqında danışa bilsinlər. Bu uşaq üçün duada biz Rəbdən xahiş edirik ki, onun sağlamlığını möhkəmləndirsin, onu qorusun, onun hərəkətlərinə rəhbərlik etsin, öz bacarıq və qabiliyyətlərini inkişaf etdirməsinə kömək etsin və çox nəzakətlə valideynlərin xatırlatdığı xüsusi problemə toxunuruq.

Məsələn, bir ana övladının bəzi dostlarının ona pis təsir göstərdiyinə görə, çox narahat idi. Uşaq toplantıda olmayanda, biz onun bəzi tanışları üçün konkret vəsadət etdik. Uşaq toplantıda olanda, Allaha dua etdik ki, ona Rəbbin ardıyca gedən dostlarını, Ona qarşı çıxan dostlarından ayırmağı öyrətsin. Belə vəziyyətdə nəzakət göstərmək və uşağın özünü günahkar deyil, sevimli hiss etməsinə şərait yaratmaq çox vacibdir.

Bütün bu illər ərzində birlikdə dua etdiyimiz valideynlər, birgə dualarımızın, onların övladlarının həyatına güclü təsirindən və o dualara aldıqları çoxsaylı cavablardan bu gün də danışırlar. Uşaqlar da özlərini lazımlı və sevimli hiss etdikləri o toplantıları sevinclə xatırlayırlar. Hətta elə vəziyyətlər olurdu ki, valideynlər evdən uzaqlarda

yaşayan övladları üçün də dua etməyi xahiş edirdilər. Bu valideynlər də dualarımızın gətirdiyi yaxşı bəhrələr haqqında şəhadətlər edirdilər.

Yalnız valideynlərin dua etmək üçün, bir yerə toplaşdıqlarına görə, kim bilir bu və ya digər surətdə nə qədər həyat xilas olub və yenə də xilas ola bilər. Siz də belə dua qrupları təşkil etməyə tələsin. Buna ehtiyac həddindən artıq böyükdür və əgər siz qərar versəniz, insanlar mütləq sizə qoşulacaqlar.

# MÜNDƏRİCAT


Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Minnətdarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

1 fəsil. Övladlarımız üçün dua etməyi necə öyrənməli . . . . . . . 7
2 fəsil. Uşağı Allahın əllərinə necə vermək olar . . . . . . . . . . . . 23
3 fəsil. Uşaqları pislikdən necə qorumalı . . . . . . . . . . . . . . . . . 28
4 fəsil. Uşağa onun sevimli olduğunu necə göstərməli . . . . . . . 34
5 fəsil. Əbədiyyətə əminliyi necə əldə etməli . . . . . . . . . . . . . . 40
6 fəsil. Valideynə hörmət etməyi uşağa necə öyrətməli və itaətsizliyə qarşı necə durmalı . . . . . . . . . . . . . . . . . . 45
7 fəsil. Qohumlarla yaxşı münasibətləri necə qoruyub saxlamalı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50
8 fəsil. Övladımıza imanlı dostlar tapmağa necə kömək etməli 55
9 fəsil. Uşağa Allahı bütün ürəyi ilə axtarmağı necə öyrətməli 60
10 fəsil. Uşağa öz çağırışını dərk etməyə necə kömək etməli . . 65
11 fəsil. Uşağa yalanı inkar edərək, həqiqətin ardınca getməyi necə öyrətməli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70
12 fəsil. Uşağın sağlamlığı və şəfası üçün necə dua etməli . . . . 75

13 fəsil. Uşağa bədəninin qayğısına qalmağı necə öyrətməli . . . 80
14 fəsil. Uşaqda oxumaq və Allahı tanımaq arzusunu necə oyatmaq olar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 85
15 fəsil. Uşağın bacarıq və qabiliyyətlərini — Allahın ənamlarını necə müəyyən etməli . . . . . . . . . . . 89
16 fəsil. Uşağa həyat sözləri deməyi necə öyrətməli . . . . . . . . . 94
17 fəsil. Uşağı müqəddəsliyə can atmağa necə həvəsləndirməli 99
18 fəsil. Uşaq otağını necə qorumalı . . . . . . . . . . . . . . . . . . 104
19 fəsil. Qorxudan azad olmaq üçün uşağa necə kömək etməli 109
20 fəsil. Uşağın sağlam düşüncə bacarığını inkişaf etdirməsinə necə kömək etməli . . . . . . . . . . . . . . . . . . . . . . . . . 113
21 fəsil. Uşağın Rəbdə sevinc tapmasına necə kömək etmək olar 117
22 fəsil. Keçmişin lənətini necə dağıtmalı. . . . . . . . . . . . . . . . . 121
23 fəsil. Sərxoşluğa, narkomanlığa və asılılığın digər növlərinə qarşı necə dayanmalı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 128
24 fəsil. Uşağı əxlaqı qiymətləndirməyə necə öyrətməli . . . . . . 132
25 fəsil. Övladımızın Allahın təyin etdiyi həyat yoldaşı tapmasına necə kömək etməli . . . . . . . . . . . . . . . . . . . . 136
26 fəsil. Uşağa bağışlamağı necə öyrətməli. . . . . . . . . . . . . . . . . 141
27 fəsil. Uşağa tövbənin vacibliyni başa düşməsi üçün necə kömək etməli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 147
28 fəsil. Düşməniçilik qalalarını necə dağıtmalı . . . . . . . . . . . . . 152
29 fəsil. Uşağa müdriklik əldə etməsi üçün necə kömək etməli 157
30 fəsil. Uşağın imanda böyüməsinə necə kömək etməli . . . . . . 161

Əlavə. Öz uşaqlarınız üçün başqa valideynlərlə birlikdə dua edin 168

Stormi Omartian

# VALİDEYN DUASININ GÜCÜ

*Azeri language*